NƏSİBƏ İSRAFİLQIZI

# ABBASQULU BƏY ŞADLİNSKİ

*(Tarixi-mənzum roman)*

*II nəşr*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"ƏRGÜNƏŞ" -2011

84(5Az)+63.3(5 Azə)5-8
İ-85

**Redaktor:** **Sərtib İslamoğlu**
*"Vedibasar" qəzetinin baş redaktoru, yazıçı-publisist.*

**Rəyçi:** **Teymur Əhmədov**
*filologiya elmləri doktoru, professor.*

**Məsləhətçi:** **Azər Şadlinski**
*tibb elmləri namizədi, dosent.*

**Nəsibə İsrafilqızı** (İsmayılova Nəsibə İsrafil qızı).
***"Abbasqulu bəy Şadlinski"***, tarixi-mənzum roman.
**Bakı, "Ərgünəş" FM. Nəşriyyat-Poliqrafiya Müəssisəsi 2011, 184 səh.**

Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" tarixi-mənzum romanı Qərbi Azərbaycanın Vedibasar mahalının igid oğlu, yenilməz sərkərdə, Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskiyə həsr olunmuşdur. Tarixi-mənzum romanda Abbasqulu bəy Şadlinskinin yenilməz dəstəsi tərəfindən Vedibasar, Zəngəzur, Naxçıvan, Şərur, Dərələyəz, Gərnibasar və Zəngibasar torpaqlarının erməni daşnaklardan azad edilməsi öz bədii əksini tapmışdır.

Müəllif əsərdə ilk dəfə xalq qəhrəmanının poetik obrazını, onun vətən torpağı uğrunda qəhrəmanlıq şücaətini, hünərini istedad və bacarıqla təsvir etmişdir. Şairə Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" tarixi-mənzum romanı oxucu kütləsi tərəfindən böyük maraq və rəğbətlə qarşılanacaq, hər bir vətənsevərin stolüstü kitabı olacaqdır.

ISBN - 9952 - 426 - 21 - 6

© Nəsibə İsrafilqızı
© "Ərgünəş" 2011

*Bu poemanı mərdliyi, yenilməzliyi, igidliyi ilə milyonların qəlbində özünə əbədi şöhrət abidəsi ucaldan, ağlı, fərasəti, tədbiri, müdrik siyasəti ilə minlərlə qız-gəlinin namusunu, ismətini, qocanın-ahılın, uşağın həyatını düşmən təcavüzündən xilas edən, təkcə doğulub boya-başa çatdığı Vedibasar mahalını deyil, əzəli-tarixi Azərbaycan torpaqlarını daşnak istilasından azad edən, Ata yurdumuzun tarix səhifəsinə həmişəlik ərənlik möhürünü vuran, hər yerdə adını fəxarətlə çəkdiyimiz, sənə, mənə, ona – bütövlükdə bizim hamımıza başucalığı gətirən, qəhrəmanlıq simvolu olan Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin və onun poetik imkanlar çərçivəsində adlarını çəkdiyim və çəkə bilmədiyim döyüşçü yoldaşlarının, habelə qəbirləri Vedibasar mahalında qalan baba və nənələrimizin müqəddəs ruhuna ithaf edirəm.*

***Nəsibə İsrafilqızı***

**Azərbaycanda Atatürk Mərkəzində gənc şairə Nəsibə İsrafilqızının Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin anadan olmasının 120 illiyinə ithaf etdiyi "Abbasqulu bəy Şadlinski" kitabının təqdimatı olmuşdur.**



## Bu tarixi-mənzum roman haqqında deyilənlərdən:

***Nizami Cəfərov, mərkəzin rəhbəri, AMEA-nın müxbir üzvü, professor, millət vəkili:***

- Nəsibə. İsrafilqızının "Abbasqulu bəy Şadlinski" poeması Abbasqulu bəyi görmüş bir insanın sadəcə xatirəsi deyil, gənc bir yaradıcının tədqiqat apararaq yazdığı bədii əsərdir. Bu işin böyük dəyəri var. Əgər gənc nəsil yaddaşları lazımi səviyyədə bərpa eləməyə çalışırsa, biz hələlik tariximizi unutmaqla əlaqəli təzyiqlərə müqavimət göstərə biliriksə, adətən, xalqımızın düşüncəsi daha çox bədii təfəkkür, daha rahat idrak əhəmiyyətinə malikdirsə, onda biz istər-istəməz bu kitaba xüsusi bədii dəyər verməliyik.

Mən hesab edirəm ki, öz kəndini, obasını sevməyən, Azərbaycanı necə sevə bilər? Türk dünyasını necə sevə bilər? Nəsibə xanımda doğulduğu torpaqlara məxsus gen və ruh var. Mənə çox xoşdur ki, gənc istedadlar tədqiqat işi görür, araşdırmalar aparır. Nəsibə xanımın bu kitabı təsdiqləyir ki, o, millətinə, soykökünə çox bağlıdır. Çox istəyirəm ki, bu dəst-xəttini davam etdirsin. Çünki tarixi poemalarımız çox azdır. Gəncliyimizin tarixə ehtiyacı var. Nəsibə xanım çox gözəl yol tutub. Bu kitabı yazarkən xeyli tədqiqatlar aparıb, çoxlu tədqiqatlardan istifadə edib. Bu kitab həm də hardasa sadəcə bədii ilhamın nəticəsi deyil, həm də araşdırmaların nəticəsidir. Çox yaxşı ki, o araşdırmalar, quru rəqəmlər sadəcə verilməyib, bir inersiya ilə, bədii təhlilin, estetik düşüncənin emosiyası ilə verilib. Belə bir kitabı yazdığı üçün mən müəllifi təbrik edirəm.

***Akademik Budaq Budaqov:***

- Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" poeması bütövlükdə vətən həsrəti, doğma torpaqlara məhəbbət hissi ilə doludur. Elə bu müqəddəs hissləri Nəsibə xanımı şairə olmağa səsləyib.

Nəsibə İsrafilqızı Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinski haqqında olan faktiki materialların poetik ilhamı ilə həmahəngliyindən gözəl əsər yaratmışdır.





Arzu edirəm ki, Allah-Təala tezliklə şairəni öz arzu və istəklərinə çatdırsın. Anaların qeyrətli oğulları Vətən torpaqlarını azad etsin, vüsala qovuşsun. Ata yurdunda boya-başa çatan insanlar Sizin kimi vətənsevər ola bilərlər - Nəsibə xanım. Siz bu gün də Vətən həsrəti ilə şam kimi yanırsınız.

***Teymur Əhmədov, filologiya elmləri doktoru, professor:***

- "Abbasqulu bəy Şadlinski" poemasında müəllif 1918-1921-ci illərdə Oğuz yurdu - indiki Ermənistanın Vedibasar mahalında baş verən hadisələri - erməni-daşnak hərbi hissələrinin hücumlarına qarşı vedibasarlıların vətənin müdafiəsi uğrunda qəhrəmanlıq mübarizəsini xronoloji ardıcıllıqla, poetik imkanı daxilində dolğun və təsirli təsvir etmişdir.

Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin bədii obrazı fonunda vedibasarlıların qanlı-qadalı günləri, fədakarlığı, dözümü, əyilməzliyi, qaçqınlıq həyatı, "Qırmızı tabor"da iştirakı, vətən torpağını erməni-daşnak quldurlarından azad etməsi inandırıcı, canlı verilmişdir.

***Əlibala Hacızadə, yazıçı:***

- "Abbasqulu bəy Şadlinski" tarix-mənzum romandır. Çünki bu əsərdə qəhrəmanın demək olar ki, bütün həyatı, onun mübarizəsi, qələbələri ətraflı təsvir edilmişdir. Gənc şairə çox güclü tədqiqatlar aparıb, yaxşı tarixi materiallar əldə edib, özündən əvvəlki əsərlərdə qaranlıqda qalan məqamlara işıq salmış və Abbasqulu bəyin tam kamil obrazını yarada bilmişdir.

Bu əsəri oxuyana qədər mən bilmirdim ki, Abbasqulu bəyin özünün də şeirləri var. Bunu aşkara çıxaran Nəsibə xanım çox dəyərli iş görmüşdür və bu onun böyük uğuru hesab olunmalıdır. Bu tarixi-mənzum romanı yazmağı bir uğurdur, amma Abbasqulu bəyin şeirini aşkar etməsi başqa bir uğurdur. Abbasqulu bəy Şadlinski Şah İsmayıl Xətaidən sonra şeir yazan ikinci sərkərdə kimi tarixə düşdü.

***Sabir Rüstəmxanlı, millət vəkili, xalq şairi:***

- Kitabda təqdir ediləsi hallardan biri də odur ki, şifahi xalq ədəbiyyatının və şeirin əksər janrlarından istifadə olunmuşdur. Bu isə oxucunu yormur, əksinə, əsəri oxunaqlı edir. Sevindiricidir ki, gənc şairə cürət edib tarixi bir poema yazıb. Özü də məhz Abbasqulu bəy Şadlinski haqqında.

***Əziz Ələkbərli, AMEA Folklor İnstitutunun şöbə müdiri, filologiya elmləri namizədi:***

- Bu tarixi-mənzum roman, şübhəsiz ki, dəyərli ədəbi faktdır. Belə hesab edirəm ki, bu əsərin ən böyük dəyəri onun Azərbaycan xalqının milli mübarizə tarixinin Abbasqulu bəy kimi şəxsiyyətinin həyat və fəaliyyətinə həsr edilməsidir. Araşdırıcı şairə Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" tarixi poeması sözün hər cür yozumunda qiymətli tədqiqat əsəridir. Müəllif çox maraqlı bir poetik qəhrəmanlıq dastanı yaratmış, Türkün qəhrəmanlıq ruhunu ədəbiyyatımıza və millətimizə qaytarmışdır.

***Buludxan Xəlilov, filologiya elmləri doktoru, professor:***

- Gənc şairə Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" poeması Azərbaycan ədəbiyyatı, tarixi, etnoqrafiyası üçün olduqca əhəmiyyət kəsb edən bir kitabdır.

Şairənin üstünlüyü ondadır ki, onun bu əsəri təkcə bədii təxəyyülün məhsulu deyildir. Kitabda bədii düşüncə tərzi ilə tarixi faktlar, etnoqrafik məlumatlar sintez olunur.

# REDAKTORDAN

Təravətli, oynaq vəzn və müvəffəqiyyətli ifadə vasitələri ilə yazılmış, bitkin və mənalı süjet xəttinə malik lirik şeirlər müəllifi şairə Nəsibə İsrafilqızı "Abbasqulu bəy Şadlinski" poeması ilə öz pərəstişkarlarını sevindirmişdir. O, üzərində böyük səylə, zəhmətlə işləyib ərsəyə gətirdiyi əsərini Vedibasar mahalının igid oğlu, Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskiyə həsr etmişdir. Nəsibə İsrafilqızı tarixi minilliklərin qatlarına gedən, mahalın etnogenezinin formalaşmasında böyük rol oynayan məşhur Şadlı türk tayfasının övladı, həyatını Azərbaycanın əzəli-tarixi əraziləri – Vedibasar, Zəngəzur, Naxçıvan, Şərur, Dərələyəz, Gərnibasar, Zəngibasar torpaqlarının, o cümlədən İrəvan şəhərinin daşnak erməni quldur dəstələrindən azad olunması uğrunda döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərmiş Abbasqulu bəy Şadlinski haqqında yaradıcı təxəyyülü ilə poetik qəhrəmanlıq dastanı yaratmışdır.

Nəsibə İsrafilqızı Ata yurduna olan övlad sevgisi və böyük Yaradanın bəxş elədiyi istedadla öz məqsədinə çatmışdır.

Nəsibə İsrafilqızının "Abbasqulu bəy Şadlinski" poeması sözün hər cür yozumunda təqdirəlayiqdir. Danılmaz bir həqiqətdir ki, Abbasqulu bəy Şadlinski kimi böyük bir şəxsiyyətin həyatı, fəaliyyəti, qəhrəmanlığı bir poema çərçivəsinə sığmaz. Bundan sonra da neçə-neçə bədii əsərin yaranacağını, dastanların qoşulacağını böyük ümidlə gözləyirik.

"Abbasqulu bəy Şadlinski" poemasını oxuyandan sonra gəldiyim ilk qənaət budur ki, müəllif bütün türk dünyasını da, doğulub boya-başa çatdığı doğma yurdunu da, bu torpağın yetişdirdiyi qəhrəmanı da böyük məhəbbətlə sevir. Poema Allaha müraciətlə başlayır. O, Allaha yalvarır ki, türk övladlarını hifz et, ağıl-zəka ver, əxlaqlı, zəhmətkeş, çalışqan, igid böyüt, heç zaman onları bir-birinə qarşı qoyma:





*Qoru türkü, qoru torpaqlarını,*
*Qoru mənliyini, namus, arını.*
*Qoy igid böyüsün türkün balası,*
*Beşiyindən mətin olsun laylası.*

Müəllifin müxtəlif zaman kəsiklərində çətin sınaqlardan keçmək zəruriyyətində qalan türklərə, türk dünyasına olan arzu və istəkləri bu günümüzlə necə də həmahəngdir.

Poemanı oxuduqca müəllifin Azərbaycan klassik şeir üslubundan bəhrələndiyi qənaətinə gəlirsən. Əsər əsasən məsnəvi üslubunda yazılmış, onbirlik, ondördlük, onaltılıq hecalardan istifadə edilmişdir. Bununla bərabər, yeri gəldikcə şifahi xalq ədəbiyyatının qoşma, bayatı, layla, oxşama növlərindən də uğurla istifadə olunmuşdur.

"Abbasqulu bəy Şadlinski" poemasının dili olduqca axıcıdır. Sadəlik, lakoniklik əsəri oxunaqlı edir. Azərbaycan dilinin zənginliyindən, bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə edən Nəsibə İsrafilqızı poemada yeri gəldikcə lirik ricətlərdən istifadə etmişdir ki, bu da tarixi hadisələrin təsvirində oxucunu yorulmağa qoymur.

"Abbasqulu bəy Şadlinski" poemasının birinci hissəsi "Şərəfli bir keçmişi var yurdumun" adlanır. İlk misralardan aydın olur ki, daha güldən-çiçəkdən, nazlı sənəmdən, sevgidən yazmaq istəməyən müəllif narahatdır. Onu daha vacib, günün tələbinə uyğun ciddi mövzular narahat edir. Özü demişkən, mahalımızın "tarixinə baş vurub" gələn müəllif rahatlığını əlindən alan, ruhuna hakim kəsilən mövzudan yazmaya bilmir:

*Oğuzun soy-kökü qədimi - uludur,*
*Mənim qəhrəmanım Abbasquludur.*

*Bəydən yazmaq istəyim alıb mənim səbrimi,*
*Əgər ondan yazmasam, Tanrı yaxar qəbrimi.*

Müəllif oxucusu ilə birlikdə Abbasqulu bəyin Ata yurdu Vedibasarın tarixinin bəzi qatlarına baş vurandan sonra doğma el-

obasını tərifə keçir, bu qədim Oğuz yurdunun adət-ənənələrindən, qonaqpərvərliyindən, ürəyiaçıqlığından, dostluqda sədaqətindən, igid övladlarından, gözəl təbiətindən söhbət açır. Sonluğu nikbin notlarla bitirir; zaman-zaman doğma torpaqları məcburi tərk edən soydaşlarımızın bir gün Ata yurduna qayıdacaqları arzusu ilə yaşayır və buna da inanır:

*Alışıram, bir arzuyla yanıram,*
*Olanı, keçəni tez-tez anıram,*
*Buna varlığımtək mən inanıram,*
*Bir gün yığışacaq el Vedimizə.*

Poemanın "Şadlının şanlı oğlu" hissəsində qəhrəmanın mənsub olduğu Şadlıların şərəfi, qədim tarixi, bu əsilli-köklü tayfanın tarixdə iz qoymuş övladları haqqında danışır, Abbasqulu bəyin dünyaya gəlişindən, uşaqlıq illərindən, gimnaziya və seminariya həyatından söhbət açır, onun əsil türk oğlu kimi böyüdüyünü oxucuya fərəhlə çatdırır:

*Əsil türk oğlu kimi qəhrəmanım böyüdü,*
*Ərlərdən hünər aldı, müdriklərdən öyüdü.*

Nəsibə İsrafilqızı poemada Vedibasarın qanlı-qadalı, ağır günlərinin bədii lövhələrini yaradır. Düşmənin azğınlığı yerə-göyə sığmır. Azğın erməni quldurları ətraf mahallarda yaşayan dinc türk əhalisini incidir, qırıb-çatır, ev-eşiklərindən didərgin salırlar. Vedibasar mahalını da belə bir təhlükə gözləyir. Yerli əhalini, Vedibasara pənah gətirənləri qorumaq lazımdır. Heç kimdən kömək yoxdur. Ümid Vedibasar igidlərinədir. Çətin günlər yaşayan əhaliyə rəhbərlik edən, onları xilas edə biləcək bir lider, rəhbər lazımdır. Belə bir rəhbər Abbasqulu bəy Şadlinski olur. Onun rəhbərliyi ilə yaradılan "Mübariz dəstə" mahalın igid övladlarını ətrafına toplayır və yenilməz, igid sərkərdənin komandanlığı altında erməni daşnak hərbi birləşmələrinə qarşı mübarizə aparır, doğma torpaqları qoruyurlar.





Azərbaycanda ilk Milli Hökumətin nümunəsi olan "Vedibasar Komitəsi"nin yaranması və fəaliyyəti, zəfər vuruşu aparan igidlərin döyüş səhnələri, qəhrəmanlıqları, düşmən üzərində qələbələr "Tapşırıq", "Dada yetir Abbasqulu", "Vedibasar Komitəsi tədbir görür", "Döyüşən Vedibasar", "Daşnakların Böyük Vediyə hücumu", "Vedibasar təhlükədə" bölmələrində inandırıcı təsvir olunmuşdur.

"Mühacir həyatı" hissəsi Ata yurdunu məcburi tərk edərək İranın Mərənd şəhərində qaçqınlıq həyatı yaşayan soydaşlarımızın ağrılı-acılı günlərinə həsr olunub. Camaatımızın ağır günlərinin sızıltıları olan qoşmalar, bayatılar şairənin öz ruhuna yaxındır. Axı, onun özü də iki dəfə məcburi qaçqınlıq-köçkünlük həyatı yaşayıb. "Vedimə qaytarın, qaytarın məni" və "Mən də o kənddənəm..." hissələri doğma, isti ocağından didərgin düşən hər bir soydaşımızın yaşantısıdır, ürək çırpıntısıdır, hər birimizin də ən ümdə arzusudur:

*Əcəl gəlib alsa əgər üstümü,*
*Görməsəniz göyə qalxan tüstümü,*
*Nə ad verin, nə də qoyun büstümü,*
*Vedimə qaytarın, qaytarın məni.*

* * *

*Harda bir ürəyi xallanmış görsən,*
*Çöhrəsi, gül üzü saralmış görsən,*
*Həsrəti gözündən sallanmış görsən,*
*Yaxınlaş, söylə ki, gəl quraq bardaş,*
*Mən də o kənddənəm, sən də, a qardaş,*
*Mən də o kənddənəm, o kənddən, qardaş.*

Əsərin "Zəfər yürüşü" hissəsində Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə yaradılan "Qırmızı tabor"un erməni daşnaklarına qarşı apardığı qəhrəmanlıq mübarizəsindən bəhs olunur. "Qırmızı tabor" döyüşçülərinin hünəri sayəsində Naxçıvandan tutmuş İrəvanadək olan torpaqlarımız, o cümlədən Zəngəzur, Dərələyəz mahalları

erməni daşnak qoşunlarının işğalından azad edilir. Doğma yurddan qaçqın düşən əhali üç ildən sonra ata-baba torpaqlarına qayıdır, aclıq illərinin ağır günlərinə tab gətirirək özlərinə yeni ev-eşik salır, gün-güzəran düzəldirlər.

Yeri gəlmişkən qeyd edilməlidir ki, tədqiqatçı-şairə Nəsibə İsrafilqızı əsər üzərində işləyərkən görkəmli maarifçi Bilas Şadlinskiyə məxsus şəxsi arxiv materialları içərisindən indiyədək heç bir mətbu orqanda çap olunmayan iki şeir aşkar etmişdir. Bunlardan biri "Qırmızı tabor"çu partizan Əfruz xanımın Abbasqulu bəyə yazdığı məktub, digəri isə Xalq qəhrəmanının ona cavabıdır.

Poemanın sonuncu "Məkr və xəyanət" hissəsində Abbasqulu bəyin dinc quruculuq illərindəki fəaliyyətindən, "dünənki daşnak, bugünkü bolşevik" ermənilərin məkrli siyasətindən, fitnə-felindən, qardaşı-qardaşa qarşı qoymaqlarından danışan müəllif haqlı olaraq belə bir qənaətə gəlir ki: "Vətəninin, xalqının azadlığı uğrunda mübarizədə ermənilərə qan udduran Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinski daşnak erməni xəyanətinin qurbanı olmuşdur".

Müəllif qəhrəmanını cənnət mələklərinə bənzədir, onun ölümünə bais olan xain erməni quldurlarını isə lənətləyir:

*Xalq üçün, el üçün canından keçib,*
*Müqəddəs sayılan bir yolu seçib.*
*Cənnət mələkləri ruhunu qucar,*
*O da mələklərtək göylərdə uçar.*

Nəsibə İsrafilqızı poemanı xoş sonluqla bitirməyə çalışır. O, oxucularına tövsiyə edir ki, kədərlənməsinlər, xalqın qəhrəmanlıq ənənəsini yaşatmaq üçün birləşsinlər, torpaqları azad etsinlər.

Nəsibə İsrafilqızının xalq qəhrəmanının anadan olmasının 120 illiyinə hədiyyə etdiyi "Abbasqulu bəy Şadlinski" poeması bu gün böyük ictimai məna daşıyır, gəncləri mətin, qeyrətli olmaga səsləyir.

**Sərtib İSLAMOĞLU,**
*"Vedibasar" qəzetinin baş redaktoru, yazıçı-publisist.*





# ŞƏRƏFLİ BİR KEÇMİŞİ VAR YURDUMUN

## TANRIDAN DİLƏYİM

Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!
Hünərlini, qəhrəmanı öy, Tanrı!

Ağıl ver, zəka ver türk övladına,
Qoy layiq böyüsün türkün adına.

Yalandan, riyadan dolansın uzaq,
Qurmasın yoluna namərd tor, tuzaq.

Birləşsin ruhları bütün türklərin,
Qəhrəman böyüsün türk oğlu – nərin.

Ağılı, zəhməti olsun qanadı,
Tanrım, əsirgəmə məğrur bir adı.

Türkləri əxlaqlı, səbatlı yarat,
Cisminə, qanına fədakarlıq qat.

Zəkadan üstündür çalışmaq, bilin,
Sahibi olmalı hər zaman dilin.

Qoy türklər tənbəllik daşını atsın,
İşi, əməliylə arzuya çatsın.

Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!
Oğruları, əyriləri söy, Tanrı!

Sən türkü zəhmətkeş, çalışqan böyüt,
Alsın atalardan nəsihət, öyüd.





Türkü türkə qarşı qoyma heç zaman,
Tənbələ, qorxağa vermə sən aman.

Möhkəm olsun zəhmət sevən ürəyi,
Türkün daim xeyir-dua gərəyi.

Qoyma öyrənsinlər asan işlərə,
Zəhmətin bəhrəsi dəysin dişlərə.

Öyrənsinlər ellik ilə əməyə,
Alışsınlar zəhmət adlı çörəyə.

Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!
Türkün əməlini daim öy, Tanrı!

Qoru türkü, qoru torpaqlarını,
Qoru mənliyini, namus, arını.

Qoy igid böyüsün türkün balası,
Beşiyindən mətin olsun laylası.

Uzaq olsun namərdlərin şərindən,
Ah çəkməsin sinələri dərindən.

Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!
Namussuzu, bişərəfi döy, Tanrı!
Oğruları, əyriləri söy, Tanrı!
Türkün əməlini daim öy, Tanrı!
Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!

## SÖZ ÖNÜ

Ruhum təzələnib yenə bu səhər,
Yolunu dəyişib həsrət, qəm, qəhər.

Qəlbim arzularla çağlayır, coşur,
Gizlicə bir nəğmə, bayatı qoşur.

Sirrindən, sehrindən baş açmaq olmur,
Könül gülzarının çiçəyi solmur.

Deyir, əlindəki qələm ilə sən,
Çalış gözəlliyi görə biləsən.

Düşünmə sevirəm, yaxud sevəcəm,
İndi sevənlərə nəğmə deyəcəm.

Hər şeyin öz vaxtı, vədəsi olar,
Küləklə gələnlər leysanla solar.

Sevsəm də payızı, al gülöyşəni,
Laləni, nərgizi, ya bənövşəni.

Yazmaq istəmirəm güldən, çiçəkdən,
Qəlbləri oxşayan şehli ləçəkdən.

Yazmaq istəmirəm nazlı sənəmdən,
Narahat ürəyim çıxır sinəmdən.

İdrakım, kamalım özünü öyür,
Yuxusuz gecələr qapımı döyür.

Sordum səbəbini, dedi: – Oyan, bil,
Sevgidən yazmağın zamanı deyil.





Yaman narahatsan, bir azca rahla,
İşlər məcrasına düşməz ki "ah"la.

Süzüb qələmimə eşqi, həvəsi,
Yaradıb bir gözəl bahar nəfəsi.

Boylandım Vedinin lap keçmişinə,
Qarışdım tarixin mən də işinə.

Alıb eynəyimi gözümə taxdım,
Büllur bulağına, çayına baxdım.

"Küsüs"lə "Şahablı"* verib əl-ələ,
Baxmadan leysana, çovğuna, selə.

"Vedi"yə qovuşub Araza axdı,
Göylər cuşa gəldi, ildırım çaxdı.

Xəritə önündə xəyala daldım,
Danışa bilmədim, sanki bir laldım.

Baxdıqca adlara gözüm dolurdu,
Yanağım islanır, rəngim solurdu.

Adı qarşısında durdum Vedinin,
Halını ahəstə sordum Vedinin.

Hər səhər Günəşi Asnıdan** aldım,
Baxıb dörd tərəfə xəyala daldım.

Bir tərəf Türkiyə – bizə dayaqdı,
Başımız dardasa, ayıq-sayaqdı.

* – **Küsüs** və **Şahablı** dağ çaylarıdır və Vedi çayına tökülür.
** – **Asnı** Vedibasarda dağ adıdır.

Bir tərəf İrandı – soydaşlarımız,
Ayrı sayılmayır qardaşlarımız.

Bir tərəf adına can-can dediyim,
Yolunda canımı qurban dediyim.

Odlar ölkəsidi – Azərbaycandı,
Şirindi ləhcəsi, doğmadı andı.

Bir tərəfsə qədim Oğuz yurdumuz,
Gül qoxulu ata-baba yurdumuz.

Tarixlərin o rəvayət etdiyi,
Nuh Nəbinin miras qoyub getdiyi.

Ağrının ətəyi bizim olubdu,
Hər axşam Günəşim orda solubdu.

İstədim bir azca baxım Vediyə,
Bir qaşıq su olub axım Vediyə.

Alım başı üstən duman çətrini,
Çəkim ciyərimə o gül ətrini.

Yollanım bağçaya, bağa, bostana,
Gözəllik gətirim şeirə, dastana.

"Azlar ölkəsi"* də deyiblər ona,
Urartu bu adı yetirib sona.

Çalışıb özünə yurd-yuva qursun,
Özgə ocağında bir bardaş qursun.

* – Az adlı etnik türklər yaşayan Vedibasar Urartu çarı tərəfindən zəbt olunanadək **Azlar ölkəsi**, Saqa-qamər (kimmer) türk boylarının Güney Qafqaza gəlişiylə Urartu dövləti yıxıldıqdan sonra **Azər ölkəsi** adlanmışdır.





İstər ağa olsun, istər xan, nökər,
Oğurluq yeyərsə, burnundan tökər.

Özgənin yurduna göz tikən yaman,
Əlindən alacaq onu vaxt, zaman.

Necə ki, Urartu yıxıldı, getdi,
"Saqa"lar dövlətə rəhbərlik etdi.

O yurdlar, yuvalar qədimdən qalıb,
Qorqud qopuzunu o yerdə çalıb.

At oynadıb, qurşaq tutub ərənlər,
Dağ döşündən gül-çiçəyi dərənlər.

Dastan qoşub igidimə, ərimə,
Şərik çıxıb hər dərdimə-sərimə.

Ta qədimdən qalıb qəbir daşları,
Bilinməyir tarixləri, yaşları.

Ulu babam Qara Ulaş, Qorquddu,
Mənim yurdum Oğuz adlı bir yurddu.

İz qoyub tarixdə ər oğlu ərim,
Asuru lərzəyə salan Şatərim*.

Qamər boyundandı bu məğrur ərən,
Hər dərdə, əzaba sinəsin gərən.

Şadlılardan Sultan Səlahəddin var,
Namərdə meydanı o eyləmiş dar.

* – Sandak-Şatər (~~Şədər) öz ordusu ilə Asur dövlətini lərzə~~yə salmışdı.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Sizə kimdən deyim, Qara Yusifdən,*
Namərdlər aldılar yara Yusifdən.

Bir alayı əsir aldı əlinə,
Toxunmadan bircə dənə telinə.

İncitmədən çox insanlıq eyləyib,
Əsirlərə üz tutaraq söyləyib:

–Mən almaram Allah verən bu canı,
Yaşa, ancaq Qara Yusifi tanı.

Əmir Teymur nəvəsini əzmişəm,
Alnı açıq, üzü ağ da gəzmişəm.

Qaraqoyunludu əslim, nəslim də,
Hər aslan baxışlım, incə səslim də.

Mənə ruhum qədər doğmadır, bilin,
Sevirəm anamın laylasın, dilin.

Oxucum, yazdıqca qəhrəmanlığı,
Açıram gövhərlə dolu sandığı.

Oxuyub alarsan mənəvi qida,
Nə nöqtə qoyuram, nə də ki nida.

Şah İsmayıl uşaq vaxtı izlənib,
Bizim yurdda–Bağırsaqda gizlənib.

* – Qaraqoyunlu hakimi Qara Yusif XV əsrin əvvəllərində Əmir Teymurun nəvəsi Əbu-Bəkrin qoşunlarını məhz Vedibasar mahalının Millidərə ərazisində darmadağın etmişdir.





Deyirlər, kərkili* Əli saxlayıb,
Namərdin əlindən beşik bağlayıb.

Havadan asıblar, ələ keçməyib,
Bu kələyi, fırıldağı seçməyib.

Yağılar dönüblər geriyə naçar,
Tapa bilməyiblər bu sirrə açar.

Çox igidlər qəhrəmanlıq eyləyib,
"Bu torpaqçün can verərik,"– söyləyib.

Məğrur, arif qəhrəmanlar çox olub,
Hər birisi düşmənə bir ox olub.

Oğuzun soykökü qədim – uludur,
Mənim qəhrəmanım Abbasquludur.

Sakit, mülayim, cəsur,
cavan ikən ucalmış,
Öz əqli, kamalıyla
vaxtından tez qocalmış.

Bəydən yazmaq istəyim
alıb mənim səbrimi,
Əgər ondan yazmasam,
Tanrı yaxar qəbrimi.

* – Vedibasar mahalının Bağırsaq dərəsindəki qədim Kərki şəhəri.

## ŞƏRƏFLİ BİR KEÇMİŞİ VAR YURDUMUN

Yol gedirəm, yollar uzun, həsrət gözümdə ağlayır,
Dolanıb yurdun başına, illər sözümdə ağlayır.

Ağlamaqdan kor olmuşam, dünya gözümü bağlayıb,
"Ay can" deyib "çor" almışam, tale özümü ağlayıb.

Beşiyimdən başlamışdı, bu ayrılıq, bu göz yaşı,
Parçalayıb min-bir yerə, bölmüşdülər məğrur daşı.

Qismətimiz nə oldu ki, zülmət, zillət, ölüm, qada,
Qoymadılar muradımız bircə kərə şərbət dada.

Gah özümü doğratdılar, öz əlimlə dilimləndim,
Gah düşmənin fitvasıyla sürgün olub zülümləndim.

Fəryadımı eşitmədi nə yer, nə göy, nə də cahan,
Hər tərəfdən əmr gəldi: – Ya öl, ya da türklüyü dan.

Bu səs qeybdənmi gəlirdi, yoxsa çirkin bataqlıqdan?
Başım yaman dumanlıydı, gözlərimi almışdı qan.

Mən kökümü danarammı, mən əslimi danarammı?
Öz çayımı, bulağımı özgəninki sanarammı?

Mərd kişinin nəvəsiyəm, nənəm Bəhruzə xanımdı*,
Oğuz yurdun ərənləri güvənc yerimdi, canımdı.

Verərəmmi özgələrə çiçəyimi, gülzarımı,
Qeyrətimi, qismətimi, ismətimi, ya arımı?

* – Çaldıran döyüşündən sonra Şah İsmayıl Xətai Vedibasar hakimi Əbdi bəy Şamlının bacısı Bəhruzə xanımla ailə qurmuşdur.





Hərzə-hərzə danışan kəs, türklüyümü danarammı?
Mən adımla fəxr edirəm, adı-sanı satarammı?

Mənim babam Şadılıdı, igidliyi, mərdliyi var,
Nakişilik, naxələflik bizim üçün sayılıb ar.

Qılınc çalıb, at oynadıb, ərən olub hər igidi,
İftiraya, işgəncəyə gərən olub hər igidi.

Donum aldan biçilibdi, bələnmişəm öz qanıma,
Yurduma göz dikilibdi, bəla gəlibdi canıma.

Gücüm çatır qələmimə,könlüm evi ona açıq,
Hər bəlanı, hər dərdi də demək olmur açıq-saçıq.

Mən danışım, sənsə dinlə, göy üzünü duman alıb,
Elə bil ki, bir el üçün Günəş üzünə tor salıb.

Hey yağışdan islanırlar, hey donurlar boran-qarda,
Zəhmət çəkib tər tökürlər, bərəkət də yoxdu barda.

On səkkizdə, qırx səkkizdə leysan yağıb başımıza,
Sevinc donub üzümüzdə, düyün gəlib qaşımıza.

Su qatıblar şərbət dadan, şəkər dadan aşımıza,
Dava-dərmansız dərdimiz oyun açıb başımıza.

Səksən səkkizdə düşmüşəm elimdən-obamdan ayrı,
İsti ana qucağından, doğma yurd-yuvadan ayrı.

Dərdimi sapa düzdükcə əlimdə qələm ağlayır,
Yerdən, göydən söz açmıram, bir böyük aləm ağlayır.

İstəyirəm tariximi səhifələyib varaq-varaq,
İllər olsun tellərimə ılıq sığal çəkən daraq.

“Məndən ötdü” deyən qardaş, bu daş sənə də dəyibdi,
Boylan, gör bir atamızın qəddini necə əyibdi.

Babamızçün ağlayır hey, nənəmizçün ağlayır hey,
Bacımızçün ağlayır hey, tacımızçün ağlayır hey.

Sən də ağlama önümdə, dözümlü ol, məğrur yaşa,
Atalarım deyibdi ki, aşla cavab ver sən daşa.

Hər zamanın, zəmanənin öz igidi, ərəni var,
Daş-kəsəkli enişlərə güllü xalı sərəni var.

Qoy danışım bəy oğlundan, gör bir nələr eyləyibdir,
"Vətənimçün, millətimçün can verərəm" söyləyibdir.

Canıma can qurban dedin, yolunda candan keçərəm,
Yolumda qan tökənlərin yolunda qandan keçərəm.

* * *

Götürüb əlimə bir yanan çıraq,
Oxudum tarixi hey varaq-varaq,
Böyüdü gözlərim, çatıldı qaşım
Gördüm dada yetmir əldəki yaraq.

Ətirli olsa da qızılgül belə,
Tikanı yenə də batacaq ələ,
İstədim ki, zəhər dadmasın aşım
Xətər toxunmasın torpağa, elə.





Dünya ərənlərin, ərlərin olub,
Dünya ariflərin, pirlərin olub,
Oynama yaramla atam, qardaşım
Gör sənin nə qədər zər-ləlin olub.

Onu öldürüblər, bunu asıblar,
Sinəmə bir çarpaz dağı basıblar,
Ürəyim doludu, dinlə, sirdaşım
Nədənsə tarixi tərsə yazıblar.

Hər sözün, söhbətin yerini bildim,
Ağlayan tifilin gözünü sildim,
Kamalım qoymadı büdrəyim, çaşım
Özüm öz payıma sevindim, güldüm.

Mən də bildiyimi gətirdim dilə,
Etibar yox aya, günə, ya ilə,
Vaxt var ikən dedim yazım, yaradım
Köçüb gedir ömür adlı qafilə.

Hələ ki gümraham, yaxşıdı heyim,
Qaranı çıxarım, mən də ağ geyim,
Neçə ki əlimdə qələmim yazır
Yurduma, yuvama bir tərif deyim:

– Qonaq qardaş, bircə dəfə dolan, gəl,
Süfrəsi nemətlə bol Vedimizə.
Gör bir haralardan düzəlib gəlir,
Karvan Vedimizə, yol Vedimizə.

Dünyamızı heç də yiyəsiz sanma,
Namərdin adını mərd üçün anma,
Özgəyçün doğulub, özgəyçün yanma,
Doğul Vedimizə, öl Vedimizə.

Sevib çiçəyini, sevib gülünü,
Eşit ləhcəsini, eşit dilini,
Öyrən tarixini, həm keçmişini,
Biləsən necədi yol Vedimizə.

Əsən külək, dəli ruzgar, ağlama,
Dolanıb yer, göyü ayaq saxlama,
Yenə ürəyimə qara bağlama,
Səhər mehi olub dol Vedimizə.

Göy donlu Ağrının başına qurban,
Tarixi bilinməz yaşına qurban,
Ay qardaş, çatılmış qaşına qurban,
Yenə ağı deyir el Vedimizə.

Yoxdu bərabəri, tayı bu yerin,
Torpağı, havası, suyu da sərin,
Şəkərdi, şirindi payı bu yerin,
Gələn söyləyərdi "bal" Vedimizə.

Məlhəmdi dərdimə gülümsər üzlər,
İncə dodaqlardan süzülən sözlər,
Açıbdı lalələr, bəzənib düzlər,
Nə gözəl yaraşır al Vedimizə.

Namərdlər əlimdən aldı çörəyi,
Gülmədi könlümün arzu-diləyi,
Min yerə böldülər neçə ürəyi,
İndi ağlar olub qal Vedimizə.

Əzabı, zülümü batır, ay Allah,
Məni öz yurduma yetir, ay Allah,
Qəzanı, qovğanı götür, ay Allah,
Mehri, məhəbbəti sal Vedimizə.





Yağdı başımıza amansız dolu,
Haraya səslədik sağ ilə solu,
Bağladılar bizə uzanan yolu,
Aclıq qonaq oldu bol Vedimizə.

Göz yaşımız axar oldu, silmədik,
Nə bişirdik, necə yedik – bilmədik,
Bayram oldu, danışmadıq, gülmədik,
Qan-qada gətirdi il Vedimizə.

Yollarını zaman-zaman azıblar,
Ömrümüzə ölüm hökmü yazıblar,
Öldürməmiş məzarı da qazıblar,
Xəbər gətiribdi yel Vedimizə.

Çox dolandıq, döndük dərdin başına,
Namərd qiymət qoydu mərdin başına,
Baxıb torpağına, baxıb daşına,
Nəğmə deyəcəkdi dil Vedimizə.

Barlı payız qərib quşa "köç", – dedi,
– Özün üçün isti yuva seç, – dedi,
Çaylar daşdı, bəndlər "məndən keç", – dedi,
Dərd bəla gətirdi sel Vedimizə.

Alışıram, bir arzuyla yanıram,
Olanı, keçəni tez-tez anıram,
Buna varlığımtək mən inanıram:
– Bir gün yığışacaq el Vedimizə.

***

Ana oğul yetirdi,
İgid, məğrur sərkərdə.
Torpaq oğul yetirdi,
Dözsün əzaba, dərdə.

Ər igidin şöhrəti,
Dilə, nağıla düşər.
Elin qəhrini çəkmək,
Yenə oğula düşər.

Ana oğul böyüdər,
Bağçalar gül bitirər.
Övladı öz anası,
İgidi el yetirər.

Kökün yüz min ildədi, yaşını Araz bilər,
Sevgin qəlbdə, dildədi, sənsiz ürəkmi gülər?

Tarixinə baxıram – oynayıram yaramla,
"Şadlı"n Şiddi* olubdu zaman-zaman, aramla.

Bağrım yaralanıbdı, sinəmə dağ basıblar,
Həqiqəti deyəni öldürüblər, asıblar.

Gözümün önündədi böyük Vedi, Şirazlı,
Hey qonaqlı-qaralı, şeirli, sözlü, sazlı.

Kiçik Vedi, Reyhanlı, əfşar, Xalsa, Dəvəli,
Ellər bəzəkli gəlin, kəcavəsi gəbəli.

* **Şiddi** – Vedibasarın Arazboyu aran kəndlərindən birinin adıdır.





Taytandan, Yengicədən yol gedirdi o yana,
Həsrət ilə çəkirəm adlarını, oy, ana!

Xəyalım uçdu getdi kolanlıya, Məngükə,
Ağbulaqdan yol saldım, gəlib çıxdım Ərmikə.

Dolandıqca "Vadi"nin duman almış başına,
Heyrətlə boylanıram nuhdan gəlmiş yaşına.

Haxısdan, Heyranısdan, Dəhnəzdən Əzizkəndə,
Qoynunda yaylandığım əzizdən ləziz kəndə.

* * *

Türk-oğuzdu adımız, yaşımızı bilən yox,
Çox qədimdir "Şad"ımız, qarşımızda dinən yox.

Cəngavər, döyüşkəndi Şəddadilər* övladı,
Hərbdə qələbə çalıb, tarixə düşüb adı.

Dediyindən dönməzdi, kəsilsə belə başı,
Sevərdi torpağında qayaya dönmüş daşı.

Sevərdi eloğlunu, sevərdi anasını,
Sevərdi laylasını, sevərdi sonasını.

Sevərdi çəmənini, sevərdi çiçəyini,
Sevdiyiçün Vətənə verərdi ürəyini.

* **Şəddadilər** – paytaxtı Dvin olan böyük bir dövlətin əsasını qoyan, "Şadlı" türk tayfasının adını yaşadan böyük sülalə.

Qeyrətli oğul üçün canı qurban eylərəm,
Yolunda candan keçib, qanı qurban eylərəm.

Haqlıya qul olaram, haqsızı doğrayaram,
Sonadək döyüşərəm, sızlasa belə yaram.

Babamız vedilidi, "dediyimiz dedikdi,
Vurduğumuz qılıncdı, çəkdiyimiz tətikdi".

Mərd oğullar gətirib dünyamıza təbiət,
Sevib onları hamı – varlı, kasıb, rəiyyət.

Elin qəhrəmanıyla öyünər el-obası,
– Mənim nəvəmdir, – deyib ürəklənər babası.





# ŞADLININ ŞANLI OĞLU

# ÇƏTİN MƏQAM, ÇƏTİN SUAL

Şadlının igidiydi yenilməz Aslan Sultan,
Düşmənə qənim idi, verməzdi ona aman.

Zamanla qazanmışdı xalqı içində hörmət,
Dosta sevgi bəsləyib, düşməninə kin, nifrət.

Elin ağası idi ağlı, şüuru ilə,
Elin qağası idi ruhu, qüruru ilə.

Qafqazın generalı məktub yazır Sultana,
Məktubda deyilirdi: – səni doğan o ana,

İgid cəngavər kimi tanıdacaq cahana.
Bil ki, iki yolun var: – ya köçməli İrana,

Ya da tabe olmalı rus çarının əmrinə.
Hansı daha yaxındı əqidənə, əqlinə?

Çox düşünür Aslanım, çox götür-qoy eyləyir,
– Ata yurdu itirmək böyük dərddir,– söyləyir.

Dərdə dözmür ürəyi, yaşın ahıl çağıydı,
"Gülüstan"* könlündəki ən yanıqlı ağıydı.

Bölünmüşdü milləti, bölünmüşdü torpağı,
Bölünmüşdü çəməni, çörəyi, suyu, dağı.

* – 1813-cü ildə Rusiya və İran arasında bağlanan "Gülüstan" müqaviləsi.





Dərk edirdi dəhşəti tarixi izlədikcə,
Görüb zülmü, vəhşəti, ölürdü gözlədikcə.

Elinin, obasının qayğısına qalırdı,
Günlərlə düşünürdü, xəyallara dalırdı.

Azad yaşamaq üçün düyünləri çözürdü,
Sağdan, soldan atılan zərbələrə dözürdü.

Doğru yol axtarırdı, qan tökülməsin deyə,
İstəmirdi analar "vay" çəkib qara geyə.

Qıymırdı körpələrin günahsız axsın qanı,
Ərənlərin, ərlərin qurbanlıq olsun canı.

"Türkmənçay"la bağlandı iblis müqaviləsi,
Qardaş qardaşdan oldu, doldu gözün giləsi.

Bir imzayla bir ürək iki yerə bölündü,
Araz bayatı çəkdi, gözlər librə büləndi:

– Millətin taleyini yazdı yadlar, yağılar,
Köksündə "ah" bitənin sinəsi dağ-dağ olar.

Oğuz yurdu, vətənin yağmalandı, talandı,
Ağrının Ağrı boyda üstünə dərd qalandı.

Ürək fəğana döndü, bir qərib cana döndü,
O vaxtdan sinəmizdə bağrımız qana döndü.

Aslanımla bərabər üç qardaşı böyüdü,
Onlara hakim idi binnətalı* öyüdü.

Ortancılı Kəlbalı, qəhrəmanın babası,
Olmamışdı işində, əməlində xətası.

Onun da oğlu oldu: – Xanbabayla sevindi,
Mübarək günlərində kaman, qaval da dindi.

Ağrı-acı çox oldu, sevinc kədərə bacı,
Ata oğul toyunda qoyar başa şah tacı.

* – Binnətalı Sultan Aslan Sultan, Kəlbalı Sultan, Niftalı Sultan və Bala Sultanın atalarıdır.





## GÖYÇƏDƏN GƏLİN ALMIŞIQ

Toy-büsat qurulub Şadlı elində,
Yenə qara zurna salıbdı havar.
Toy bəyi dayanıb əli belində,
Odur, yallı gedir qızlar, oğlanlar.

Elə havalanıb yallı başçılı,
Dizi yer süpürür paça vuranda.
Halayın başından görünmür dalı,
Uşaqlar vurnuxur o yan-bu yanda.

Yığışıb kənarda ahıl nənələr,
Bəzisi dizində nəvə oynadır.
Yaşmağı üzünə çəkib gəlinlər,
Böyükdən yaşınmaq eldə qaydadır.

Bir ucda düzülüb ağsaqqal, piran,
Arabir yallıya irad tuturlar.
Yorulub deyəsən bir-iki cavan,
Yallının səfini hərdən qatırlar.

Bir igid gəzdirir ağyal köhləni,
Çuxası vəznəli, belində kəmər.
Hünəri götürüb kəndi, məhləni,
Bəylik cıdırında qazanıb nəmər.

Düzülüb yan-yana qara qazanlar,
Bir xeyli kənarda gur yanır ocaq.
Təam buyuracaq gələn qonaqlar,
Kababçı tələsir əldə şiş, bıçaq.

Özgə hazırlıq var bəy otağında,
Taxt üstə al-əlvan gərdək asılıb.
Sayalı gəlinin düz qabağında,
İndicə bir tuncu erkək kəsilib.

Yengə də vurnuxur irəli-geri,
Dingəli, qolbaqlı, ontaxta donlu.
Bu toyun elatda özgədir yeri,
Gəlin uca soylu, bəy adlı-sanlı.

Bəy ilə gəlinin çəkdikcə nazın,
Şadlıq çöhrələrə verir yaraşıq.
Zilin zil, bəmin bəm eyləyib sazın,
Gəlinə təriflər söyləyir aşıq:

– Göyçədən gəlin almışıq,
Toyu mübarək, mübarək!
Seçib gözəlin almışıq,
Boyu mübarək, mübarək!

Gözləri ceyran gözüdü,
Gözü mübarək, mübarək!
Sözləri aqil sözüdü,
Sözü mübarək, mübarək!

Qeyrətdə aslan özüdü,
Özü mübarək, mübarək!
Belində incədi kəmər,
Beli mübarək, mübarək!





Adısa göyçəli Kövsər,
Eli mübarək, mübarək!
Göyçədən gəlin almışıq,
Toyu mübarək, mübarək!

Güllərin gülün almışıq,
Boyu mübarək, mübarək!

Kandardan o yana meydan qızışır,
Qüruba can atır, gün yavaş-yavaş.
Cavanlar bəhsə-bəhs durub yarışır,
Toyçunun başından tökülür şabaş.

Arabir yayılır güllə şaqqaşaq,
Süzənin gülləsi boşalır göyə.
"Cəngi" havasında tutulur qurşaq,
İgidlər çırmanır cəngə girməyə.

Biləkli cavanlar gəlir döş-döşə,
Meydan vüsət verir qüvvətə, zora.
Müdriklər yeriyib qarışır işə,
Azacıq keşməmiş səngiyir ara.

Odur, kəndirbaza verilir meydan,
"Yalançı" üzünü unlayıb gəzir.
Bir-bir əl-ayaq da yığışır toydan,
Sağdış şamdanları şax üstə düzür.

Toy çəkir beləcə gecə yarıya,
Günəş çoxdan verib yerini aya.
Aşıq "müxəmməs"lə çıxır araya,
Sazını kökləyib duvaqqapmaya:

– Eşidin bir tərif deyim yerişi ceyran gəlinə,
Mərhəba, afərin deyir hər görən insan gəlinə,
Çəkib qüdrət qələmini, sahibi-Rəhman gəlinə,
Tay olmaz nə ay, nə gün, telləri əfşan gəlinə,
Qoy Haqq-taalanın özü olsun pasiban gəlinə.

Göz ala, zülfü qara, yanağa birçək yaraşır,
Al-əlvan toy xınası əllərə göyçək yaraşır,
Zər araqçın, gümüş kəmər gözələ gerçək yaraşır,
Zənəxdana hindu xalı, üzünə gül tək yaraşır,
Gülüşü bahar gətirir hüsnü gülüstan gəlinə.

Bəllidi eli, obası, Göyçə gölün sonasıdı,
İsmətdə Şirin özüdü, qeyrət, hünər cinasıdı,
Ya huridi, ya mələkdi, gözəllərin əlasıdı,
Camalı sığmır tərifə, kamalı, Nil dəryasıdı,
Yığışsın cəmi aşıqlar, yazmağa dastan gəlinə.





## DOĞULDU OĞUZUN QƏHRƏMAN OĞLU

Ağırdı ailədən, eldən ayrılmaq özü,
Həsrətlə dolanırdı hərdən gəlinin gözü.

Kövsər xanım çəksə də içində ağrı, acı,
Xanbabaya yar oldu, Səməd ağaya bacı.

Arxa, dayağı oldu elinin, obasının,
Şərəfini qorudu öz isti yuvasının.

Oğulları doğuldu, sevindi bütün Şadlı,
Cəngavər böyüdülər – qeyrətli, güclü, adlı.

Bəhluldan, Abdulladan Abbasqulu seçildi,
Çoxlu sədlər qırıldı, maneələr keçildi.

Günəş qüruba enir, üfüqlər saralırdı,
Dəyişib libasını hər tərəf qaralırdı.

Bir ana körpəsinə həzin layla çalırdı,
Bu laylayla yadıma keçənləri salırdı:

– Laylay, gülüm, gülzarım,
Malım, dövlətim, varım,
Böyü, ürəyim, canım,
Sənsən, kömək, həyanım,
Laylay, gülüm, gülzarım,
Laylay, laylay, a laylay,

Körpə quzum, a laylay.
Laylay, gülüm, çiçəyim,
Çiçəkdən də göyçəyim,
Sənsən mənim sinəmdə,
Döyunən bu ürəyim,
Laylay, gülüm, çiçəyim,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.

Dədə Qorqud soyusan,
Soyu, kökü ulusan.
Qaraçuğun qaplanı,
Xan Qazanın tayısan.
Dədə Qorqud soyusan,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.

Gavur bizə yağıdı,
Anan deyən ağıdı.
Torpağımız, ay oğul,
Namərdlər tapdağıdı.
Gavur bizə yağıdı,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.

Laylay dedim, biləsən,
Yuxularda güləsən.
Yat, keşikdə durum mən,
Sən ərsəyə gələsən.
Laylay dedim, biləsən,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.





Bu can sənin anandı,
Hər halına yanandı.
Böyü, toyunu görüm,
İndi çətin z amandı,
Bu can sənin anandı,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.

Laylay dedim, sən yatdın,
Gülə-çiçəyə batdın.
Ananın laylasıyla,
Yuxuna şəkər qatdın.
Mən oxudum, sən yatdın,
Laylay, laylay, a laylay,
Körpə quzum, a laylay.

Müqəddəsdir ananın həm südü, həm laylası,
Biri canın qidası, biri ruhun qidası.

* * *

Diribaş, qoçaq idi, dövrün tutub təbini,
Abbasqulu oxudu rus-tatar məktəbini.

Həyatını dəyişdi İrəvan gimnaziyası,
Ömrünü gülləndirdi Qori seminariyası.

Ancaq fələk qoymadı, ümidləri qırıldı,
Bezdi ötüb keçənə, küskünləşdi, yoruldu.

Atası vəfat etdi, alt-üst oldu hər işi,
Lənətlədi dövranı, zəmanəni, gərdişi.

Elinə geri döndü, xalqın halına yandı,
Hər zəhmətkeş əlini doğma əlləri sandı.

Atanın mal-mülkündən fəqirlərə payladı,
Xalqı yatmağa deyil, işləməyə hayladı.

Torpaq verdi, dən verdi, dedi əkin, becərin,
Zəhmətin bəhrəsini minbir ilhamla dərin.

Susuzluqdan qalxırdı yerdən od-alov göyə,
Mirablıq eyləyirdi torpaq yanmasın deyə.

Kimsəsizə, yetimə əl tuturdu hər zaman,
Düşünürdü, əziyyət çəkərlər birdən, aman.

Ocağında böyüdü Həcər, Fatma, Gülara*,
Hər birinə deyirdi: "Sıxılsan, məni ara".

* – Qayğılarını çəkib, boya-başa çatdırdığı kimsəsiz uşaqlar.





# TORPAQ İGİD YETİRİR

## DÜŞMƏN TƏHLÜKƏSİ

Tiflisdə qurultaydır, Andranik danışır,
Erməni ordusunu yaratmağa çalışır.

Çıxış edir, daşnaklar durmadan çəpik çalır,
Lakin cəhdi baş tutmur, istəyi gözdə qalır.

Dəstə yığır başına, yolkəsənlik eyləyir,
– Bu torpaqlar bizimdir, dağıdacam söyləyir.

Vedi-Tiflis yolunda yolçuları incidir,
Yığdığı haram mallar zərdir, ləldir, incidir.

Saxlayırdı bu yolla erməni dığasını,
Söyüb təhqir edirdi müsəlman qağasını.

Aylar, günlər keçirdi, artıq harınlamışdı,
Təlxəklik edə-edə yaman qarınlamışdı.

Sanırdı ki, önündə kimsə dayana bilməz,
Yatdıqları yuxudan türklər oyana bilməz.

Fələk çərxi döndərdi, od ələdi başına,
Bir qəhrəman göndərdi, su qarışdı aşına.





## XİLASKAR

Abbasqulu düşündü, qəti qərar çıxardı,
Dedi hər bir zülmətin aydın sabahı vardı.
Milli azadlıq üçün bizə birlik gərəkdi,
"Mübariz dəstə" qurmaq çoxdankı bir diləkdi.

Əlimizdə süngü, silah, hər yaraq,
Vətən rüzgarıdır tellərə daraq,
Gəlin yumruqları bir yerə vuraq,
Bizə birlik, milli birlik gərəkdi.

Sevgidən od alır, hər yanan ocaq,
Ocaq istisinə isinir qucaq,
Birləşək, Günəş tək şəfəqlər saçaq,
Bizə birlik, milli birlik gərəkdi.

Dədəm Qorqud olub söz qoşan – ozan,
Cənnətlik sayılar tarixi yazan,
Xalqımın oğludu Koroğlu, Qazan,
Bizə birlik, milli birlik gərəkdi.

Qan tökülər, gedər canlar qurbanlıq,
„La ilahə“ söylənilər bir anlıq,
Birləşməsək göylər olar dumanlıq,
Bizə birlik, milli birlik gərəkdi.

Ey Vətənim – ruhum, bədənim, qanım,
Yolunda qurbandı mübarək canım,
Cənnətə dönməkçün yurdum, məkanım,
Bizə birlik, milli birlik gərəkdi.

Öpdü dodaqlarım nurlu „Quran"ı,
„Quran"a tapşırdım bizi vuranı,
Yerdə qalmamaqçün millətin qanı,
Bizə birlik, milli birlik gərəkdi.

Abbasqulu qurban olar Vətənə,
Əl uzadıb salam verməz yetənə,
Demişəm, deyirəm, deyəcəm yenə,
Bizə birlik, milli birlik gərəkdi.

* * *

Şadlinski yetişdi kimsəsiz fəryadına,
"Canım qurban" söylədi hamı onun adına.

"Mübariz dəstə" ilə bəylər bəyi, bəy oğlu,
Xalqı başına yığdı xanbabanın Bəy oğlu.

Pis əməldən, bəd işdən mahalını gözlədi,
Gecə-gündüz hər kəsin dddımını izlədi.

Müşavirə çağırdı, bir Komitə* yaratdı,
Yatanları qəflətin yuxusundan oyatdı.

Nümayəndə çağırdı komitəyə hər yandan,
Dedi bu işlərə biz, yanmalıyıq lap candan.

Əlbir olaq söylədi, birləşməsək, ölərik,
Ya da Vedibasarı yağılara verərik.

* – Azərbaycanda ilk dəfə Milli Hökumətin nümunəsi olan "Vedibasar Komitəsi" nəzərdə tutulur.





Yerdən səslər gəlirdi: – Yolun Haqqın yoludu,
Başımızın böyüyü sənsən, – Abbasquludu.

Canımızdan keçərik vətənin torpağıçün,
Qanımızdan keçərik saralmış yarpağıçün.

Sənə qoşuluruq biz, əmrin başımız üstə,
İllər qarlı-boranlı gəlsə yaşımız üstə.

Yenə də döyüşərik namus, ismət, ar üçün,
Biz daşnak deyilik ki, qanlar tökək var üçün.

Abbasqulu sevindi, baxıb İlyas, Əliyə,
Dedi bənzəyirsiniz gözü qanlı "dəli"yə.

Fəxr edirəm sizinlə, arxam, dayağımsınız,
Vücudumu daşıyan məğrur ayağımsınız.

Sizə ümid böyükdü, "Mübariz dəstə"miz var,
Qorxu, hürkü uzaqda olsa belə sazaq, qar.

Sərkərdəlik eylərəm intizamla, şərəflə,
Mehriban dolanaram çalışıb hər tərəflə.

Bir şura yaradıram, – "Ağsaqqallar şurası",
Önündə vacib olan məsələlər durası.

Komitənin işiylə tanış olsun bu şura,
Aman verməsinlər ki, onları düşmən vura.

Ayrılmasın bir igid, bir qəhrəman obadan,
Ev-eşikdən xəbərsiz, məsləhətsiz babadan*.

Ağsaqqalsız işlərin məcrası yaman olar,
Biz də xoşbəxt olmarıq, baxtımız gül tək solar.

Bəyənildi bəy oğlunun məlhəm olan sözləri,
Kövrəlmişdi ahıllar, yaşarmışdı gözləri.

Sədası yayılırdı el-obaya zamanla,
Yollanırdı yanına ər oğullar imanla.

Gərnibasar, Şərurdan nümayəndə gəlirdi,
Məsləhətlər alınca yoluna düzəlirdi.

Zəngibasar elindən ər igidlər çox çıxıb,
Sözü mərdanə deyib, mərdanə də əl sıxıb.

Ağsaqqallar Şurası bəyi qonaq çağırdı,
Təbiəti zəhmli, bir qədər də ağırdı.

Sözə başladı qoca Heydər kişi inadla,
Üzündə sevinc vardı, gülümsədi muradla:

– Oğul, xoş gördük səni,
Valeh eylədin məni.
Yad səsləri batırdın,
Qan-qadanı yatırdın.

* - **Baba** deyiləndə Ağsaqqallar Şurasının sədri nəzərdə tutulur.





Adın Abbasquludu,
Yolun Haqqın yoludu.
Qəhrəmansan, ərənsən,
Dərdə sinə gərənsən.

Tanrım göndərib səni,
Oğul, qınama məni.
Xalqın ruhu, canısan,
Dar gündə həyanısan.

Bizə arxa-dayaqsan,
Gecə-gündüz oyaqsan.
Qoca babanı dinlə,
Fəxr edirik səninlə.

Namərdə göz dağısan,
Mərdə Ağrı dağısan.
Qoynun bağça-bağlıdı,
Sazaqlıdı, qarlıdı.

"Mübariz dəstə"n ilə,
"Şur"un, "Şikəstə"n ilə.
Sözü mərdanə söylə,
Arzular uçsun göylə.

Əz, parçala düşməni,
Tanrı qorusun səni.
Ərənlik var kökündə,
Sınma namərd önündə.

Qoyma açılsın başı,
Atılsın yurddan daşı.
Biz əyilməz ərənik,
Mərd-meydana girənik.

Bizə rəhbərlik eylə,
Yaxşı, yamanı söylə.
Səninlə fəxr edərik,
Əzizlərik, sevərik.

Olanlarla barışdım,
Ömrü boyu çalışdım.
Düşünürsünüz bizi,
Alqışlayırıq sizi.

Deyən yaşlı qocadan,
Avaz gəldi ucadan.

– Su gələr çaya axar,
Sel gələr qaya baxar.
Milli birlik olmasa,
Namərdlər saya baxar.

Milli birlik! – Gəlin quraq özümüz,
Gülsün ürəyimiz, gülsün sözümüz.
Firavan yaşasın körpə balalar,
Sevincdən ağlasın, gülsün gözümüz.

Milli birlik! – Bizim sabahımızdı,
Birləşməsək, sabah günahımızdı.
Əl açaq Tanrıya, edək dualar,
Əl-ələ yapışmaq zəkatımızdı.





Xəbər gəlir, Bəy sağ olsun, yenə tutublar yolları,
Neçəsini də soyublar, kəsiblər başı, qolları.

Bəy düşündü, xeyli daldı, bəd xəbərə kədərləndi,
Fikri ölənlərdə qaldı, gözü doldu, qəhərləndi.

Gözləmirdi belə xəbər, gözləmirdi ölüm-itim,
İstəmirdi neçə körpə qalsın başsız, olsun yetim.

Olanlara can üzüldü, qəm bürüdü gözümüzü,
Vaxtı çatıb deməliyik yavaş-yavaş sözümüzü.

İstəmirdi var dövlətçün, qardaş qardaşa basıla,
İstəmirdi cəza verə, canlı canlar da asıla.

Ancaq oldu, ölən də biz, öldürən də, neyləyək,
Gülən də biz, güldürən də, gedək kimə söyləyək.

Abbasqulu əmr elədi, yolkəsənlər tapılsınlar,
Xalqın gözü qarşısında güllələnsin, asılsınlar.

Tutuldular naxələflər, ağlar qaldı balaları,
Gözü yaşlı yalvarırdı, anaları, xalaları.

Qətiyyətlə Bəy dilləndi, cəzanız ölümdür sizin,
Bundan sonra yolkəsənlər sürünəcək dizin-dizin.

Həqiqətdən doğulmuşuq, sədaqətlə gəzməliyik,
Yumruq təki birləşərək daşnakları əzməliyik.

Vedi boyda dərdimiz var, Araz dolub göz yaşıyla,
Gör nə qədər səbrimiz var, orynayırıq hər naşıyla.

Hər kəs azarsa yolunu, məhrum olar yaşamaqdan,
Gözləməsə sağ-solunu, göstərərik yolu haqdan!

Bəy inadla addımladı, qətiyyətli baxışlarla,
Hamı onu yola saldı, "Əhsən" deyə alqışlarla.

* * *

Xeyli getdi, qulağına uzaqdan bir səda gəldi,
Elə bil ki, bu hənirti ürəyini qəfil dəldi.

Yanıqlı bir avaz ilə kimsə həzin oxuyurdu,
Bu səs həsrət, ağrı-acı, dərdi-bəla qoxuyurdu.

Addımını yavaşıtdı, hətta ayaq saxladı da,
Bəlkə elə bu sədaya için-için ağladı da.

Bir obanın, yurdun, elin adısan,
Sinəsi dağlanan Vedibasarım.
Sən əfşarsan, qarapapaq, şadlısan,
Yolları bağlanan Vedibasarım.

Üz-üzə dayandın Ağrı dağıyla,
Hər sabah ruhunu o tazələdi.
Sinən dolan zaman ağrı-acıyla
Sənə mərdlik, dözüm, səbr dilədi.

Qurban aranına, qurban dağına,
Qurban çiçəyinə, qurban gülünə.
Dönüb fəryadına, dönüb ağına,
Bənzədim alovsuz sönən külünə.

Vedibasar, ay Vedibasar,
Varmı sənə tay, Vedibasar!





Baxışları dalmışdı nəğmə sona yetəndə,
İnşallah güləcəyəm bu dərd, bəla bitəndə.

Davam etdi yoluna fikir, xəyal içində,
Kimi yatır yataqda, kimi əkin-biçində.

Onu yamanca tutdu Vedibasar nəğməsi,
Elə bil ki, içində üsyan etdi həvəsi.

Çıxmamışdı yadından həsrətdən göynəyənlər,
Dodağına süzüldü anası söyləyənlər:

– Qəmərlidən gələn var,
Dağı, daşı dələn var,
Qalx, igidim, ayağa
Başında od, ələm var.

İpək şaldan gözəldi,
Yaşıl aldan gözəldi,
Dağ-dərənin öz yeri
Çəmən yaldan gözəldi.

İgid oğul, ay oğul,
Varmı sənə tay, oğul,
Namərdin ocağına
Düşsün kədər, vay, oğul.

## ÇAĞIRIŞ

Sözünü deyən oğul ya döyülər, ya döyər,
Məğrurların önündə qanmazlar özün öyər.

Xalq öyrədib sizlərə sevməyi, sevilməyi,
Məndən isə öyrənin vətən üçün ölməyi.

Sevin dini, imanı, sevin Ana torpağı,
Sevin xəzələ dönmüş cansız quru yarpağı.

Körpənizə laylayla "mən ananam" söyləyin,
Hər dərdə, hər əzaba "mən yananam" söyləyin.

Beşikdəkən tanısın düşmənini, dostunu,
Ayıq-sayıq qorusun namərdlərdən postunu.

Çəkişmişik zamanla, pərən-pərən olmuşuq,
Döyüşlərdən keçərək igid, ərən olmuşuq.

İndi birlik vaxtıdı, gəlin verək əl-ələ,
Biz əl-ələ verməsək, xətər toxunar elə.

Komitədə bir qayda, bircə qanunumuz var,
Dilimizdə edirik bu sözləri biz şüar:

– Xalq üçün yaşayırıq, torpaq üçün ölürük,
Çörəyi də, suyu da qardaş kimi bölürük.

Məkkəyə, Kəbəyədi uzanan yollarımız,
Dua edib Allaha açılır qollarımız:





– Sən ey yaradılanın gözə görünməz payı,
Qüdrətinlə yaratdın Ulduz, Günəşi, Ayı.

Zərif çiçəkdən tutmuş, ta çinardan palıda,
Sən yaratdın lalənin bağrındakı xalı da.

Sənin qüdrətinlədi yer üzünün canlısı,
Sənsən quran, yaradan, sənsən ölüm qanlısı.

Adın ülvidən ülvi, ululardan uludur,
Sənə üz tutan hər kəs tanrısının quludur.

Sözüm indi sizədir, qardaş qanı tökməyin,
Gülünüzü soldurub, qanqalları əkməyin.

Bizə düşməndi yağı, yurdumuza göz qoyub,
Basıb bağrıma dağı, sinəm üstə köz qoyub.

Analarım ağlayır, qurumur göz yaşları,
Dərdini açıb desə, əridər lal daşları.

Dözümlü olmalıyıq, könlümüz güləcəkdir,
Vətəni tərk edənlər, əlbət ki dönəcəkdir.

Tərk etməyin bu yurdu, sevək canımız qədər,
Çiyin-çiyinə dursaq, zəhmət də getməz hədər.

Əzilsək də həyatda, əyilmədik namərdə,
Bu torpaqlar möhtacdı məğrur, qəhrəman mərdə.

Vətən üçün yaşayıb, vətən üçün öləırəm,
Vətən üçün ağlayıb, vətən üçün gülərəm.

Yayılacaq gülüşüm boynu buruq elimə,
Qayıdacaq gedənlər dönüb bahar selimə.

Yaz yağışı yağacaq çəmənimə, bağıma,
İldırımlar çaxacaq aranıma, dağıma.

Sevinəcək çöl, çəmən, ağlayacaq yağılar,
Nəğmələr oxunacaq, olmayacaq ağılar.





## TAPŞIRIQ

Seyfulla*, üzümü tuturam sənə,
Doğmadan doğmasan, yaxınsan mənə.

Hazırlaş, bu axşam yola düşürsən.
Əyin-baş götür ki, birdən üşürsən.

Bakıya çatdır ki, hava dumandı,
Bu günlər, bu aylar tarixi andı.

Qan içində körpə-körpə balalar,
Həsrətdən qovrulur qızlar, analar.

Qoca-cavan, hamı pərən-pərəndi,
İgid oğul dərdə sinə gərəndi.

Od vurulub, yanır kəndlər, obalar,
Yavaş-yavaş dağıdılır yuvalar.

Könlümün təlaşı artıq əyandı,
Tanrının duası sənə həyandı.

Ağa da səninlə yoldaş olacaq,
Dərdinə, sərinə sirdaş olacaq.

Kimsəyə məqsədi, məramı demə,
Namərd çörəyindən, duzundan yemə.

Yəqin ki, gün gələr dərd-bəla bitər,
Gözlərdən həsrətlər, hicranlar itər.

*-Seyfulla Süleymanov Ağa Şadlinski və Zeynalabdin Şıxəli oğlu ilə birgə "Vedibasar Komitəsi"nin Xarici İşlər bölməsinin üzvləri olmuşlar.

## EL BİR OLSA, DAĞ OYNADAR YERİNDƏN

Müşavirə çağırılır on səkkizin mayında,
Rəhbərlər yığışırlar, yalnız barmaq sayında.

Vedinin taleyini həll etmək istəyirlər,
Hərə bir yana çəkir, həqiqəti əyirlər.

Abbasqulu dözməyir: – Haqqı üzdülər yaman,
Erməni daşnakları qoşub düzdülər, yaman...

Erməni dığasının dini-imanı yoxdu,
Ağzı hərzə, dilisə sanki tikanlı oxdu.

Türk kimi məhəbbətdən, sevgidən doğulmayıb,
Heç zaman həqiqətə, saflığa sığınmayıb.

Bizi yurddan edirlər, neçə ocaqlar sönüb,
Ata-baba evimiz qanlı yuvaya dönüb.

Bizim komitənin də yolu düzlük, saflıqdı,
Devizimiz qan-qada yox, həqiqətdi, haqlıqdı.

Ancaq bizləri yaman incidirlər, əzirlər,
Tez-tez evlərə girib köpək kimi gəzirlər.

Xəbərimiz olmadan öldürürlər, asırlar,
Min bir bəhanə ilə tutub dama basırlar.

Bezdik hədə-qorxudan, namərd susdurulmalı,
Nəhayət, yağılardan al qan qusdurulmalı.

Alovlu çıxış ilə heyran etdi hamını,
Həqiqətdən, düzlükdən almışdı ilhamını.

Gələn nümayəndələr heyəti onu haqlı görürdü,
Ancaq yenə yolları dolanbaclı hörürdü.





## QƏHRƏMANIN HƏBSİ VƏ AZAD OLUNMASI

Gecə ikən yetişdi Naxçıvandan gələnlər,
Dərhal bədxahlıq etdi bunu duyub bilənlər.

Abbasqulu, dostları həbs olundu durmadan,
Bezmişdi bu el-oba fırıldaqdan, qurmadan.

Hacı Təhmasib, Şəmdi qoşuldular bu işə:
– Daldan güllə atmağı namərd eyləyər peşə.

Özbaşına kəslərin dillərini kəsərik,
Bu geniş dünyamızda ona ələm bəzərik.

Səbirli olmalıyıq, Abbasqulu gəlməli,
Tədbirli olmalıyıq, Bunu hamı bilməli.

Daşnakın məktubundan oxudular şərtləri,
Bir az da ağırlaşdı əhvalları, dərdləri.

Ancaq razılaşdılar vaxtı qazanmaq üçün,
Möhlət istədilər ki, işi uzatmaq üçün.

Çirkin işə başlamaz bəy oğlu bəyzadələr,
Qandan gəlməsə əgər, bəy olmaz hər "zadə"lər.

Baxdım Abbasquluya, kişi "Ağa"ydı, ağa,
Bənzəyirdi çinara, sərt qayalı bir dağa.

Qaməti şux, əzmkar, gözlərində alov var,
Saçlarına özündən xəbərsizcə yağıb qar.

Baxışında qətiyyət, duruşunda ilham var,
Xalqa, yurda, Vətənə sədaqətli inam var.

Yerişindən düşərdi canlara qorxu, hədə,
Durammazdı önündə qulağıkəsik gədə.

Kişilik məktəbiydi ağlı, zövqü, kamalı,
Düzlük, həqiqət idi əqidəsi, amalı.

Siyasətlə alındı namərdlərin əlindən,
Bir tük də düşməmişdi kirpiyindən, telindən.

Gecəykən parovozla Şirazlıya yol aldı,
Sağ-solunda gələnlər susdu, dinmədi – laldı.

Yolların sevgisindən o ilhama gəlirdi,
Sinəsini bir istək, bir doğmalıq dəlirdi.

Xalq onu qarşıladı, həyəcanla, ürəklə,
Yığışdılar başına min arzuyla, diləklə.

Xalqın məhəbbətini doldurub qucağına,
Böyük Vediyə getdi, öz doğma ocağına.

Öz oğluyla qürur duyur ana torpaq, təbiət,
Gözdən yayınmaz heç vaxt gözəl arzu, xoş niyyət.

Abbasqulu qayıtdı, yerlər gülümsəyirdi,
Ulduz, Günəş, Ay, səma – göylər gülümsəyirdi.

Baxıb doğma oğluna çöllər gülümsəyirdi,
Dağlar, daşlar, dərələr, göllər gülümsəyirdi.

Həzin əsən küləklər, yellər gülümsəyirdi,
Təbiətlə birlikdə ellər gülümsəyirdi.

Bəxtəvərlik yağırdı insanların üzündən,
Çıxmırdılar heç zaman Bəy oğlunun sözündən.





## DADA YETİR ABBASQULU

Bəy həbsdən qayıtmışdı, gözlərində alov vardı,
Sanırdı ki, bu gen dünya cılızlaşıb, yaman dardı.

İçindəki narahatlıq məyus eyləyirdi onu,
Düşünürdü, nə olacaq bu işlərin görən sonu?

Könlündən nələr keçdisə, yollandı tez qərargaha,
Dedi hazır olmalıyıq hər əzaba, zülmə daha.

Sözü sona yetməmişdi, dedilər bir çapar gəlib,
Soraq var ki, mənfur düşmən nəsə yenə dirəklənib.

Cahanbəxş göndəribdi: "Millidərə təhlükədə,
Yenə basqın eyləyibdi Almərdana Artur gədə.

Quldurları dağıdıbdı Yellicəni, Bayburdu da,
Bağlanıbdı yol-iz belə, tapılmayır qurtum su da.

Ev-eşiklər, yurd-yuvalar xarabaya döndərilib,
Qız-gəlinlər oğurlanıb başqa yerə göndərilib.

Gölaysora üz tutubdu kəndi qoyub qaçan kəslər,
Hər tərəfə yayılıbdı fəryad ilə dolu səslər.

Bizlər isə vuruşuruq, cəmi otuz-qırx nəfərlə,
Yardım olsa, çıxacağıq bu döyüşdən biz zəfərlə".

Abbasqulu əmr elədi: – Silahlanmaq vaxtı çatıb,
Şorbulağım, Millidərəm namərd tapdağına batıb.

Abbasqulu qalxdı yenə ağ kəhər atın belinə,
– Bəy döyüşə özü gedir, xəbər yayıldı elinə.

Üz tutmuşdu Şorbulağa, döyüş dağlarda olacaq,
Bu dəfə namərdin qanı dağdan dərəyə dolacaq.

Göy üzünü duman aldı, toz dumana qarışmışdı,
Yovşanlı düzdə çiçəklər od tutaraq alışmışdı.

Çöl-şəməni dalda qoyub İlanlı dağa getdilər,
Seyidkotanlı kəndindən Millidərəyə yetdilər.

Qanlı döyüşlər başladı, ölənlərin sayı çoxdu,
Silah zağlı tüfənglərdi, nə nizədi, nə də oxdu.

Sultan xanla Hacımirzə bəy oğlunu dəstəkləyir,
Həbibin dəstəsinin də bu döyüşə xeyri dəyir.

Cahanbəxş döyüşürdü xalqı qırılmasın deyə,
Günahsızın ah-fəryadı ucalırdı yerdən göyə.

Günahı nə körpələrin, qocaların, qız-gəlinin?
Zaman özü söz deyəcək əməlinə hər dəlinin.

Dağ yoluyla qaçırdılar, dərə-təpə ağlayırdı,
Ölənlərin sayı çoxdu, qalan matəm saxlayırdı.

Cahanbəxş and içmişdi, geriyə yol yoxdu daha,
Ümid ilə baxmalıyıq açılacaq hər sabaha.

"Ya ölümdü, ya da qalım" şüarımız, bunu bilin,
Torpaqları azad edib, anaların gözün silin.





Abbasqulu yetişdirdi "Mübariz dəstə"ni haya,
Cahanbəxş ürəkləndi, baxıb ordudakı saya.

"Vedililər irəliyə" sədaları ucaldıldı,
Ermənini qovladılar, Millidərə boşaldıldı.

Bizim olsa da qələbə, yandırıldı on iki kənd,
Dağıdıldı od-ocaqlar, uçuruldu gör neçə bənd.

Cahanbəxş sevinirdi bəy oğlunun köməyinə,
Dar günündə o yetişdi, o söykəndi kürəyinə.

Qələbədən vəcdə gəlib, vedililər ürəkləndi,
"Vedibasar Komitəsi" bir azca da dirəkləndi.

Xalqın güman yeri oldu, hamı ona inanırdı,
Bu torpaqçün, bu millətçün məşələ dönüb yanırdı.

## VEDİBASAR TƏHLÜKƏDƏ

Qan ağladı yerlər, göylər: – Vedibasar təhlükədə,
Sinəmizə tuşlayıbdı pulemyotu yenə gədə.

Abbasqulu çox düşündü,dəmir yolu dağılacaq,
Yenə xalqın varı-yoxu bu minvalla sovulacaq.

Fikirləşdi, çox çalışdı, sinəsində dərd alışdı,
Toplayaraq igidləri, qətiyyətli söz danışdı:

– Kömək yoxdu heç kimsədən, özümüzük bu döyüşdə,
Bizimkidi xeyir-dua, bizimkidi son döyüş də.

Mütləq bizim olmalıdır həm qələbə, həm də uğur,
Qələbədən sevinc-sevgi, nurlu bir səadət doğur.

Səhər üzü qoymadılar sökülməyə dan yerini,
Sabahın xoş nəfəsi yox, qan yaladı dan yelini.

Qəmərlidən Dəvəliyə ermənilər hücum çəkdi,
Dəmir yolu kənarıyla pulemyotlar güllə əkdi.

Ayaqyalın-başıaçıq pərən-pərən oldu ellər,
Top-tüfəngin gur səsindən susdu nəğmə deyən dillər.

Şirazlıda, Qaralarda, Avşarda da qan töküldü,
Min bir əzab-işgəncəylə gözlərdən leysan töküldü.

Xalisa da boyanmışdı igidlərin al qanına,
Susamışdı namərd artur günahsız insan canına.

Vedinin çox kəndlərində qara gətirərək danı,
Tərki-vətən eylədilər öz yurdundan neçə canı.

Üç tərəfdən əhatəyə alınmışdı Böyük Vedi,
Birdən kimsə aralıdan həyəcanlı səslə dedi:

– Yengicə, Taytan da getdi, yandırılır ev-eşiklər,
Yandırılır körpələrin uyuduğu o beşiklər.

Məktəb binası odlandı, ucalırdı alov göyə,
Qız-gəlinlər qışqırırdı "imdad-imdad" deyə-deyə.

Göyqum təpəsindən keçib Həmdəm dərəyə qaçdılar,
Gecəni çimir almayıb, dirigözlə sübh açdılar.





Abbasqulu ayıq-sayıq şimal-şərqdə dayanmışdı,
Dünya başına dönürdü, bəd yuxudan oyanmışdı.

Məktub gördü Müseyibdə, alıb onu oxudu da,
Müseyib gör nə yazmışdı: – ey yaradan, sən ey Xuda,

Köməyimə çağırıram uzaq düşən ellərimi,
Gəlin görün gözünüzlə qan ağlayan çöllərimi.

– Bir namə yazıram, ellər, obalar,
Yığışın bir yerə, oxuyun gəlin .
Qan-qada qoxuyur isti yuvalar,
Birləşib bir çələng toxuyun gəlin.

Birəlidən Çanaxçıya,
Hortundan Qaşqaya gəlin.
Almalıdan Qazançıya,
Bir stəkan çaya gəlin.

Qəmərlidən Yeni yola,
Şiddidən Xalsaya gəlin.
Goravandan düşüb yola,
Yengicəyə haya gəlin.

Günlərlə gələ bilmirsiz,
Heç olmasa aya gəlin.
Güləndə bizlə gülmüsüz,
Ağlayırıq, vaya gəlin.

Arazdəyəndən Kərkiyə,
Yaycıdan Əfşara gəlin.
Soruşmadan nədən, niyə?
Dar günlərdə kara gəlin.

Dost əlini sıxa-sıxa,
Düşmənin bağrını dəlin.
Qoymayın ki, bizi yıxa,
Soyumamış ara gəlin.

Güneyyurddan Dəvəliyə,
Şorsudan Saraya gəlin.
Aman verməyin gədəyə,
Vediyə haraya gəlin!
Vediyə haraya gəlin!

Saraldıq Sarı babatək,
Qalmışıq lap tənhaca, tək.
Namərd üstümüzü alıb,
Qan ağlayır neçə ürək".

Bəy oxudu, sonra sordu: – Şairsənmi, ay Müseyib?
Nə ələmli qələmin var, bunu sənə qəlbin deyib?

Ancaq eşit, lazım deyil, məktubunu salma yola,
Özgələrdən kömək umma, qüvvət versin Tanrı qola.

Əmr verdi Müseyibə, Sultan xana və Həbibə,
Dedi hazır olmalısız, ehtiyac yoxdu təbibə.

Hava qaralan kimi, siz Şorbulağa tərəf gedin,
İsmayıl da gələcəkdir, daşnaklara hücum edin.





* * *

Hücum etdi bizimkilər, irəlidə Abbasqulu,
Aydınlıqla yetdi sona "Mübariz dəstə"nin yolu.

Qaytarıldı kəndlərimiz, düşmən qovhaqova düşdü,
Qurban getdi neçə canlar, çox böyük bir dava düşdü.

Qaçan qaçdı, qalanlarsa öz qınına çəkildilər,
Xəyanətkar bişərəflər qorxa-qorxa əkildilər.

Sığışdırıb şöhrətinə, Bəy dəymədi qalanlara,
Amma xeyli təəssüfləndi bu əcaib olaylara.

İndi kimlər qaytaracaq sönən odlu ocaqları?
Kim doldura biləcəkdir bu boşalan bucaqları?

İstəmirdi qan tökülsün, istəmirdi dava olsun,
İstəmirdi qız-gəlinlər ağı deyib, saçın yolsun.

Ancaq namərd düşünmədi, qan ağlatdı gözümüzə,
Şəkk-şübhəylə yanaşırdı ən ağıllı sözümüzə.

Namərd oğlu Əmirxanov* bəy oğluyçün raport yazdı,
Qisas üçün hökm verib, öldürməkçün qəbir qazdı.

Daşnak ölüm hökmü kəsdi: – Şadlinski öləcəkdir,
Yağı bundan sevinəcək, böyük bayram edəcəkdir.

* – Əmirxanov daşnak hökumətində Vedinin də daxil olduğu İrəvan qəz komissarı idi.

## DOST GƏLİŞİ

Erməni-türk davası bürümüşdü hər yanı,
Amansızlıq, soyqırım dolanırdı dünyanı.

Qubada, Şamaxıda vəhşiliklər etdilər,
Dəstə yığıb daşnaklar Naxçıvana getdilər.

Qalxdı ayağa Şərur, Dərələyəz, İrəvan,
Əlbir olmasaq əgər, işlər də olmaz rəvan.

Türkiyədən Kərim xan nümayəndə göndərdi,
Dedi, bəlkə böləsiz bizimlə fikri, dərdi.

Türkün qoşunu gəldiNaxçıvana iyunda,
Dost gələndə bal dadar çörəyin də, suyun da.

Erməninin canına qorxu düşdü bu səsdən,
Səslərini kəsdilər, çəkindilər hər bəhsdən.

Naxçıvandan Vediyə türkün qoşunu gəldi,
Bu xəbər ermənin qorxaq bağrını dəldi.

Bəy oğlu qarşıladı qonaqları həvəslə,
Deyib güldü onlarla xoş ovqatla, nəfəslə.

Vedibasar süfrəsi bəzəndi min nemətlə,
Bağır bəy, Əli Teymur* baxışdılar heyrətlə.

* - Bağır bəy və türk zabiti Əli Teymur Kəlbalı xanın Naxçıvandan göndərdiyi nümayəndələrdir.





– Xoş gəlmisiz,– söylədi qonaqlara bəy oğlu,
Sizlər üçün kəsilir qurbanlığa bu toğlu.

Dost üzünə açıqdı qəlbimiz tək süfrəmiz,
Niyyətimiz gözəldi, əməlimiz saf, təmiz!

Alməmmədli İqbal bəy qüvvət verdi sözlərə,
Dedi, tamaşa edin sizə baxan gözlərə.

Qonaqpərvərdi, qardaş, bizim xınalı ellər,
Naməhrəmi görəndə olub cunalı ellər.

Adət olub, əzəldən yaşmaqlanıb qız-gəlin,
Kəlağayı altından ağzına tutub əlin.

Qulluq edib qonağa, göstəriblər mərifət,
Qonağa hörmətimiz dünyamızı edib fəth.

Kimdən soruşsan əgər, həqiqəti deyəcək,
Ruhumuz bir missing ələkdi, onu duyan sevəcək.

## DUMANLI TƏKLİF

Bağır bəy söz istədi, dedi, – sizə məktub var,
Ürəyimiz doludu, zaman isə məhdud, dar.

Kəlbalı xan dedi ki, bəy oğluna verərsən,
Diqqət ilə oxusun, çox vacibdir deyərsən.

Bəy oxudu məktubu baxışları dumanlı,
Üzündə kədər vardı, beyni oldu tufanlı.

Xan kağızda yazmışdı: – Çox kiçikdi dəstəniz,
Düşməninsə ordusu ləpələnmiş bir dəniz.

Təcili yanıma gəl, Naxçıvana durmadan,
Məsləhət almalısan daşnak sizi vurmadan.

İşlərin icrasını tapşır Əli Teymura,
Bu iş sizə çətindi, yağını türk durdura.

Hacı Təhmasib, Şəmdin, Nəsrulla narazıdır:
– Sərt cavab verməliyik, özündən çox razıdır.

Bəy oğlu çox düşündü, ancaq ora getmədi,
Kəlbalının sözünə heç cavab da vermədi.

Bir neçə gündən sonra göylər buludla doldu.
Bağır bəy, Əli Teymur geri dönməli oldu.





## QUDUZ DÜŞMƏN

Andranik heç sevmədi Batum anlaşmasını*,
Dedi, qurduracağam müsəlmanın yasını.

Gecəylə basqın etdi Naxçıvana, Yaycıya,
Vicdanı varmıdı ki, günahsıza acıya.

Divan tutdu hamıya, qanlar tökdü bu qansız,
Qan-qadadan qorxmurdu bu nanəcib Allahsız.

Andraniklə Şaumyan işlədilər əl-ələ,
Zülm etdilər bu sadə, zəhməti sevən elə.

Sonda türkün ordusu onu qovdu geriyə,
Qaçaqaça düşdülər, tabı yoxdu yeriyə.

Zəngəzura üz tutdu bu hiyləgər bəduğur,
Onun hər sabahına Günəş deyil, qan doğur.

* - 1918-ci il 4 iyun tarixli Batum anlaşmasına əsasən Qars, Ərdahan və Batum vilayətləri Türkiyəyə verilməli idi.

# YENƏ HÜCUM ETDİ DAŞNAK VEDİYƏ

O illərin tarixindən bir faciə yadda qalıb,
Musa adlı bir şahidin sözlərini yada salıb,

Xatırlmaq istəyirəm on səkkizin yay gününü,
Ermənінin küləklərə verdiyi insan külünü.

Sinəmdə köz başlayıram hadisəni danışmağa,
Görün nələr açıb bizim başımıza nankor dığa.

Əl atdılar fırıldağa, hər bir evə paylandılar,
Gecə ikən hücum üçün əmr gəldi, haylandılar.

Bir gecənin içindəcə bütün kəndi yandırdılar,
Quduz it tək hər tərəfdən üstümüzə saldırdılar.

Xəbər verdik Çimənkəndə – Məhərrəmə, İsmayıla,
Dedik gərək ermənilər bu yuxudan kəm ayıla.

Ancaq yaman gecikmişdik, qan içirdi ermənilər,
Cəsədlər tam doğranmışdı, gor eşirdi ermənilər.

Cəttar oğlu Musanın da nəslinə od vurmuşdular,
İyirmi yeddi nəfəri bir nəfəsə qırmışdılar.

Kəndə zülüm eylədilər, ölən öldü, qalan qaçdı,
Başıaçıq, ayaqyalın arvad-uşaq sabah açdı.

Kəbleyinin mərd dəstəsi bezdi qandan, qadadan da,
Dedi nələr görəcəyik, bundan betər bu cahanda.





Qisas aldı qəhrəmanlar, qoymadılar qanı yerdə,
Qoymadılar sızıldayan can verməmiş canı yerdə.

Abbasqulu bəyə gəlib qoşuldular bütün ərlər,
Dedilər ki, əlbir olaq, qoy ərisin dərdi-sərlər.

Onlar bizi qırırdılar amansızlıq edə-edə,
Qanımıza susamışdı Dəli Kazon, Aram gədə.

Bezməyib bu olanlardan Vediyə də göz dikdilər,
Abbasqulu əmr verdi, qırıldılar-diz çökdülər.

Böyük Vedi azad oldu, düşmənlərdən təmizləndi,
Yenə payız nemətilə bol süfrəsi əzizləndi.

Yığıldılar Komitəyə Yetim Əli, Fərəməz bəy,
Səttar oğlu Musa gəldi, dedi gərək göstərək səy.

Qanımız yerdə qalmaya, kəndlərimiz kül içində,
Bizim ellər yaşamalı bağça-bağda gül içində.

# EL ƏYRİCƏDƏ

Türk qoşunu qədəm basdı Vedibasar ellərinə,
Dost gəlişi bayram oldu, sevinc doldu evlərinə.

Qərargahı bağışladı bəy oğlu türk qardaşına,
Ürəyinin hər sirrini açdı doğma sirdaşına.

... Abbasqulu nigarandı, daşnak yeriyər yaylağa,
Qoymaz dincəlsin əhali, quzular qaçsın oylağa.

Hər kəs rahatlığın tapar, Əyricədə yatsa əgər,
Qayıtmaq istəməz ellər, dağlar qayğısını çəkər.

* * *

Ələsgər gəzmişdi bu dağı, çölü,
Sevib oxşamışdı çəməni, gölü.
Alıb ilhamını yaşıl yaylaqdan,
Əyilib içmişdi "Böyük bulaq"dan.

Salam verib, süfrə açıb, nan yemiş,
Sərin bulaqlara nəğmələr demiş.
Tellinin, Zəhranın bulağı balmış,
"Gülbulaq", "Ağbulaq" susubmuş – lalmış.

"Şovşar"ın bulağı ürək açandı,
Könül oxşayandı, şəfa saçandı.
Doymaq olmaz Kolanlının yayından,
Keçmək olmaz Almalığın çayından.





Dolanasan Qızıldağdan bu yana,
Sübh namazı ceyran-cüyür oyana.
"Quru göl"ə, "Qanlı göl"ə gedəsən,
Muradına "Lalalıq"da yetəsən.

"Öküz uçan", "Malyatan"da qalasan,
Əhdi-peyman edib, dingə salasan.
Sanasan ki, məğrur dağsan, qalasan,
Ya çəmənsən, ya da güllü talasan.

Fərqi yoxdu, Kolanlıdan pay istə,
Çəmən istə, bulaq istə, çay istə,
Gecəsindən ulduz istə, ay istə,
Havasından payız, qış, yaz, yay istə.

Yay gələndə yolun düşsə qoynuna,
İrmaq-irmaq dolanasan boynuna.
Qonaq qardaş, qaymaq istə, yağ istə,
Fətir üstə yağlı şoru ağ istə.

Gözəl üzlü gül dodaqdan bal istə,
Çəmənini, çiçəyini al istə.
İstə, qardaş, "Şovşar" olsun ocağın,
Bol nemətlə dolsun qoynun-qucağın.

Dağılmasın qoyunların quzusu,
Əksilməsin el-obanın ruzusu.
Xınıt düzü xınalasın qızları,
Gülsün üzlərinə bəxt ulduzları.

"Dev zağası" bəy oğlanı gətirsin,
Gözəlləri muradına yetirsin.
Əyricənin çadırları şal olsun,
Gözəllərin üz örtüyü al olsun.

Toy çalınsın, hamı gülsün, oynasın,
Ocaq yansın, qazanda aş qaynasın.
Bəy oğlanı haraylayıb uzaqdan,
Oğurlayıb aparsınlar otaqdan.

Qohumları xələt versin, pay versin,
Oğurlayan payı alıb hay versin.
Bəy yaxası bəzənsin gül-çiçəklə,
Gəlin gəlsin min arzu, min diləklə.

Qılınc çalıb, at oynatsın igidlər,
Məhəbbətə qan qaynatsın igidlər.
Çoban baxıb alaçığın toyuna,
Tərif desin öz yurduna, soyuna:

–Bu yerlərin tayı yoxdu əzəldən,
Doğulubdu saf niyyətdən, düz əldən.
Oğuz yurdum, sənə şeir, qəzəldən,
Nəğmə qoşub, söz söyləsəm, necəsən?

Ozanlar ozanı o Qorqud Dədə,
Ad qoydu igidə, yaxşıya, bədə,
Göz tikib hüsnünə erməni gədə,
Bircə kəlmə "döz" söyləsəm, necəsən?





Mən bilirəm səndə olan sərvəti,
Gözəlliyi, aliliyi, hikməti,
Görməsəm də könlündəki niyyəti,
– Baxır sənə göz, söyləsəm, necəsən?

Xəbər alma sən ayımı, günümü,
Sovurubdu namərd göyə külümü,
Kəsibdilər lap dibindən dilimi,
– Əlacımdı saz, söyləsəm, necəsən?

Ayrı salıb obasından elimi,
Əsdirdilər toz-dumanlı yelimi,
Axıtdılar ala gözdən selimi,
– Sinəm oldu köz, söyləsəm, necəsən?

Vedibasar qan ağladı, qan qusdu,
Gah sızladı, gah inlədi, gah susdu,
Qapımızı, bacamızı yad pusdu,
Bu dərdimi çöz, söyləsəm, necəsən?

Oğuz yurdu, bağrım sənsiz pərəndi,
Sinəm dərddən, ayrılıqdan vərəmdi,
İllərin ömrümə həsrət sərəndi,
Söz söyləsəm, döz söyləsəm, necəsən?
– Bu dərdimi çöz, söyləsəm, necəsən?

# EL DAĞDAN QAYIDIR

Qızıl payız səpələdi yağışını çiçək-çiçək,
Təbiətin bu sehrindən ilham aldı sevən ürək.

Yaylaqlardan yığışırdı el-obanın barxanası,
İşə düşdü nənələrin yarımçıq qalmış hanası.

Yaylaqların nemətilə yüklənmişdi arabalar,
Son baharın fırçasıyla boyanmışdı görklü dağlar.

Öküzlərə düşdükcə zor, çatlayırdı boyunduruq,
Durna səfi uçaraqda oxuyurdu qırıq-qırıq.

İtlər hərdən həşir salıb hürə-hürə yal aşırdı,
Qoyun-quzu hürküşərək bir-birinə qarışırdı.

Köç ləngərlə yeridikcə yol uzunu qopurdu toz,
Gün bir azca soyumuşdu, göy üzündə bulud bomboz.

Pendir, qurud, motal ilə arabalar dolu idi,
Min illərdi yaylaq yolu el-elatın yolu idi.

Köç gahdabir dayanırdı çay ağzında, bulaq üstə,
Dəstərxanı açırdılar toplaşaraq dəstə-dəstə.

Kəl öküzü tayı ilə arabadan açırdılar,
Uşaqlarsa ocaq üçün çır-çırpıya qaçırdılar.

El yaylaqdan qayıdırdı, çöhrələrdə həyat eşqi,
Qarışırdı bir-birinə at, araba, qatır-qoşqu.





İlin-günün bu vaxtında sevinirdi Böyük Vedi,
Abbasquluürəkləndi, camaata baxıb dedi:

– Sağ-salamat qayıtdınız, şükür olsun Yaradana,
Namərd odu qibləsini, Tanrısını dura dana.

Deyin görək, nələr vardı bizim "Sultan yurdu"muzda,*
Sizlər kimi sevinibdi indi gülzar yurdumuz da.

Öz mehrini, sevgisini çəmən, çiçək necə dedi?
Bulaqların təranəsi laylasını gecə dedi?

Uşaq vaxtı dolanmışam çöl-çəməni, dağı, daşı,
Bəzən obadan ayrılıb mən yığmışam bulaq daşı.

Gecələr biz darıxanda oynayardıq qəcəmədaş,
Geri dönə əlim üstü çimdiklənən o günlər kaş.

Kövrəlmişdi Abbasqulu, toxtaqlıq verdi özünə,
Dərindən bir ah çəkərək davam eylədi sözünə.

– Doğmasınız hər biriniz, bu el bizim elimizdi,
Açılmasın qoy sirrimiz, oba bizim evimizdi.

Ulu Tanrı qüdrətilə zaman gülsün üzümüzə,
Özgə lazım deyil bizə, nə olub ki özümüzə?

Xəlil, Musa, Yetim Əli, əl-ələyik, dünya bizim,
Bu xalq durub dalınızda bir dağ kimi hər an sizin.

* - Sultan yurdu Əyricə yaylağında Bala Sultanın yurd yeidir.

Düşməniniz Xaçik, Aşot, dostunuz ellər, obalar,
Neyləsə də çovğun, boran, soyumaz isti sobalar.

Bu arada bəy oğlunun qulağına bir səs dəydi,
Bu, adi bir səs deyildi, bir fəryaddı, bir naləydi:

– Araz axdı, qan axdı,
Dərdlə doldu, yan axdı.
Türkün qoşunu getdi,
Canımızdan can axdı.

Söykənmişdik bir dağa,
Ümidliydik sabaha.
Türkün qoşunu getdi,
Olduq əlacsız daha.

Abbasqulu, hardasan,
Borandasan, qardasan?
Türkün qoşunu getdi,
İndi ixtiyardasan.

Namərd edir xəyanət,
Göstər bizə dəyanət.
Türkün qoşunu getdi,
Xalqın sənə əmanət.





## VEDİBASAR ÜMİD YERİDİR

Bəy oğlunu yaman tutdu can sızladan bu ağılar,
And içdi ki, qoymayacaq deyib-gülsünlər yağılar.

Təcili bir iclas qurdu Sultan bəyin otağında,
Dedi, daşnak ölməlidi, nur sönməli çırağında.

Ayağa qalxmalı artıq bizim "Mübariz dəstə"miz,
Çarə olmalı dərdinə, sağalmalı hər xəstəmiz.

Xəlil, Abbas, İmamverdi, yola çıxın on beş atla,
Arazı ehmal keçərsiz, dönərkən silah-sursatla.

Əlbir olub birləşmişdi qələbəyə doğru hamı,
Qoçaqlardan, igidlərdən alardı xalqım ilhamı.

Bir zamanlar söyləmişdi atasından mənim anam,
–Uşaq vaxtı qoçaq olub, çevik olub Bayroş atam.

Qoyun-quzu otararaq, gəzərmiş hey dağ-dərəni,
Çox yaxşıca tanıyarmış hər kəndi, bəndi-bərəni.

Daşnakların hiyləsindən müsəlman qan qusan zaman,
Gediş-gəliş çətinləşir, vermirdilər bizə aman.

Qəhrəmanlıq göstərərək çox iş görür bu mərd uşaq,
Beşiyindən doğulubmuş məğrur, ərən, igid, qoçaq.

Əvvəllər də döyüşmüşdü daşnaklarla əzizləri,
Üç qardaşdan oğul payı qalmışdı Bayroş – izləri.

Silah, azuqə daşımış Bəy oğlunun dəstəsinə,
Dava-dərman çatdırarmış yaralanmış xəstəsinə.

Kim görsə söyləyərdi: – Bu, uşaq deyil, qəhrəman, ər,
Atalarım deyibdi ki, "ot öz kökü üstə bitər".

* * *

Gedər oldu türk qoşunu, ingilislər daxil oldu,
Gərnibasar torpağında "yersiz"lərin yeri boldu.

Xəbər çatdı bəy oğluna, bir el-oba sənə gəlir,
Yurd həsrəti hər birinin sinəsini didir, dəlir.

Çox düşündü Abbasqulu: –Bu gün Gərni, sabah Vedi,
Bizlərə də hücum çəkər o vicdansız daşnak, dedi.

Əli silah tutan kəsə elan olsun: – Səfərbərik,
Vətən üçün, millət üçün candan, qandan keçən ərik.

Biz bu yurdun övladıyıq, anamızdı Vedibasar,
Bu torpağa göz dikəni vətən oğlu dardan asar.

Bir müqəddəs yolumuz var – ya şəhidik, ya qəhrəman,
Namərdlərin qarşısında heç vaxt sınmaz məğrur insan.





## DÖYÜŞƏN VEDİBASAR

On səkkizin dekabrı – soyuq hava, şaxta, sazaq,
Ey kağızım, ey qələmim, gəl bu dərdi birgə yazaq.

Yenə namərd qaniçənlər–"Van"la "Sasun"* türkdən qaçdı,
Culfa yolu Naxçıvana, ordan bizə ayaq açdı.

Yanılmadı Abbasqulu, yol açdılar Qaraxaçdan,
Pislik, zillət, zülüm yağdı üstümüzə qara xaçdan.

Dərələyəz, Vedibasar bu xəbəri həmən aldı,
Abbasqulu çaparları hazırlayıb yola saldı.

Xəbər verdi ellərinə, namərd bizə toy tutacaq,
Əllərimiz qoynumuzu göz yaşımızla qucacaq.

Göycə yolu boran, qardı, ordan çətin keçəcəklər,
"Səlim gədiyi" aslandı, onlar bizi seçəcəklər.

Kəndlərdə yuva qurdular, min hiyləylə, min kələklə,
Kövrək ruhumuz oynadı daşnak adlı pəzəvənglə.

Danışırdı nanəciblər Osmanlı türkcəsi ilə,
Tuturdular kəndliləri yavaş-yavaş şirin dilə.

Evlərdə yer alırdılar, gecə tələ qurmaq üçün,
Günahsızı, qız-gəlini yatağında vurmaq üçün.

* – Türkiyədə məğlub olaraq Andranikin başçılığı ilə Arazın bu tayına keçən erməni alayları.

Abbasqulu tez-tez xəbər göndərirdi ki, ayılın,
Bu işlərdə xeyri dəydi Məhərrəmin, İsmayılın.

Namərdi qovhaqov aldı, bizləri tərk eylədilər,
Gedib kənar kənddə isə yalan sözlər söylədilər.

Böyük Vediyə qaçdılar, Şahablıya, Qədirliyə,
Başladılar müsəlmana ağalığa, sədirliyə.

Yarı zorla, yarı xoşla topladılar silahları,
Divan oldu neçə kəndə, taladılar mülkü, varı.





## AŞIQ CƏLİL MÜSİBƏTİ

O gün şəfəqini gözlətdi günəş,
Ağladı günahsız tökülən qana.
O gün səmalara ucaldı ataş,
Qıydılar gör neçə günahsız cana.

O gün açılmadı dan yeri nədən?
Qönçə çıçəklərin ətri çəkildi.
Tayalar içində gör neçə bədən,
Dağlandı kabab tək, şişə çəkildi.

O gün göydən yerə lənət yağırdı,
Susmuşdu quşların cəh-cəhli səsi.
O günün itkisi dağdan ağırdı,
Kəsirdi boğazdan çıxan nəfəsi.

Şahablıdan Cəlil gəldi bu haya,
Gördü ki, od tutub alışır taya,
Söz deyə bilmədi zillətə, vaya.
Telli sazı sinəsinə taxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Axdı sinəsindən gözünün seli,
Oxşadı saçını soyuq qış yeli,
Çəkildi dibindən aşığın dili.
Doğradılar dilim-dilim, baxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Son məqamda Bəyə namə göndərdi,
Dedi: – Yetiş, daşnaklar aldı kəndi,
Tanrı qoruyacaq sənin tək mərdi!
Andraniklər bu naməyə baxdılar,
Cəlili də yandırdılar, yaxdılar.





Aşıq Cəlil qurban getdi vətənə,
Səda düşdü, səs yayıldı yetənə,
Can demədi yoldan, izdən ötənə.
Şimşək olub bircə anda çaxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Şahablının çölü, düzü ağladı,
Qədirlilər qara yaylıq bağladı,
Bütün ellər bu dərdə yas saxladı.
Leysan olub bulandılar, axdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Namərd evimizə girdi, çıxmadı,
Vay-şivənlər yerə-göyə sığmadı,
Aşığın ömürlük səsi çıxmadı.
Süngüləyib, şanalayıb yıxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Qurban olum yollar gələn havana*,
Necə dözdün bu insafsız divana,
Gəl bu dərdə gətir indi tab, ana.
Cəlilini yabalara taxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

Elini-gününü sevdiyi üçün,
Bir aşığa küdurətlə baxdılar.
Qoymadılar könlü-gözü sevinsin.
Diri-diri yandırdılar, yaxdılar,
Diri-diri yandırdılar, yaxdılar.

* – „Cəlili" aşıq havası nəzərdə tutulur.

## ÜRƏK AĞRIMIZ

Ərşə qalxdı ah-fəryadım,
Yaddan belə çıxdı adım,
Qara geydi el-obalar
Nakam qaldı hər muradım.

Arzu öldü, istək öldü,
Taleyimi fələk böldü,
Yarısına həsrət saldı
Yarısına baxıb güldü.

Daşnak gəldi üstümüzə,
Əllərində balta, nizə,
Öldürdülər, odladılar
Gəlmədiniz tüstümüzə.

Könlüm doldu, boşaldı,
Xəyalımı huş aldı,
Namərd qarşıma çıxdı
Gülləsiylə tuş aldı.

Torpaq getdi, ad getdi,
Ağızdakı dad getdi,
Hansını sayım sizə
Dövlət getdi, "zad" getdi.

Qələm əldə ağlayır,
Dözmür dərdə, möhnətə.
Misralar qəlb dağlayır,
Zülm etdilər millətə.





***

O illərin tarixini unutmasaq, nə vardı ki,
Bizə çatan gündəlikdə Mirzə Bağır yazırdı ki:

– Vedibasar torpağında iyirmi min günahsızı,
Qocaları, uşaqları, neçə-neçə gəlin-qızı.

Qılınclayıb doymadılar, cəfalarla odladılar,
Silah atıb öldürmədən baltalarla doğradılar.

Dəhnəz, Çimən, Keşişdağda, Kərkab, Qədirli, Şahabda,
Qan töküldü, el qalmadı, yandı belə iynə, sap da.

Bir faktı da deyim sizə, zülm eylədi namərd bizə,
"Van"la "Sasun" qəfil gecə hücum edib üstümüzə.

Neçə kəndin kişisini öldürdülər dayanmadan,
Bir nəfər də sağ qalmadı, al qanına boyanmadan.

## DÜŞMƏNLƏ MÜCADİLƏ

Min doqquz yüz on doqquzda namərdlərin təhrikiylə,
Naxçıvana daxil oldu böyük dəstə tərkibiylə.

İngilisin gəlişiylə alovlandı yanan ocaq,
Sevinmədi dinc əhali, qan qoxudu hər künc-bucaq.

Bir azca da daraldıldı mübarizlərin məkanı,
İmkan olmadı alsınlar qonşularından təkanı.

Doluxanov* əmr etdi ki, Böyük Vedi bizim olsun,
Ermənilər yerləşsinlər, müsəlmana zülüm olsun.

Bacarmadı Doluxanov, asan tikə deyil Vedi,
Yolumuzu dəyişirik Dərələyəz səmtə, dedi.

Xeyli vəhşilik eylədi, Dərələyəz dağıdıldı,
Kəlbalı xan gələnəcən hər tərəfi yandırıldı.

Könüllülər döyüşdülər, Dərələyəz təmizləndi,
Yenə elin obaları sevilərək əzizləndi.

Dəmirçidən Dəvəliyə üz tutdular qaça-qaça,
Aman verməz Kəlbalı xan namərd əlin-qolun aça.

Doluxanov məğlub oldu, çağırdılar Bekprimovu**,
Dedilər ki, başlamalı müsəlmanın qətli, ovu.

Bir tərəfdən sülh istəyir, Naxçıvana elçi gedir,
Bir tərəfdən müsəlmanı al qanına qəltan edir.

Bir gecədə Avşar kənddə doğratdırır yüz nəfəri,
Düşünür ki çox uğurla başa çatdı bu səfəri.

Avşardakı vəhşiliklər bəy oğluna gedib çatır,
Öz "Mübariz dəstə"silə namərdləri yıxır, çatır.

Papağına, silahına namus deyib Bəy oğlumuz,
Arvadına, Xan atına namus deyib Bəy oğlumuz.

---

* – Doluxanov daşnak qoşunlarının polkovniki idi.
** – Bekprimov daşnak qoşunlarının generalı idi.





Vətəninə, torpağına namus deyib Bəy oğlumuz,
İsti ana qucağına namus deyib Bəy oğlumuz.

Qoymayıb ki, namusunu gədə-güdə tapdalasın,
İstəməyib andraniklər ocağında od qalasın.

Döyüşübdü igidliklə Vətən üçün, torpaq üçün,
Döyüşübdü vaxtsız solub, vaxtsız düşən yarpaq üçün.

Biz Vedili balasıylq, önümüzdə duran yoxdu,
Bizim kimi nə döyüşən, nə yaradan, quran yoxdu.

Abbasqulu susdurmuşdu həddi aşan rus gədəsin,
Xeyri yoxdu bundan sonra çağırsa da lap dədəsin.

Ermənilər bunu görüb ingilisə üz tutdular,
Naxçıvanı, Qəmərlini biri-birinə qatdılar.

Qanzak, Şərur, Dəhənə də, Ordubad da çalxalandı,
"Hakəzə yerlər" adıyla Vedibasar da calandı*.

Başbilənlər oturdular, qərar qəbul eylədilər:
– Bizlər tabe olmalıyıq Bakımıza, – söylədilər.

Ermənинin Araratı lazım deyil müsəlmana,
Onlar zərbə endirəndi arxadan günahsız cana.

Hər tərəfi bürüsə də rus, ingilis və erməni,
"Fəth edilməz" çağırdılar inanın ki, təkcə məni.

Mərd balası – bəy oğluyam, sözüm iti qılıncımdan,
Yaranmışam od-alovdan, ildırımdan, qığılcımdan.

---

* – İngilis qoşunlarının Ali komissarı V.Haskelin 1919-cu ildə Azərbaycan Cümhuriyyətinə təqdim etdiyi layihədə Vedibasar mahalı Naxçıvan və Şərur-Dərələyəzlə birgə neytral zona hesab olunurdu.

Ərənlərim özüm kimi Vedibasar həvəslidi,
Hər birisi saf ürəkli, xoş niyyətli, nəfəslidi.

Biz doymarıq Vedimizin gülzarından, gülündən də,
Ayrı düşmək istəmərik ocağından, külündən də.

Kimin yolu hansı səmtə – özü bilər, öz işidi,
Hər kəs özü öz ağlıyla sanacaq ki, bir kişidi.

Kişi sözü yasaqlanmır, həqiqətsə halal olsun,
Gündüzünə günəş gəlsin, gecələri hilal olsun.

## QAÇQIN QIZIN HEKAYƏTİ

Göydən yerə dəhşət yağdı, dava, aclıq, göz yaşları,
Bu tifilin söylədiyi əridər lap sal daşları:

– Yetim qızam, anam yoxdu, doğradılar tikə-tikə,
Atamı oda atdılar, sürüyərək çəkə-çəkə.

Gözlərimin önündədi qardaşımın əl-ayağı,
Bacımı da soyundurdu o nanəcib cəllad yağı.

Bir tikə çörəyim yoxdu, evimiz çoxdan talanıb,
Məni tənha qoyubdular, sinəm üstə od qalanıb.

Gümanım bir bəy oğluna, bir də ulu Yaradana,
Bəlkə onda son qoyalar bu dəhşətə, yersiz qana.

Bir tifilin günahı nə, suçu müsəlman olmaqmı?
Vətən üçün, torpaq üçün layiqli insan olmaqmı?

Doğranıram aram-aram,
Sızıldayır qanlı yaram,
O qədər "ah"lar görmüşəm
Bilmirəm ki, yoxam, varam.





Boğulmuşam beşikdəkən,
Suçlanmışam eşikdəkən,
Adıma xain dedilər
Mən Vətənə keşikdəkən.

Yaman yuxa ürəyəm,
Bilməm kimə gərəyəm,
Qolsuz, qanadsız quşam
Çiçəkdən də kövrəyəm.

* * *

Eh, bayatı vaxtı deyil, yadıma çöllərim düşdü,
Yemlik, salmanca yığdığım bəxtəvər günlərim düşdü.

Çobanyastığı dərdlərə dava eyləyərdi yaman,
Qantəpərlə, acı biyan xəstəliyə verməz aman.

Duza qoyub baldırğanı qovurmayla yeyərdik hey,
– Necə ləzzətli tamı var; yeyə-yeyə deyərdik hey.

Harda qaldı o günlərim, yayım, yaylağım dağılıb,
Ac qalıbdı quzularım, sağınım çöldə sağılıb.

Ətri evlərə yayılan yarpız, nanəmə qurbanam,
Məni qoynunda böyüdən Fatma nənəmə qurbanam.

El-obadan ayrı düşüb göyüm-göyüm göynəyərdi,
Nə vaxt baxsan dodaqaltı həzin-həzin söyləyərdi:

– Sinmə yovşan kölgəsinə,
Qoy götürsün yellər səni,
Keçmə namərd körpüsündən
Qoy aparsın sellər səni.

## DÜŞMƏNİN YENİ HÜCUMU

Qan töküldü Qaraxaça, Çanaxçıya, Qədirliyə,
İstədilər başlasınlar bu yerlərdə sədirliyə.

Gördülər ki, alınmadı, oturdular yerlərində,
Göyün üzü bozarmışdı, rəngi solmuş yerlərin də.

İngilisin siyasəti ikibaşlı aparıldı,
Üzə güldü, arxadansa baş bədəndən qoparıldı.

On doqquzun baharıydı, bəy oğluna xəbər gəldi,
Bu xəbər də sinəsini güllə kimi qəfil dəldi.

– Böyük Vedi təhlükədə, düşmən hücum edəcəkdir,
Yenə qanlar töküləcək, canlar qurban gedəcəkdir.

Abbasqulu çox düşündü, tələ qurdu gədələrə,
Dedi fikir verməyin siz, hay-küylərə, hədələrə.

Bizim olacaq qələbə, Böyük Vedi canımızdı,
Qoymarıq zərrəsi gedə, damardakı qanımızdı.

...Hücum eylədi daşnaklar, yetəndə dərin dərəyə,
Bəy oğlunun planıyla düşdülər çətin tələyə.

Başlarına endirildi daş-kəsəkli ağır karan,
Tapılmadı yaraların nə sağaldan, nə də saran.

Bu davada ölən öldü, qalan isə əsir düşdü,
Müsəlmanlar sevinirdi , bu bəla da belə keçdi.





Azad idi Böyük Vedi, Qaraxaça hücum etdi,
Ermənilər qorxub qaçdı, könüllər murada yetdi.

Böyük Vedi bir ox olub batırdı namərd gözünə,
Tab gətirə bilmirdilər bəy oğlunun mərd sözünə.

İngilislər erməniylə əlbir olub iş qurdular,
Sandılar ki, bəy oğlunu yenə arxadan vurdular.

İngilisin əmri ilə Şərur, Vedi və Ordubad,
"Ermənistan" tərəfindən ediləcək daha abad.

Xəbər gəldi bəy oğluna, birdəfəlik rədd eylədi,
– Çıxın cəhənnəm olun siz, – ingilislərə söylədi.

– Vedibasar bizimkidi, nə erməni, nə ingilis,
Bəsdir dondan-dona girdin, ay eybəcər mənfur iblis.

Səndən mənə dost olarmı? Sən kim, mən kim, yolunla get,
Bacardığın nəyin varsa, nə bilirsən, onu da et.

Gəl görüşək, meydan bizim, göstərim bir hünərimi,
Günahsızın qanın töküb artırdın dərdi-sərimi.

Ancaq bil ki, vedililər torpaq-qeyrət satan deyil,
Gəda! Sənə yer göstərib öz içinə qatan deyil.

Abbasqulu deyərdi: – Çoxdu qoçaq oğullar,
Hər birinin öz yolu, öz sücaət xətti var.

***

Sizə kimdən söyləyim – qızılanlı Bəylərdən,
Baxışı, duruşuyla seçilməzdi bəylərdən.

Ağzından nur yağardı, kəlmələrin yerinə,
Qəhrəmanlıq göstərib şərəf verib elinə.

Baxanda çöhrəsinə qaynayırdı canda qan,
At çapar, ov edərdi, üzə gülən zaman dan.

Daşnaklarla bu igid döyüşüb neçə illər,
Haqqında xoş söz deyib, mahnı qoşubdu dillər.

Dəfələrlə izləyib erməni gədələri,
Qorxutmayıb Bəyləri daşnağın hədələri.

Qara Paşa, Heydərlə dostluq etmiş bu insan,
İstəməmiş tökülsün bir damla da nahaq qan.

Çox götür-qoy eyləyib tutacağı işini,
Söyləyərmiş şan-şöhrət aldatmaz hər kişini.

Ermənilər etsə də işgəncələr, zülümlər,
Yuxarıdan gəlirdi millətimə ölümlər.

Rusun göstərdiyi yol həyan olub daşnağa,
Müsəlmanlar qırılıb, canlar bürünüb ağa.

Bu yolda qurban getdi Nəsrulla, Usta Əhməd,
Onları yad edənlər söyləyib min-min rəhmət.





# İNGİLİS XƏYANƏTİ

Ermənilər əl çəkmirdi Vedibasar torpağından,
Nə suyundan, çörəyindən, nə də çiçəkli dağından.

Böyük dəstə düzəldərək hazırlaşdı hücumlara,
Pulemyotla top bölüyü dedi bəlkə edər çara.

İngilislər bəy oğlunu çağırırlar danışığa,
İstəyirlər razı olsun erməniylə barışığa.

Bic tərpəndi ingilislər, tora saldılar kələklə,
Qarşı-qarşıya durmuşdu zalım iblis bir mələklə.

Bəy oğlunu aparırlar İrəvana təminatla,
Geri dönür Xəlil, Həbib quş qanadlı mərcan atla.

Vedililər eşidir ki, həbsdədir Abbasqulu,
Axtarırlar bəy oğlunun xilasına çıxış yolu.

Düşmənlərin arasında Bəy götür-qoy eyləyir,
Sonra isə Xatisova "biz razılaşdıq" söyləyir.

Bədgümandır, narahatdır Hüseyn bəy, Məhəmməd xan,
Bəy oğlunun yollarını gözləyirdi gör neçə can.

Geri döndü, xalq sevindi, hazırlaşdı döyüşlərə,
Namərd ilə üzbəüzə, top-tüfəngli görüşlərə.

Qız-gəlinlər köçürüldü cənub səmtə dayanmadan,
İşlər düşdü qaydasına, namərd Xaçik oyanmadan.

# BÖYÜK VEDİ QORUNUR

On doqquzun iyuludu, namərd yenə qıcıqlandı,
Bu abırsız alçaqlara Abbasqulu acıqlandı.

İngilis zabiti gəlir, hədə-qorxu edir Bəyə,
– Vedibasar torpağına qoymaram namərdlər dəyə,–

Deyib Bəy onları qovur, sonra gəlib qərargaha,
Hazırlaşır döyüşlərə, durmaq vaxtı deyil daha.

Kərbəlayı İsmayılı, Sultan xanı çağırtdırır,
Dəstələri hazırladıb Çimən səmtə dağıtdırır.

Cahanbəxş , Həbib Mirzə dostlarına həyan olur,
Yayın qızmar günəşindən rəng qaralır, gözlər solur.

Gavurqala, Göyqumudan keçir Bəyin dəstələri,
Dillərində Vedimizin qəhrəmanlıq bəstələri:

– Biz qalib gələcəyik,
Sevinib güləcəyik.
Ömür boyu Vedimizin
Qədrini biləcəyik,
Biz qalib gələcəyik.

Sevib yurdu, vətəni,
Qovub yersiz gədəni,
Atıb qorxu-hədəni.
Ömürlük güləcəyik,
Biz qalib gələcəyik.

Bu torpağın oğluyuq,
Ona candan borcluyuq,
Bağrımız dərddən oyuq.





Ölümə gedəcəyik,
Biz qalib gələcəyik.

Namərd yağı - erməni,
Qorxuda bilməz məni,
Sevib çölü-çəməni.
Gülünü dərəcəyik,
Biz qalib gələcəyik.

Çıx yurdumdan, a qorxaq,
Canına qənimdir Haqq,
Yanır əlimdə çıraq.
Dağ-daşı dələcəyik,
Biz qalib gələcəyik.

* * *

Səhər-səhər namərd yağı Ağdağdan yola düzəldi,
"Zöhrab daşı"nı da keçib "Ocaq bağları"na gəldi.

Danışıqlar istədilər bəy oğlundan dönə-dönə,
Cavabında Bəy dedi ki, sözüm yoxdu qalın gönə.

Veriləsi torpağım yox, qurbanım yox, bunu bilin,
Vedibasar kəlməsini fikrinizdən tamam silin.

Can almasaq can verməriк, qan almasaq qan vermərik,
Torpaq getsə, döşə döyüb "vediliyik" biz deмərik.

Qəmərlidən, Dəvəlidən zirehli qatar gəlirdi,
Fit verdikcə qorxunc səsi qulaqları hey dəlirdi.

Cəbhə boyu hücum edir daşnakların quldurları,
Düşünmədən nə qeyrəti, nə isməti, nə də arı.

Tez-tez "ura" söyləyərək keçsələr də hücumlara,
Verməsə də bu döyüşlər bir fasilə, yaxud ara,

Edilsə də vəhşiliklər, tutulsa da divan bizə,
Qələbəni Tanrı verdi yenə Böyük Vedimizə.

Bu qələbə daşnakları yamanca yandırıb yaxdı,
Gördülər ki, al qanları özcə canlarından axdı.

Bu dəfə də Dro gəldi ermənini xilas etsin,
Sonra böyük qələbəylə torpağına dönüb getsin.

Yayın ortaları idi, namərd keçdi hücumlara,
Toplar, tüfənglər vermirdi bir anlıq da olsun ara.

Bakı bilib hücumları rəsmi məktub da göndərdi,
İstəmirdi yenə alsın dünyamızı ölüm dərdi.

Xatisova xəbər çatdı, rədd cavabı verdi həmən,
Dedi, – Vedi alınacaq tökülsə də ərəb, yəmən.

Məhəmməd xan təhlükədən pəjmürdədi, narahatdı,
Bilirdi ki, Vedibasar düşmən üçün çox rahatdı.

Bizlər azıq, onlarsa çox, silahlanıb hər birisi,
Qırılsa da döyüşlərdə, yenə çoxdu it sürüsü.

Ancaq bircə güman yeri Abbasqulu bəyə idi,
Bir də onun göstərdiyi bacarığa, səyə idi.

Bilirdi ki, Bəy çox sevir öz yurdunu, vətənini,
Yaylağını, aranını, kövşənini, çəmənini.





Bilirdi ki, o, yurdunu candan artıq əzizləyir,
Neçə ildir qan tökərək yağılardan təmizləyir.

Bilirdi ki, bu yurd onun ulu babasından qalıb,
Bu diqqəti, tərbiyəni o da atasından alıb.

Sevib dağı, aranı da, hər qarışı doğma bilib,
Yıxılanın, ağlayanın gözlərindən nəmi silib.

## DÜŞMƏNİN HÜCUMU SƏNGİMİR

Abbasqulu öyrəndi ki, ermənilər and içiblər,
Dronun məsləhəti ilə Böyük Vedini seçiblər.

Yerlə-yeksan edəcəklər, qalmayacaq bir iz belə,
Müsəlmanın al qanını tökəcəklər coşan selə.

Qatacaqlar Xan Araza, axıb getsin Naxçıvana,
Sonra isə namərd yağı zülüm etsin Naxçıvana.

Çoxlarından seçilirdi bəy oğlu öz ağlı ilə,
İnanmazdı fitnə-felə, inanmazdı yağlı dilə.

Bizimkilər saldırmışdı qənimət tək xeyli silah,
Demişdilər lazım olar bu yaraqlar bizə sabah.

Qırılacaq hər birisi indi həmin silahlarla,
Cəhənnəmə gedəcəklər tutduqları günahlarla.

Hücum etdi o mənfurlar, güclü hərbi texnikayla,
Bu dava da qurtaracaq, yenə ölüm-itim, vayla.

...Əlbəyaxa döyüş gedir, üz-üzədi iki canlı,
Hər birisi can qorxulu, hər birisi həyəcanlı.

Qanlı idi əldə şana, balta, bıçaq, iti qılınc,
Qəccabların baltası tək doğrayırdı əti qılınc.

Dözməyirdi qan-qadaya ildırımlar şaraq-şaraq,
Elə bil ki, savaşırdı bir-biriylə çarpışaraq.

Sanki göylər müsəlmanın dar gününə göynəyirdi,
Şimşəklərlə nuru salıb yağını gör söyləyirdi.

İki insan döyüşürdü, qanı göydən süzülürdü,
Qan gölünün lehməsində cəsəd cüt-cüt düzülürdü.

Yerlə-göyün üsyanından zərbə alan təbiətdi,
Düşməninə qalib gəlmək bir amaldı, bir niyyətdi.

Acı, şirin tamsınsan da, dünya yenə bir dad verir,
Xeyir şəri üstələyir, Allah ona qanad verir.

Bu dəfə də qələbəni vedililər qazandılar,
Həm Tanrının köməyinə, həm zəfərə inandılar.

Bu döyüşdə göstərmişdi xüsusilə yenilməz səy,
Hüseynalı oğlu Oruc, Səfəralı, Fərəməz bəy.

Şadlinski Heydər bəyin dəstəsindən qızılanlar,
Qaçaq Rəsul, Fərzəliyev, Əmir, Abuzər – qardaşlar.

Yetim Əli, Şəmsəddin bəy, bir də Xəlil, Cahanbəxs,
İsmayılın oğlanları Vedimizə oldular nəxş.





De hansını deyim sizə, onlar çoxdu, mən isə tək,
Vedililər əlbir olub, bu birliklə gülüb ürək.

Bu dördüncü hücum idi namərd yağı eyləyirdi,
Xatirələr məktubunda Mirzə Bağır söyləyirdi:

– Baş tutmadı ingilisin bu hiyləgər kələyi də,
Ara qatıb, ev yıxmaqla aşırardı fələyi də.

Çox sustaldı, gözləmirdi müsəlmanın qələbəsin,
Az qalırdı öz əliylə parçalasın "hay" gədəsin.

On doqquz gün dava gedib, Böyük Vedi qan ağlayıb,
Ölən ölüb, qalan qanlı, neçə-neçə can ağlayıb.

* * *

Bəy oğlunun igidləri aləmə salmışdı səda,
Dinəmməzdi qarşısında o Xatisov, mənfur gəda.

Görürdülər millətini, torpağını sevir necə,
Ayrılmayır Vedisindən nə gündüzlər, nə də gecə.

Torpaq oğul yetişdirdi, barından da bəhrələndi,
Dar günündə muradına Abbasquluyla bələndi.

Türk paşası Atatürkə xəbər çatır, Vedibasar,
Bir oğluyla gavurları üstələyər-kəsər, basar.

Həm çevikdi, həm də cəsur, at belində quşdu belə,
Öz canından artıq yanır obasına, yurda, elə.

Paşa onu dəvət etdi Türkiyəyə iş başına,
Bəy oğlusa "yox" söylədi, sadiq oldu yurd daşına.

Dəyişmərəm özgəsinin lap dağına-dərəsinə,
Ya çiçəkli çəməninə, ya bəndinə-bərəsinə.

Mən el üçün yaşamışam, el üçün də öləcəyəm,
Bəd günümü pünhan tutub, şad günümü böləcəyəm.

* * *

Qartaldı, şahindi "Mübariz dəstə",
Azadlıq nəğməsi deyər ahəstə.
Bəy oğlu sözünü deyər ərlərə,
Birgə qatlanarlar dərdi-sərlərə.

Qurtarıbdı əkin, biçin,
Saralıbdı bağça, bağlar.
Bilmirəm ki, nədən, neyçün,
Bar vermədi bu il tağlar.

Qan içdilər su yerinə,
Gül açmadı çiçəkləri,
Son nəğməni qu yerinə
Dedi insan ürəkləri.

Yazım xəzana döndü,
Yanan çırağım söndü,
Nəğməm dodaqda qaldı
Balım acıya döndü.





***

Gündüz Günəşiydin, gecələr Aydın,
Elinə, obana müqəddəs paydın,
Vedinin adını ellərə yaydın,
Ay mənim nər oğlu nər Abbasqulum.

İşin yox böhtanla, yalanla, şərlə,
Özünə ad qoydun qeyrət, hünərlə,
Üz-üzə durarsan özün tək nərlə,
Ay mənim nər oğlu nər Abbasqulum.

Adına nəğmələr, dastan qoşulub,
Dəstənə igidlər dostdan qoşulub,
Zülmətli gününə dost dan qoşulub,
Ay mənim nər oğlu nər Abbasqulum.

Bəy oğlusan, nəslin gözəl,
Kök-nəcabət, əslin gözəl,
Səndən ibrət alıbdılar,
Vedili hər kəsin gözəl!

## BÖYÜK VEDİ SINAQDADIR

Payız gəldi, ellər yenə dönür quştək yuvasına,
Nəğmə deyir şirin dillər doğulduğu obasına.

Kimi gülür, sevinirdi, kimi hazırlaşır toya,
Kimi isə tellərinə, əllərinə yaxır boya.

Nə qədər də sevinsələr, yaralıydı diləkləri,
Qan-qadadan bezmişdilər, sevinmirdi ürəkləri.

Yenə çapar xəbər verdi: – Böyük Vedi təhlükədə,
Öz gözümlə gördüm, Allah, qara geymiş neçə gədə.

Dolanırdı düşərgəni, hamısı da qara papaq,
Düşündüm ki, bəlkə qəfil atəş açıb, güllə ataq?

Gəldim deyəm siz də bilin, dərdimizi birgə bölək,
Bəy oğluna deməliyik, əsas onun fikrin biləк.

Atəş desə, biz hazırıq öldürməyə gədələri,
Artıq zara gətiribdi davaları, hədələri.

Gəlibdilər ermənilər uzaq yoldan, Qarabağdan,
Deyirdilər Vedibasar leş görəcək uca dağdan.

Gəncə boyu daşnaklar da qoşulublar mənfurlara,
İrəvana doluşublar vurmaq üçün bizə yara.

* * *

Abbasqulu düşünmədən yığdı yenə dəstəsini,
Dillərində şüar etdi azadlığın nəğməsini.

Dəstə-dəstə gəlirdilər igidlər Bəy köməyinə,
Dirəyirdi hər birisi kürəyini kürəyinə.

Gəldi Şərurlu Fətulla, adı bağır çatladırdı,
Daşnakların ürəyini vəlvələylə partladırdı.

"Gavurqala" – cəbhə xətti tapşırıldı Şəmdin bəyə*,
"Biz Vediyə buraxmarıq daşnakları heç vaxt" – deyə.

* – Şəmdin Şəmsəddin bəy Mahmudbəyovun qısa adıdır.





Bəy and içdi, silahdaşlar ruhlandılar qələbəyə,
Yenə ümid, yenə həvəs qaldı döyüşdəki səyə.

Bəy gecəykən səngərləri qarış-qarış dolanırdı,
Bəd xəbərlər eşidirdi, könlü yaman bulanırdı.

* * *

Bu beşinci hücum idi, üç tərəfdən olacaqdı,
Qara geymiş ermənilər Vedimizə dolacaqdı.

Bəy düşünür, tüpürürdü əclafların işlərinə,
Yenə yığıb cəsədləri verməliyik dişlərinə.

Ağdamlardan gəlməliydi Vanın polku gecə ikən,
Yanlarında soyğunçular – ev-eşiyi qəfil sökən.

Sasun gərək  Çimən kəndi keçirəydi ələ şərqdən,
Qalanları dolaydılar Vedimizə cənub-qərbdən.

Soyğunçular alışmışdı var-dövləti talamağa,
Ömrü boyu müsəlmanın bulaşığın yalamağa.

Çəkilmişdi əhalinin əl-ayağı neçə vaxtdı,
Ermənilər düşündü ki, hamı qaçıb gecə vaxtı.

Abbasqulu tədbirliydi, bilirdi ki, neyləyəcək,
Bilirdi ki, məqamında "Atəş!" sözün söyləyəcək.

Atəş! Dedi Abbasqulu, inanmadı ermənilər,
Bəy oğlunun tələsindən çıxammadı ermənilər.

"Göyqumlu"dan atlı dəstə yovşanlıyla dada gəldi,
Qanlı döyüş başlamışdı, neçə bağrı silah dəldi.

Yenə çoxlu itki verib ermənilər döndü geri,
Qan gölünə döndərdilər bu günahsız yurdu-yeri.

Yenə silah, hərbi sursat qoyub geri qaçmışdılar,
Gəldikləri yollar ilə getməyə yol tapmışdılar.

Ölən öldü, qalan qaçdı, qələbəsə oldu bizim,
Fəxr edirik adınızla-sanınızla hər an sizin.

Bəy oğlunun igidləri, qorudunuz Vedimizi,
Qorudunuz əclaflardan – daşnaklardan yenə bizi.

Bu davada həlak oldu Mahmudbəyov Şəmsəddin bəy,
Eşidəndə bu xəbəri bihal oldu bəy oğlu Bəy.

* * *

İki illik bir davada ölən-itən çox olmuşdu,
Anaların, bacıların gözlərinə qəm dolmuşdu.

Özlərinə eylədilər bizlə rahat dolanmayıb,
Danışıqlar istədilər Vedimizi alammayıb.

Uzansa da bu söz-söhbət, danışıqlar tutmadı baş,
Qurumadı illər boyu yanaqlara süzülən yaş.





# BÖYÜK VEDİ MÜHASİRƏDƏ

Mikoyanlar, Yefromovlar nə qədər də qursa tələ,
Naxçıvanı, Ordubadı sala bilməyib əngələ.

Vediyə üz tutur yenə, deyir Vedi alınacaq,
Erməninin qərargahı o obada salınacaq.

* * *

Dörd tərəfi qan ağladı,
Qara günə can ağladı,
Gecəykən hücum etdilər
Açılmamış dan ağladı.

Ermənilər quzğun kimi,
Hey ulayıb girdi qana.
Yaralanıb bir quş kimi,
Sındı qolum düşdü yana,
Harayıma yetiş, ana.

Dağıldı ellər, obalar,
Soyudu isti sobalar,
Külə döndü yurd, yuvalar.
Qəsd olundu neçə cana,
Harayıma yetiş, ana.

Hey ağladım bu vayıma,
Baxmadan hay-harayıma,
Od vurdular sarayıma.
Səsim çatmadı cahana,
Harayıma yetiş, ana.

Kəsilmədi atəş bir an,
Qurban getdi günahsız can,
Oldu yer də, göy də al qan.
Necə deyim bunu sana,
Harayıma yetiş, ana.

Vedililər səpələndi,
Dəniz kimi ləpələndi,
Başımıza od ələndi.
Ağlar qaldı neçə sona,
Harayıma yetiş, ana.

Neçə ildir Abbasqulu bel bağlayıb doğma elə,
Daşnaklarla döyüşürdü, tab gətirib axan selə.

İndi işlər müşkülləşib, dörd tərəfi alıb yağı,
Qorumaqçün əhalini seçəmmirdi solu, sağı.

Nə Qədirli, nə Şahablı çıxmamışdı yaddan hələ,
Gözləmirdi kimsələrdən ona kömək, dayaq gələ.

Müşavirə çağırdı o, xalqı hazır olsun deyə,
Bir dəqiqə sükut etdi, şəhid olan Şəmdin bəyə

Təkcə Şəmdin gəlməmişdi, qoy qəbiri nurla dolsun,
Ona silah çəkən əclaf, öz canına ölüm olsun.

Düşünərək bütün günü Bəy gecəni yatmamışdı,
Çox suallar qarşısında dəqiq cavab tapmamışdı.

Ağır-ağır addımlarla o, otağa gəzdirib göz,
Təmkin ilə, aram-aram dedi neçə kədərli söz:

– İnanın ki, çox sevirəm bu torpağı, od-ocağı,
Hər yerdən əzizdir mənə Vedinin küncü-bucağı.

Anam layla çalıb mənə bu torpağın beşiyində,
Mən də ömrüm boyu durdum öz xalqımın keşiyində.





Namusunu, ismətini qorudum qızın, gəlinin,
Bəhrəsini yedim inan zəhməti sevən əlimin.

Bir dərdim var, deyim, dostlar, bunu siz də biləsiniz,
Bir arzuyla yaşayıram; ömrü boyu güləsiniz.

Döyüşlərdən qalmayıbdı nə bir silah, nə də sursat,
Bunun üçün məsləhətdi, öncə döyüş, sonra fürsət.

Əgər görsək dar ayaqdı, Vedini tərk etməliyik,
Özümüzə müvəqqəti sığınacaq seçməliyik...

Qız-gəlinin namusunu, qocaları, uşaqları,
Qorumaqçün toplamışam igidləri, qoçaqları.

Papağı dik qoymaq üçün namusumuz qorunmalı,
Vətən bizim ürəyimiz, vətənimiz qorunmalı.

Bir gümanı varıydısa, o da Şərur səmtə idi,
– Onlar bizə doğmadılar, əzizdilər bilin, – dedi.

Orda sizə çətin olsa, qoymaram ömrünüz itə,
Sizin üçün çalışıbdı, vuruşubdu bu Komitə.

Bir yol tapıb keçirərik sizi İran torpağına,
Yenə sabahı açarsız salam verib Nuh dağına.

Döyüşərik son silahla, bir qurşun da qalsa əgər,
Bu yurdlara, yuvalara qoymam töksün onlar zəhər.

Ancaq daşnak çoxalıbdı, istəmirəm qırılasız,
İstəmirəm əsir düşüb, yaşamaqdan yorulasız.

Söz verirəm, gedər olsaz, sizi özüm qaytaracam,
Bu bəladan, işgəncədən, zülümlərdən qurtaracam.

Vedililər bəy oğlunu doğma bilib inanırdı,
Bilirdilər, onlar üçün ömrü şam kimi yanırdı.

İyirminin iyul ayı qoymadılar dan sökülə,
İstədilər üstümüzə qəza-qədər, qan tökülə.

Zəngibasar torpağına hücum etdi o yağılar,
Ah-naləden qulaq batır, üsyan edirdi ağılar.

Perik düşdü dinc əhali, ürəkləri qan ağladı,
Daşnak necə zülm etdisə, parçalandı can, ağladı.

Güclü hərbi texnikayla üz tutdular Çiməndkəndə,
"Kərsən" ilə "Göyqumlar"da qurban getdi hiylə-fəndə.

Xəbər verdi Abbasqulu, çapar, durma bircə anlıq,
Dinc əhali Şərur səmtə keçsin düşmədən qaranlıq.

Ermənin top-tüfəngi qulaqları batırırdı,
Bir atəşlə neçəsini ağzı üstə yatırırdı.

Bu döyüşdə Gümüş Məmməd, Zeynalabdin qurban getdi,
Hacı Təhmasib, Məhərrəm* öz ömrünü fəda etdi.

Vedi üçün öz canından keçdi neçə-neçə oğul,
Şərəfli ömür yolunu seçdi neçə-neçə oğul .

Hava artıq göyərirdi, qaralacaq indi dağlar,
Qaralacaq ürəklər tək gülü solmuş bağça-bağlar.

---

* – Məşədi Məhəmməd oğlu Məhərrəm nəzərdə tutulur.





# MÜHACİR HƏYATI

## KÖÇ – CANLI AXIN

On səkkizdə, qırx səkkizdə – neçə kərə qovulmuşuq,
Əlli iki* yaxıb bizi, külə dönüb sovulmuşuq.

Canlı axın-koçürülmələr bağrımızı paraladı,
Ömrü boyu könül gülməz, namərd elə yaraladı.

İllər ilə qurduğumuz,
Ocaq sönüb, külü qalıb.
İgidlərim aparılıb,
Gözü yaşlı gülü qalıb.

Əzilmlşik zaman-zaman,
Doğranmışıq dilim-dilim.
Namərd verməyibdi aman,
Qara geyib ayım, ilim.

Doğulduğum bu torpağın,
Çiçəyinə qurbanam mən.
Cənnət olsa solum, sağım,
Ürəyinə qurbanam mən.

Qatığına, qaymağına,
Ayranına qurbanam mən.
Ocaq çatdıq, deyib-güldük,
Bayramına qurbanam mən.

Elatımın yurd saldığı,
Yaylağına qurbanam mən.
Günlərimin xoş keçdiyi,
Oylağına qurbanam mən.

* – 1918 və 1948-52-ci illərdə Qərbi Azərbaycan türklərinin Ata yurdlarından deportasiyasına işarədir.





Qəriblikdə can ağlayar,
Ağlar cana qurbanam mən.
Gözlərim hey qan ağlayar,
Bu al qana qurbanam mən.

Qərib olan bilinəcək,
Üzündən, ya sözlərindən.
Gözləmə ki, silinəcək,
Bu həsrət, qəm gözlərindən.

* * *

Bir el köçür yuvasından, sızıldayır bayatısı,
İnildəyir şur-muğamı, qan ağlayır heyratısı.

Duman alır göy üzünü, qəribsəyir Ağrı dağı,
Əziz, doğma övladlardan ayırırdı onu yağı.

Bir el köçür yuvasından, odun, ocaq, köz ağlayır,
Qələm dözmür ayrılığa, yazdıqları söz ağlayır.

Ana baladan ayrılır, bədəndən ruh-can ayrılır,
Neçə illik sevgililər bağrında al qan ayrılır.

Bir el köçür yuvasından, fərq etmədən solu, sağı,
Gah yeriyir, gah da qaçır, ürəyində nifrin, ağı.

Düşmənlərin əllərində silah, bizsə əliyalın,
El-obalar qurtulmadı girindən bu qovğa-qalın.

Bir el köçür yuvasından, Vedibasar qəribsəyir,
Ayrılığa göy ağlayır, göz yaşları yerə dəyir.

Dözmək olmaz yurd-yuvasız, dözmək olmaz ayrılığa,
Gör bir nələr etdi bizə, o erməni daşnak dığa.

Gavurqala yağıdadı, güman qalır Quzeydağa,
Ordan isə Sədərəyə keçməliyik deyən, qağa.

Bir "ah" çəkir, bu ahından göydə Günəş alovlanır,
Gözlərində şimşək çaxır, ildırımlar sönür, yanır.

* * *

Ellər çıxdı təhlükədən, üz tutdular Sədərəyə,
Bilmirdilər ermənilər toy tutublar Sədərəyə.

Boşaldılıb ev-eşiklər, yandırılıb hər tərəflər,
Ordan çıxıb üz tutublar Şərur səmtə bişərəflər.

Vedililər bilmədilər hansı səmtə yol alalar,
Harda bircə saat olsun, rahatlanıb yer salalar.

Körpələrlə qocalara bu yolçuluq çətin idi,
Cavanlar bu işdə bir az yaşlılardan mətin idi.

Abbasqulu əmr verdi: – Şahtaxtıya sarı keçin,
Ordan isə İran səmti vaxtı itirmədən seçin.

Yığışmışdı körpü üstə Zəngibasar qaçqınları,
Dərələyəz, Şərur, bir də Vedibasar qaçqınları.

Xəbər gəlir bəy oğluna ermənilər yaxınlaşır,
Bunu duyan qaçqın dəstə ağzındakı sözü çaşır.





Təcili çapar göndərir İran səmtə Abbasqulu,
Bəy oğlunun gəlişiylə açırlar körpüdən yolu.

Qaçqınlar körpünü keçir gözlərində acı yaşlar,
Sinələrə sıxılıbdı ayaq alta baxan başlar.

* * *

Bir soydaşım dördgöz olub vurnuxurdu sağa-sola,
Tez-tələsik baş vururdu yol kənarı ilğın kola.

Gözləyirdi bu dəyqələr doğulacaq övladını,
Düşünürdü o zarıyan, sancıçəkən arvadını.

Yalvarırdı Yaradana – qoyma bizi belə darda,
Hamı keçir İran səmtə, gəlir artıq daşnaklar da.

Qulağından getmirdi heç yoldaşının hıqqıltısı,
Səs-küylərə qarışmışdı arabanın cırıltısı.

Dil-dodağı qurumuşdu, arabaya sarı getdi,
Tanışını görcək, o da qonşusuna haya yetdi.

Hüseynalı kişi dedi, yoldaşımın ağrısı var,
Ona kömək etmək gərək, dünya artıq gözündə dar.

Gələnlərsə tələsirdi Araz çayı keçmək üçün,
Arabada olan qadın, dedi, nədən, görən neyçün,

Tək qalıbdı gəlin belə, cəld yeridi kol dibinə,
Gördü gəlin tərləyibdi, əl ataraq tez cibinə.

Çıxarıb güllü dəsmalı, dedi, qorxma, yanındayam,
Yavaş-yavaş, güc ver, bacım, həyəcanlı anındayam.

Sanma təksən, tənhacasan, sənsiz getmək yoxdur, inan,
Gözləyəcəm yanındaca, səhər olsa, sökülsə dan.

Cavan gəlin çətinliklə öz yükünü yerə qoydu,
Baxmayaraq pis gününə, qismətindən könlü doydu.

Çarığının qatmasıyla göbəyini tez bağladı,
Xalqa olan bu zülümə ürəyində qan ağladı.

Xan Arazın suyundaca çalxaladı o, uşağı,
Ehmallıca üç-dörd dəfə salladı başıaşağı.

Kimi ağlar, kimi gülür, kimi isə bayılmışdı,
Ancaq yenə bu xoş xəbər qaçqınlara yayılmışdı.

Qarayanız qız uçağı çadırları gəzə-gəzə,
Kimi görsə başlayardı sevincərək tez bu sözə:

– Sevinirəm, çox şadam ki, əmim oğlu doğulubdu,
Yuyulsa da Xan Arazda sanmayın ki, boğulubdu.

Sağ-salamat yanımızda, oynadırıq biz Nicatı,
Atam deyir, darıxmayın, tapacaqdır el nicatı.

Qoy eşitsin düşmənimiz, türkün oğlu ölməyəcək,
Nurunu Tanrıdan alır, Günəşi heç sönməyəcək.

Doğub-törəyəcık onlar, artacaq daim şöhrəti,
Çünki bütün millətlərə bəllidir türkün qeyrəti.





Araz doldu qanıyla,
Günahsız min canıyla,
Ellər didərgin düşdü
Qolu axdı yanıyla.

Araz doldu, ağladı,
Dərd köksünü dağladı,
O qədər qaçqın gördü
Könlü yara bağladı.

Araza bax, Aya bax,
İlə, günə, aya bax,
Məni görmək istəsən
Çevrilib o taya bax.

Yükü çoxdu körpünün,
Suyu toxdu körpünün,
O qədər dərd görüb ki
Bağrı oxdu körpünün.

Əziziyəm, Vedidən,
Qaçqın gəldi Vedidən,
Yanımda söz salmayın
Bizim Böyük Vedidən.

Doğmanı yad sanmaram,
Oda atsan, yanmaram,
Özgələrlə nə işim
Vediliyəm, danmaram.

Üz tutmuşdu min-min qaçqın Ərəblər kəndinə sarı,
Tükənmişdi taqətləri, mal-mülkləri, dövlət-varı.

Vedililər yerləşdilər Arazın lap qırağında,
Ərəblər kəndi yanında "Sarı su"yun torpağında.

Yanlarında Zəngibasar, Çivə, bir də şərurlular,
Özlərinə bu çöllükdə ölüm-zülüm yer qurdular.

Ancaq yenə köçrüldülər, ordan-ora, ordan-bura,
Aman olmurdu ki, onlar bir yurd tapıb rahat dura.

Bəy oğlunun adamları danışıqlar apardılar,
Xoyda, Çorsda yerləşməyə bir razılıq qopardılar.

Yavaş-yavaş yerləşdilər Bəydərvində, Çayparada,
Bundan başqa qalmamışdı çıxış yolu, bir çara da.

Keşikçiydi qaçqınlara Fərəməz bəy, İbrahim bəy,
İskəndərlə İsfəndiyar* göstərirdi yamanca səy.

Qoymurdular qaçqınlarla yerli xalqı toqquşmağa,
Həsrət ilə baxırdılar səhər, axşam Ağrı dağa.

Deyirdilər, Ağrı dağım, qərib düşsən bizim kimi,
Sinən üstdə sızıldayar ürəyinin kövrək simi.

Dözəmmirik ayrılığa, dözəmmirik bu hicrana,
Gör nə vaxtdır son qoyulmur hey günahsız axan qana.

Əzət nənə yanğı ilə, həzin-həzin oxuyardı,
Sözlər könül sızladırdı, səsi həsrət qoxuyardı:

* – İskəndər və İsfəndiyar Abbasqulu bəyin övladlarıdır.





Ulduz Vedi, Ay Vedi,
Yoxdur sənə tay, Vedi.
Ağrı dağın qarından,
Saxla bizə pay, Vedi.

Xoyda günlər ağır keçir, Mərənd səmtə üzü tutur,
Mərəndin valisi ilə bəy oğlunun sözü tutur.

Bir müddət Mərənddə qalıb, yerləşdirir qaçqınları,
İstəyir ki, tez qayıtsın doğma yurda, elə sarı.

Daşnaklardan alıb yurdu, od qalasın ocağına,
Toy eyləyib cavanlara, nəvə alsın qucağına.

Nəzarətsiz buraxmırdı Mərənddəki qaçqınları,
Göndərirdi yanlarına azuqələr, çəltik, darı.

Çəksələr də xeyli korluq, azdan-çoxdan yeyirdilər,
– Vedimizi istəyirik, – səhər-axşam deyirdilər.

Qocaların, qız-gəlinin hıçqırığı unudulmur,
Yüz kərə can-can deməklə vətən dərdi ovudulmur.

# VEDİMƏ QAYTARIN, QAYTARIN MƏNİ

Dur ayağa, ana, dur da,
Götür məni gedək yurda.
Həsrət könlümü ağladır,
Dözəmmirəm daha burda.

Hanı o bağçalar, hanı o bağlar,
Hanı o dərələr, hanı o dağlar,
Xəyala dönübdü bəxtəvər çağlar,
Vedimə qaytarın, qaytarın məni.

Qəriblik könlümü yamanca üzür,
Naşılar üzümü qıyqacı süzür,
Həmdərdlim kədərdən hekayət düzür:
– Vedimə qaytarın, qaytarın məni.

Qorqud qopuzunu orda çalıbdı,
Xoş günüm, gülzarım orda qalıbdı,
Yağılar Vedimi məndən alıbdı,
Vedimə qaytarın, qaytarın məni.

Hanı Abbasqulu, hanı ərənlər,
Hanı dərdimizə dərman verənlər,
"Az qalıb, bir azca dözün" deyənlər,
Vedimə qaytarın, qaytarın məni.

Qaytarın yolundan, izindən öpüm,
Saralmış çölündən, düzündən öpüm,
Məzar daşlarımın üzündən öpüm,
Vedimə qaytarın, qaytarın məni.





Yaman yorğun gəlir ayım, illərim,
Susub nəğmə deyən şirin dillərim,
Keçməsin dumanlı, çənli günlərim,
Vedimə qaytarın, qaytarın məni.

Gedim bulağının suyundan içim,
Dönüm tarlasına zəmisin biçim,
Hazırdı karvanım, hazırdı köçüm,
Vedimə qaytarın, qaytarın məni.

Uşaqlaşım, çiling-ağac oynayım,
Tay-tuşumla deyim-gülüm, qaynayım,
İstəmirəm hey yaramla oynayım,
Vedimə qaytarın, qaytarın məni.

Əcəl gəlib alsa əgər üstümü,
Görməsəniz göyə qalxan tüstümü,
Nə ad verin, nə də qoyun büstümü,
Vedimə qaytarın, qaytarın məni.

Ağsaqqal qocanın hay harayından,
Gördülər daş düşür şah sarayından.

Sordular dünyaya gəldiyi kəndi,
Dedi: – Dağılıbdı bərəsi, bəndi.

Çətin tanıyasız sizlər o kəndi,
İndi başı üstü dumandı, çəndi.

Çox da ki, qalıbdı quzğuna, qurda,
Əlbət qayıdaram o doğma yurda.

Bilirəm, Vedimi Ağrı saxlayır,
Yəqin ki, kəndim də mənsiz ağlayır.

Deyib hönkür-hönkür ağladı qoca,
Önündəki qarı sevincək, uca,
Bir səslə dilləndi: – Vedidən, dedin?
Sən də mənim kimi həsrət, qəm yedin?

Elimiz, obamız, kəndimiz birdi,
Bizlər də birləşib olarıq sirdaş.
O yerlər, o yurdlar ocaqdı, pirdi,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Göynəyir burnumun ucu o kəndçün,
O çölçün, çəmənçün, bərəyçün, bəndçün,
Neynirəm yağ-balı, ölləm o qəndçün,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Getmək istəyirəm Avşara sarı,
Boylanam kəndimə bir kərə barı,
Görən sovulubmu bəhrəsi, barı,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Hər tərəf susubdu, təbiət lalmış,
Əzətin bağının armudu kalmış,
Qərib quş lələyin yurdumda salmış,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Bir kərə gedəydim Şiddi yoluyla,
Tamlanaydım o ağ, qara balıyla,
İslanaydım yağan yağış, doluyla,
Mən də o kənddənəm, o kənddən, qardaş.





İçim yanır, gözü leysan aparır,
Ömürdən günləri illər qoparır,
Yenə varlığımı həsrət, qəm sarır,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Kaş olaydım qızılgülün butası,
Sovuşaydı elin-günün xətası,
Ay Xalsanın Şiddi adlı qudası,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Qəriblikdə yaman dolub ürəyim,
Dadını itirib duzum, çörəyim,
Könlümdə yurd salıb arzu diləyim,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Taharın armudu, Əsgərin tutu,
Hər tərəf sirr dolu, bir bağlı qutu,
İllərdi gözlərim, yanağım sudu,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Otarardı qoyun-quzu uşaqlar,
At çapardı Dəvəliyə qoçaqlar,
"Güllə-güllə" atıb qaçan qaçaqlar,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Alışa bilmirəm qürbətdə dəbə ,
Meylini salıbdı canım da həbə,
Könlüm xatirələr toxunmuş gəbə,
Mən də o kənddənəm, o kənddən, qardaş.

Harda bir ürəyi xallanmış görsən,
Çöhrəsi, gül üzü allanmış görsən,
Həsrəti gözündən sallanmış görsən,
Yaxınlaş söylə ki, gəl quraq bardaş,
Mən də o kənddənəm, sən də, a qardaş.
Mən də o kənddənəm, o kənddən, qardaş!





# ZƏFƏR YÜRÜŞÜ

* * *

İyirminin iyul ayı ermənilər can atırlar,
Orda-burda gizlənərək yenə aranı qatırlar.

İstəyirlər qoparalar Zəngəzuru, Naxçıvanı,
Yenə axsın, müsəlmanın yerlə yeksan olsun qanı.

Bu hiyləni başa düşən Nərimanov ayıq olur,
Onun səyi boşa çıxmır, Naxçıvana ordu dolur.

Bolşevikin qoşunları daşnakları əzib tökür,
Künc-bucaqda asdıqları şəkilləri cırıb tökür.

Bolşeviklər hökuməti yaradılır Naxçıvanda,
Zəngəzur da tutulurdu ön cərgədə bu planda.

Bolşeviklər tərkibində Mahmudbəyov*, başqaları,
Babayevlə Səlimov da əziyyəti bölür yarı.

Vəlibəyov qoşunuyla fövqəladə komissar tək,
İş başında çevik olur, qoymur solsun arzu, dilək.

Qərar verir: – Qayıtmalı yuvasına hər bir qaçqın,
Yoxsa heç vaxt görməyəcək qılıncını bu qoca qın.

Xalq sevindi bu təklifə, Vəlibəyov alqışlandı,
İnsanların ürəyində ümid, sevgi naxışlandı.

Gəlişi gözəl olsa da, əməl etmək çətin idi,
Bu xalq dözüb əziyyətə, hər tərəfli mətin idi.

* – Fərəməz bəy Mahmudbəyov nəzərdə tutulur.





Ancaq kimsə inanmırdı bəy oğlundan qeyrisinə,
Deyirdilər Abbasqulu döyə bilər sinəsinə.

Öz xalqını, torpağını, millətini sevən odu,
Onun sayəsində bizlər kül görərik, sönən odu.

Üç ildir ki bizimlədir, cəsarətli sərkərdədir,
Elimizə-günümüzə candan yanan bir dədədir.

Nümayəndə heyətilə Süleymanov Naxçıvandan,
Bəyin hüzuruna getdi, söylədi ki, səni candan,

Alqışlayıb fəxr edirik, xalq sevgisi qazanmısan,
Sən təbibsən, xoş mehmansan, yoxsa aqil ozanmısan?

Hərbi qüvvən, qaçqınınla dönməlisən Naxçıvana,
Yorulubdu bu xalq, millət, qəsd edilir min-min cana.

## "QIRMIZI TABOR"

O, Mərənddə qarşıladı nümayəndə heyətini,
Hey görmüşdü aclıq, suzluq, əzabı, zülmü, çətini.

Razılaşdı gələnlərlə, söylədi öz fikrini də,
Dedi gərək əlbir olaq, Vedimizdən çıxa gədə.

Üz tutur o camaata: – Sizlər mənim könlümdəsiz,
Sizsiz bir an üzüm gülməz, varlığımda, sözümdəsiz.

Qətiyyətli sözlər deyir nümayəndə heyətinə,
Gələnlər də görürlər ki, necə yanır millətinə.

– Dinc əhali lazım deyil, hərbi qüvvə yetər bizə,
Zəfər çalıb qayıdacam, söz verirəm inan sizə.

Qaytaracam evinizi, elinizi, obanızı,
Quştək ayrı düşdüyünüz o müqəddəs yuvanızı.

Deyib gedir Naxçıvana, səs yayılır hər bir yana,
Sevinir körpə uşaqlar, qız-gəlinlər, ata, ana.

* * *

"Qırmızı tabor" adıyla yeni dəstə yaratdı o,
Gəlişiylə yatanları, susanları oyatdı o.

Hər tərəfdən axışırdı vətənpərvər ər oğullar,
Bəy oğluna qoşulurdu döyüş üçün nər oğullar.

Şərurlu bir gözəl qız da bu dəstəyə gəlmək üçün,
Ağrıları, acıları, dərd-bəlanı bölmək üçün.

Bəy oğluna namə yazır, göz yaşları dönür selə,
O dövrdən həmin namə, bizə gəlib çatıb belə:

– Mən Əfruzam*, ayrılmışam elimdən,
Zara gəldim daşnakların əlindən,
Bir iltizam göndərirəm dilimdən.
Məni də yaz, Abbasqulu, dəstənə,
Adım düşsün nəğmələrə, dastana.

*– Şərur rayonunun Kərimbəyli kəndindən yoxsul İsmayıl kişini Kərki kəndinə didərgin salandan sonra öldürmüşdülər. Son nəfəsində qızı Əfruza düşmənlə mübarizə etməyi vəsiyyət edir. 1920-ci ilin payızında Əfruz "Qırmızı tabor"a qoşulmaq üçün Abbasqulu bəyə məktub yazır və ondan cavab alır. Döyüşlərdən sonra döyüşçü-partizan Ələsgər Kərimovla evlənərək Hortun kəndində yaşayan Əpruz xanım çox erkən vəfat etmiş, bir qız övladı qalmışdır.





Qırılıbdı qanadlarım, qolum yox,
Ətrafımda düşmənlər çox, zalım çox,
Sizdən başqa kimsənəm yox, yolum yox.
Məni də yaz, Abbasqulu, dəstənə,
Adım düşsün nəğmələrə, dastana.

At minərəm Həcər kimi, ər kimi,
Döyüşərəm igid kimi, nər kimi,
Qoruyaram Dəmirçini, Kərkini.
Məni də yaz, Abbasqulu, dəstənə,
Adım düşsün nəğmələrə, dastana.

Bəy oxuyur bu naməni, həm sevinir, həm kövrəlir,
Bu qəhrəman, igid qızın sözləri bağrını dəlir.

"Halal olsun" deyir min kəs, çox yaraşır hünər qıza,
Qəti qərar şıxararaq cavab yazır o Əfruza:

– Çox göz yaşı axıdıb, dağı-daşı sulama,
Gəlişinə sevinər Vedi, Sarı dolama,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!

Bizim dağ Ağrı dağdı, Ağrı el yaylağıdı,
Qəmə batma, çal-çağır, hər yanımız yağıdı,
Heç yubanma, dayanma, tez ol, gəl, Əfruz bacım!

Bu dünya bir çeşmədir, kim bal, kim zəhər içər,
Bu dünya bir körpüdür, kim mərd, kim namərd keçər,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!

Bu dərə Cığın dərə, çiçəyini kim dərə,
Sizin kimi bir qızı bənzədirəm ərlərə,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!

Yetmiş kənddi Şəruru yağılara vermərik,
Biz Vətən övladıyıq, düşməndən xof etmərik,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!

Şir təki nərə çəkib Vətən azad edərik,
Alışarıq köz kimi, qoruyarıq göz kimi,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!

Bu el Vedibasardı, ətəyi selbasardı,
Düşməndən qorxumuz yox, evlər hasar-hasardı,
Heç çəkinmə, dayanma, durma, gəl, Əfruz bacım!*

* * *

Sərhəddə də nəzarəti qaçırmırdı gözdən bir an,
Neçə yerə bölünmüşdü, bəy oğlunda olan bu can.

Qızıl Ordu köməyilə taborçular irəlləyir,
Daşnaklar geri qovulur, qədəmlər Şərura dəyir.

Əvvəl Şərur azad olur, növbə çatır Sədərəyə,
Düşmənləri qovmaq üçün hücum edir Sədərəyə.

Sədərəkdən sonra isə üz tuturlar Ata yurda,
Çalışırdı Abbasqulu tez özünü ata yurda.

Qıra-qıra daşnakları qələbəni əldə etdi,
Dinc əhali qayıtmamış Vedisinə özü getdi.

Söz vermişdi: – Bu torpaqlar inanın ki, alınacaq,
Azadlığın tərənəsi hər tərəfdə çalınacaq.

* – Hər iki namə maarifpərvər ziyalı, taborçu Bilas Şadlinskinin şəxsi arxivindən müəllif tərəfindən aşkar olunmuş və olduğu kimi saxlanılmışdır.





Əməl etdi dediyinə, Böyük Vedi azad oldu,
Küçələri dolaşdıqca bəy oğlunun gözü doldu.

Asta-asta irəllədi – məhəllələr yandırılmış,
Elə bil ki, kəhər at da insan kimi qandırılmış.

Nə kişnəyir, nə döyükür, yas tuturdu olanlara,
Sakit-sakit boylanırdı gül rəngləri solanlara.

Abbasqulu kəndi gəzib evlərinə sarı gəldi,
Bu ayrılıq, bu intizar ürəyini sanki dəldi.

Kövrəlmiş, gözündə yaş dönmüş selə,
Qərib bilməmişdi özünü belə:

Bağrım başı qan, Vedi,
Sənə qurban, can Vedi,
Daşnak atdı alova
Ömrü boyu yan dedi.

Sənsiz günüm il oldu,
Yanan ürək, dil oldu,
Qoynundan ayrı düşdüm
Beş ayım min il oldu.

Sinəndə gülləm, Vedi,
Sirrimi bölləm, Vedi,
Səndən ayrı dözmərəm
Qoynunda ölləm, Vedi.

Dərd içimi göynədir,
Könlüm məni söylədir,
İnsanı fani dünya
Zaman-zaman öyrədir.

# AZADLIQ MÜCADİLƏSİ

İyirminin dekabrı, daşnakların hakimiyyətin,
Ermənilər devirdilər, yeyib biri-birin ətin.

Droya da inanmayıb gözdən uzaq saxladılar,
Yalnız hərbi inqilaba bellərini bağladılar.

Daşnak yenə dinc durmadı, dağıdırdı hey kəndləri,
Dağıdırdı min zülümlə düzəldilmiş o bəndləri.

Can atırlar Şərur səmtə, məqsəd ələ almaq idi,
Öz qara bəd niyyətiylə orada yurd salmaq idi.

İstəyirdi aralansın Vedibasar Naxçıvandan,
Şərur sərhəd olsun dedi, ayrı qalsın ürək candan.

İşlərimiz avand olar, yavaş-yavaş parçalarıq,
Muğamların alıb əldən, biz də kaman, tar çalarıq.

* * *

Xəbər çatdı bəy oğluna, naməгd yenə tələ qurub,
Şərur səmtə getmək üçün neçə gündür hazır durub.

Bəy əmrilə taborçular cəbhə boyu paylaşdılar,
Zəncirvari düzülərək silahlara sarışdılar.

Danzikdən Arazdəyənə, Zəncirlidən Çanaxçıya,
Gözətçilər düzüldülər yollar boyu bağ-bağçaya.

Abbasqulu qərargahla hələlik Danzikə köçür,
Kəndin kənarında olan palçıqlanmış evi seçir.





Fevralın soyuq şaxtası hər tərəfi bürüyürdü,
Qar yağmışdı çölə-düzə, itlər tez-tez hürüyürdü.

Hərdən gəlir at səsləri, arabalar cırıldayır,
Yoldan, izdən ötən olcaq it-pişiklər mırıldayır.

Abbasqulu bilirdi ki, qanlı döyüşlər olacaq,
Neçə-neçə canlar hələ min bir zülümlə solacaq.

O nanəcib quldur Yapon əl çəkmirdi müsəlmandan,
İllər boyu vuruşacaq çıxmayınca ruhu candan.

Min kələklə, min hiyləylə taborçunu qırmaq üçün,
Mənfurların əmri ilə axırına çıxmaq üçün.

Utanmadan, çəkinmədən bacardığın eyləyirdi,
"Mən sonuna çıxacağam müsəlmanın" söyləyirdi.

Bəy oğluna dayaq oldu yenə Yusif, Məhərrəm bəy,
İbrahimlə Yetim Əli göstərirdi ürəkdən səy.

Bu dəfə də qalib gəldi Abbasqulu düşmənlərə,
Bata bilməz heç vaxt daşnak mərd doğulan ərənlərə.

Qələbə çaldı Yapona "Qırmızı tabor" dəstəsi,
Bürümüşdü hər tərəfi könlümüzün şikəstəsi.

İdarə edirdi daşnak İrəvanda hər bir işi,
Qalmamışdı içlərində sözü keçən nər bir kişi.

Yaz gəlmişdi çölə, düzə, güllər, çiçəklər açırdı,
Günəş yenə şəfəqini minbir rəngində saçırdı.

Taborçular bölünmüşdü müvəqqəti işlər üçün,
Kimsə bunu bilmirdi ki, bu bölünmək nədən, neyçün?

Danzikdəki döyüşlərdə əlbir olub vuruşdular,
Xeyli itki üz versə də, arzulara qovuşdular.

Ermənininin cəsədləri düzülmüşdü dağa, düzə,
Tanrım qanlı döyüşlərdə qələbəni verdi bizə.

Abbasqulu igidləri daşnakların evin yıxdı,
"Qırmızı tabor" mərdliklə döyüşərək qalib çıxdı.

Daşnakların şüarıyla ələ keçdi qədim şəhər,
Bolşeviklər qırx beş günə geri aldı – zor, birtəhər.

Məcbur qalıb o yağılar tərk eyləyir İrəvanı,
Dərələyəz mahalına tökmək üçün nahaq qanı.

Üz tuturlar o torpağa – o torpaq da verilməyir,
Mənfur, iyrənc əməlləri heç bir yerdə sevilməyir.

Əvvəl keçib Zəngəzurda məskən salmaq istəyirlər,
Görürlər ki, bəy oğlunun dəstələri izləyirlər.

Tez keçirlər Qafan-Gorus bölgəsinə dayanmadan,
– Biz hökumət qurmalıyıq Şadlinski oyanmadan,

Deyən daşnak məğlub olur, ilk döyüşdən zərbə alır,
Mehri səmtə yol alaraq bir müddətə orda qalır.

Cəlal adlı bir komandir dəftərində belə yazır:
– Daşnakları əzmək üçün taborçular durub hazır.





Gözləyirik bəy oğlunun komandasın döyüş üçün,
Kəsməliydik yer üzündən ermənінin soyun-kökün.

Abbasqulu əmr eylədi: – Taborçular, hazır olun,
Gecə ikən Mehri səmtdən Ketankapa sarı dolun.

Qalmamalı daşnakların nə zalımı, nə gədəsi,
Qorxutmamalı bizləri onların hiylə, hədəsi.

Bu torpaqda başa çatdı onlar ilə vuruşmalar,
Atışmalar, döyüşmələr, əlbəyaxa çarpışmalar.

Ölən öldü, qalanlarsa İran səmtə can apardı,
Yaralılar qırıldılar, yolda-izdə qan apardı.

Mehri bizə uğur verdi, qələbəni əldə etdik,
Sonra isə Sisyan yolu, İstisuya sarı getdik.

Taborçular yol aldılar Göyçə-Dilican dərəsiylə,
Dağın-daşın enişiylə, yoxuşuyla, bərəsiylə.

İrəvana gedirdilər qıra-qıra gizlənəni,
Müsəlmana zülm etməkçün dərələrdə gözləyəni.

Bolşeviklər bəy oğlunun hünərinə heyran qaldı,
İrəvanda qarşılanıb taborçular orden aldı.

Hökumətin komissarı təqdim edib şəxsən özü,
Bəy oğluna üz tutaraq dedi neçə ürək sözü:

–Yoxdu tayın, bərabərin,
Mənə gəlsin dərdin, sərin.

Vedinizi əzizlədin,
Daşnakları təmizlədin.

Çox igidsən, qəhrəmansan,
Min-min cana dəyən cansan.

Ərənlərin özün kimi,
Sındırıb hər bir tilsimi.

Qələbəni qazanmısız,
Ellər üçün çox yanmısız.

Qarşınızda baş əyirəm,
"Halal olsun" mən deyirəm.

("Boyalı maska"nı çəkib üzünə,*
Ordeni taxaraq döndü sözünə.)

–Yaman qırdız o itləri,
Qalıbsa da bəziləri.

Deyim bunu, heç şübhəsiz,
Əminəm ki, əzəcəksiz.

* – „Boyalı maska“ dedikdə daşnakların bolşevik maskası altında gizlənmələri nəzərdə tutulur.





# YENƏ ANASINDAN AYRILDI BALA

Heç vaxt sevinmədi bu Oğuz yurdu,
Namərdlər daima tələlər qurdu.
Bizləri susdurub aman-amanla,
Rusiya işini gördü zamanla.

Stalin, Mikoyan əl-ayaq etdi,
Bizim beynəlmiləl "özündən getdi",
Düşünən olmadı, namərd namərddi,
Mərd isə anadan doğulma mərddi.

İlanın nə ağı, nə də qarası,
Başını əzməkdi elə çarası.
Dözməyib açaraq iç üzlərini,
Elan eylədilər öz sözlərini.

–Bizim olmalıdı Şərur, Naxçıvan,
Yoxsa töküləcək yenə nahaq qan.
Bağlayıb belini gürcüyə, rusa,
İstədi müsəlman yenə qan susa.

Türkiyə döyüşdü mərdi-mərdana,
Doğmalıq göstərib Azərbaycana.
Bu dərdi-bəlanı yayıb hər yana,
Dedi bildirəcəm bütün cahana.

Qaniçən qansızsız əzəldən sizlər,
"İnsanlıq" deviziylə yaşayan bizlər.
Çirkin əməllərə qurban gedirik,
Saflığı, qüruru candan sevirik.

Məhəl qoymayaraq türkün sözünə,
Tərəfdar toplayıb xeyli özünə.
Görüşmələr, yazışmalar başladı,
Gürcülərlə ruslar bizi daşladı.

İmzalar yığışdı, Qarsı* bağladı,
Bu yara ömürlük sinə dağladı.
Payızın xəzanı borana döndü,
Gülüstan ürəklər virana döndü.

Vedini saldılar hallardan hala,
Yenə anasından ayrıldı bala.

Oğuzun torpağı batıb al-qana,
Həsrətlə boylandı Azərbaycana.

Erməni edəcək bizə ağalıq,
Yenə üstümüzdə qaldı çağalıq.

Bu xəbərdən məyus olub taborçular kədərləndi,
Abbasqulu təəssüfləndi, çarəsizcə qəhərləndi:

– Ağac kökü üstə boy atır, bilin,
Bəslənir nazıyla Günəşin, ilin.
Kökü quruyarsa olmaz qanadı,
Çürüyər meyvəsi, məhv olar adı.

Cığıra nə var ki, dağın dərdi bol,
Bəzən milyonları ağladır bir qol.
Sevgisiz, ilhamsız ruhumuz ölər,
Ağıllı adama nadanlar gülər.

* – 1918-ci ildə bağlanan Qars müqaviləsi nəzərdə tutulur..





# SINAQLI GÜNLƏRİ YAŞAYAN VEDİM

## ACLIQ İLLƏRİ

Dinc əhali yavaş-yavaş qayıdır öz torpağına,
Qayıdır öz yuvasına, barlı, bostanlı bağına.

Onlar qoyub getmişdilər hər tərəfi gül içində,
İndi gəlib görürlər ki, dünya-aləm kül içində.

Çöllər, düzlər yandırılıb yemlik, yarpız belə yoxdu,
Nə toxum var, nə də qoşqu, üzüm, qarpız belə yoxdu.

Can atırlar yaratmağa, nə para var, nə də ki, can,
Nə üz gülür, nə də könül, çəkilibdi üzlərdən qan.

Hamı aclıq içindəydi, güman yoxdu bircə dənə,
El qalmışdı unlucanın, salmancanın ümidinə.

Acı günlər, çətin anlar yaşayırdı onda elat,
O zamandan yaddaşlarda qalıb acı bir əhvalat.

Deyirlər ki, bir ana-qız səfalətə düçar olmuş,
Aclıq tüğyan elədikcə qızcığazın rəngi solmuş.

Bircə tikə yavan çörək nə eldə var, nə obada,
Qız aclıqdan əridikcə utanırdı boş tava da.

Qohum-qonşu özü möhtac, ana kimdən nə istəyə?
Sinəsindən qopan nalə sığışmırdı yerə, göyə.

Zavallı qız günü-gündən bir şam kimi əriyirdi,
Uşaq çörək istəyirdi, ana nağıl söyləyirdi.





Olacağa yoxmuş çarə, zaman hərdən belə gəlir,
Nağıllardan usanmış qız axır bir gün dilə gəlir:

– Ana, balan deyiləm? Yemək vermirsən niyə?
Gecələri yorursan nağıllar deyə-deyə.

Nağıl şirin olsa da, qarın doyurmur, amma,
Mənə aş, lavaş gətir, gətir bozbaş və dolma.

Mən nağıl istəmirəm, mən istəyirəm yemək,
Daha əzəlki kimi məni sevmirsən demək?

Baxdı ona gözucu, ana xəcalət ilə,
Canından çox sevdiyi qıza söylədi belə:

– Ay qızım, əzəlki tək yenə sevirəm səni,
Zəmanə ağır gəlib, belə qınama məni.

Obaları, elləri düşmən yaxıb, talayıb,
Bu ehtiyac hər kəsin belində od qalayıb.

Nə arpa var, nə darı, hamı əlacsız, möhtac,
Ruzimiz çıxıb göyə, qalmışıq ac-yalavac.

Duru suya atmağa yoxdu bir ovuc yarma,
Bir səbirdi gümanım, qəlbimi belə qırma.

Səni belə gördükcə parçalanır ürəyim,
Bir azca da səbr eylə, mənim gülüm-çiçəyim.

Atan bəy oğlu ilə gedibdir Naxçıvana,
Uca Tanrının özü qoy kömək olsun ona.

Yəqin yoldadır indi, bu gün-sabaha gələr,
Sənə qazan asaram, od-ocağımız gülər.

Gözlə, bir gəlsin atan, sevinib-güləcəyik,
Dar gün ötüb keçəcək, xoş günlər görəcəyik.

Ay mənim şirin qızım, atan gəlincə gözlə,
Bir azca da ovunaq şirin nağılla, sözlə.

Uşaq, quruca sözlə nə təsəlli tapacaq,
Atalar düzgün deyib: – Ac qılınca çapacaq.

Böyüklər ehtiyacın bilir nə olduğunu,
Yüz nağıl da danışsan, uşaq anlamaz bunu.

Balaca qız nə bilsin axı ehtiyac nədi?
Titrək səslə anaya dönüb belə söylədi:

– Artıq dözə bilmirəm mən,
Gör nə vaxtdır gülmürəm mən.

Mən dözərəm, aclıq qoymur,
Dinləməklə qarnım doymur.

Gözümdə yaş, köksümdə ah,
Hey deyirsən sabah, sabah.

Sabah gəlir, çörək yoxdu,
Aclıq sinəmizə oxdu.

Ana yumub gözlərini,
Deyir ürək sözlərini.





Yalvarsa da hey Allaha,
Deyir, üzü dönüb daha.

Kimsəyə əl aça bilmir,
Ehtiyacdan qaça bilmir.

Bilmir qıza nə söz desin,
Nə versin ki, qızı yesin.

Köks ötürür, qəlbi yanır,
Yeri, göyü, haqqı danır.

Üz çevirib Yaradana,
Yalvararaq deyir ana:

– Sən ey göylərimin, yerimin tacı,
Həmişə çəkdirdin bizlərə acı.

Niyə əsirgədin mərhəmətini?
Yenə rəva gördün zülmü, çətini.

Kafirlər talayıb olan-qalanı,
Veriblər bizlərə dərdi-bəlanı.

Rəhm elə, yavruma bir nicat yetir,
Ya bir yol ruhumu canımdan götür.

Daha yox dözümüm bu qara günə,
Yandır varlığımı, qoy dönüm külə.

Ana sözlərini çatdırır sona,
Bu dünya bir zülmət görünür ona.

Yumulur gözləri, quruyur əli,
Dərd-məlal içində çatır əcəli.

Qızcığaz anaya baxıb darılır,
Girib qucağına ona sarılır.

Heyhat, hənir gəlmir cansız bədənə,
Acı fəryad qopur qızın dilindən:

– Ana can! Ay ana, sevirəm səni,
Boğulur, hıçqırır... – Tək qoyma məni.

Deşir ürəyini ahı-naləsi,
Sönür gülzarının şehli jaləsi.

Sarılır anaya o körpə fidan,
Ana ondan məsum, o da anadan.

Qız, ölüm nə şeydi – dərk edə bilmir,
Ana qucağını tərk edə bilmir.

Qısılıb anaya körpə ağlayır,
Ağlaya-ağlaya bağrı çatlayır.

Görənlər qovrulur, yanır bu hala,
Ana qucağında göz açan bala.

Hələ sən dünyanın işinə bax bir,
Ana qucağında dünyadan gedir.

Məzar qucaqlayır ana-balanı,
Neyləmək, taleyin budur olanı.





Belə deyirlər ki, o məşum gecə,
Yer-göy səhərədək yanmış eləcə.

Dağ-daş nalə çəkmiş, quşlar ağlamış,
Təbiət hüznlə qara bağlamış.

Bu müdhiş faciə, ağır müsibət,
Qəlbləri hələ də yandırıb yaxır.

O vaxt bu taleyə şahid olan Ay,
Göydən xəcalətlə üzümə baxır.

## ABBASQULU BƏY QURUCULUQ İLLƏRİNDƏ

Canından çox sevir el-obasını,
Doyunca görməyir öz yuvasını.

Əhali yığışır ev-eşiyinə,
Ehtiyac qalmayır Bəy keşiyinə.

Gedir Naxçıvana bölmə rəisi,
Uğurlu edərdi sevdiyi işi.

İki il sərhədə nəzarət edir,
Sonra da Vediyə – evinə gedir.

Kirəc emalına razılıq alır,
Xalq onun işindən narazı qalır.

Deyirlər səninçün çox kiçik işdi,
Adına-sanına yaraşmır, pisdi.

Bəy isə dönməyir tutduğu yoldan,
Deyir ağıl bizdən, bərəkət qoldan.

Kollektiv toplayır kirəc işinə,
Dözür əzabına, yaxşı-pisinə.

Kirəc emalını gətirir başa,
Zəhməti getməyir şükür ki, boşa.

Dolanıb dağları, bərəni-bəndi,
Aləmə səs salır Dəvəli kəndi.





Su arxı çəkdirir Vedi çayından,
Hamı razı qalır Bəyin payından.

Zamanla qoynuna bərəkət dolur,
Dəvəli çevrilib bir şəhər olur.

Zəhməti eyləyib özünə peşə,
Ürəklə girmişdi bu ağır işə.

Oğlu İsgəndərlə çalışdı qoşa,
Çəkdiyi zəhməti getmədi boşa.

* * *

O illərin şahidiydi Heydər oğlu Bilas kişi,
Gözlərinin önündəydi bəy oğlunun hər bir işi.

Söyləyirdi: – Dərdimizi-bəlamızı bilirdi o,
Anaların, bacıların göz yaşını silirdi o.

Düşünürdü körpələrin, cavanların taleyini,
Təhsilindən aralıda qalanların taleyini.

Can atırdı maariflənsin bütün kəndlər, Böyük Vedi,
–Bəsdir daha mənim xalqım ağrı-acı, kədər yedi.

Yer verməli məktəblərə, mədəniyyət ocağına,
Hər bir ana gül verməli övladının qucağına.

Cavanların əllərindən düşməməli kitab, qəzet,
Üz tuturdu atalara: – Övladını savadlı et.

Az gəzsinlər dağ-dərəni, qələm alıb yazsınlar söz,
Əzizlərim, üfləməsən yanmaz ocaq, alışmaz köz.

Əlbir olmalıyıq bizlər, xalq çatmalı xoşbəxt günə,
Yayılmalı xoş sədamız yer üzünə, Aya, Günə.

Yaratmalı rəsm əsəri, yazılmalı nəğmə, şeir,
Bəsdir daha dillərimiz hicranlara ağı deyir.

Bir gözümüz ağlasa da, bir gözümüz gülməlidir,
İndi artıq hər bir uşaq yazmaq, pozmaq bilməlidir.

O zamanlar məktəblərdə dərs demişəm mən də, bilin,
Lap canlıca şahidiyəm o ağrılı, acı ilin.





# MƏKR VƏ XƏYANƏT

## DAŞNAKLARIN SON HİYLƏSİ

Çox mərdləri qova-qova naşılar eylədi namərd,
Dünya aləmi bürüdü qan-qadayla dolanan dərd.

Bir milləti iki yerə parçaladı ermənilər,
Müsəlmanın dövlətini hey taladı ermənilər.

Şura yaman incidirdi, günahsızlar dözəmmirdi,
Dünyaları dar gəlirdi, obasında gəzəmmirdi.

Sovetləri sevmədilər, hey yandılar yanan odda,
Zaman-zaman alovlandı, soyumadı yanan od da.

Hökumət çox düşünüb verdi məkrli qərar,
Olsa da çovğun, boran, yağsa da düzlərə qar.

Şadlinski gedəcək dağlardakı görüşə,
Yəqin ki, dözməyəcək könlü, bulanıq işə.

Yoxsa da ürəkdə sevgi, məhəbbət,
Pisliyin iç üzü açılar əlbət.

Atalar deyiblər qoru özünü,
Bədxaha, naqisə demə sözünü.

"Qarı düşmən" dostluq eyləyə bilməz,
Cəlladın önündə könüllər gülməz.

Şahlara qalmadı o tacı-taxtlar,
Gah qara, gah sa da o ala baxtlar.





Hər gecə görünən yuxu kimidir,
Ətirli, ətirsiz qoxu kimidir.

Yumub gözlərini "maskalı düşmən"*,
Dedi qərarlıyam bu işlərdə mən.

Dediyim sözlərdən qətiyyən keçməm,
Bəydən başqasını bu yola seçməm.

Qoy getsin, öldürsün qardaş-qardaşı,
Dik gəzir bu eldə-obada başı.

Neçə ki ölməyib gün yoxdu bizə,
Camaat baxmır ki, bir sözümüzə.

Onun dedikləri qanun-qaydadır,
Nə desə, deməli xalqa faydadır.

İndi göstərəcəm qanunu ona,
Bu yolda ömrü də bitəcək sona.

Qoy görsün analar doğan oğlanı,
Dağlara, daşlara yazılsın qanı.

Bir zaman o bizə qan uddurubdu,
Dalımca deyərmiş o, qudurubdu.

İndi vəzifəli, pullu oğlanam,
Arxamda dayanıb Nataşa xalam.

* – Bolşevik mundiri geyinmiş erməni nəzərdə tutulur.

Hərdən bir xərclik də göndərir mənə,
Deyir: – Himayəlik edəcəm sənə.

Alacam Vedini bir ad günündə,
Özüm də gələcəm bu şad günündə.

Bir zaman daşnakdım, indi bolşevik,
Gör necə dəyişdim, çevikəm, çevik.

Mənə də deyərlər şeytan Zakaryan,
İndi alovumun oduna sən yan.

Əmrimlə göndərim, get danışığa,
Gör nələr eyləyir sənə bu dığa.





## AİLƏ İLƏ HALALLAŞMA

Yüz dəfə getsə də davaya Xəlil,
Ağzında heç zaman dolaşmazdı dil.
Bu səfər nədənsə onu sıxırdı,
Ürəyi köksündən sanki çıxırdı.

Qara gözlərində vardı bir kədər,
Elə bil boğurdu onu qəm, qəhər.
Könlünü boşaldıb dəftər, qələmə,
Qapıdan çıxanda verdi sənəmə.

Dedi: – Oxuyarsan olmayanda biz,
Təsəlli taparsız bu kağızla siz.
Şair olmasam da, könlüm doludu,
Müşayiət etdiyim Abbasquludu.

Vedinin ən ağır, təmkinli oğlu,
Gələndə kəsilər qurbanlıq töğlu.
Əyninə ətəkli şinel geyərdi,
Susmaqla baxışı çox söz deyərdi.

Şöhrəti çatmışdı türkə, İrana,
Bir canı dəyərdi neçə min cana.
– Bizimçün narahat olub eyləmə,
Kimsəyə getdiyim yeri söyləmə.

Bir dostu, düşməni olur hər kəsin,
Heç zaman kövrəlmiş çıxarma səsin.
Qoy mənim oğlum da məğrur böyüsün,
Atası Xəlillə daim öyünsün.

Xəlil uzaqlaşırdı,
Yaş gözlərdə daşırdı.
Gəlin əlləri titrək,
Qəm kağızı açırdı:

– Gedirik, a güllü bağçalar, bağlar,
Yara deyilməmiş sözümüz qaldı.
Ay yağan yağışlar, ay bəyaz qarlar,
Batıb içinizdə dizimiz qaldı.

Dalımca boylanıb dolan ağlarım,
Həzin xatirədi sənli çağlarım,
Ay duman başını alan dağlarım,
Yaşıl yamacında izimiz qaldı.

Doymadım anamın isti aşından,
Alagöz ceyranın qələm qaşından,
Beləcə yaranıb dünya başından,
Çox nazı-nemətdə gözümüz qaldı.

Gedirik, bu səfər yaman bürkülü,
Könlümə, gözümə üfrülür külü,
Körpəcə Nəriman – evimin gülü,
Böyüyər, bilərik közümüz qaldı.

Arzumdu elləri bürüsün bolluq,
Geysin qız-gəlinlər mübarək donluq,
Əyrinin sonuna çıxaq biryolluq,
Bilək ki, ömürlük düzümüz qaldı.





Ay ellərim, gedib bir də dönməsək,
Halallıq eyləyin sizi görməsək,
Günləri, ayları yelə verməsək,
Əmanət deyəsi "döz"ümüz qaldı.

Rəhmət oxuyarsız Bəyə, Xəlilə,
Havası yadigar qalan Cəlilə,
Bir dastan yazılıb düşərsə dilə,
Bilərik ağappaq üzümüz qaldı.

* * *

Yol gedirlər Xəlil, Bəyi,
Həzin-həzin çiləyir qar.
Gedənlərin birdi səyi –
Gül qoxusun bu il bahar.

Yatırılsın bu qan-qada,
Susdurulsun dava-dalaş.
Verilməsin ömür bada,
Axıtmasın yanaqlar yaş.

İlk dəfəydi yol gedirdi,
Talıbovla bəy oğlu Bəy.
Bəy oğlunu seyr edirdi,
Yaratmaq üçün özündə rəy.

Gör necə ağıllı-təmkinli baxır,
Ağzından nur yağır kəlmə yerinə.
Yerişi-duruşu dağlardan ağır,
Onu düşünməyin burda yeri nə?

Deyib baxışını ayırır ondan,
Uzanan yollara tikir gözünü.
Görəsən bir fayda olacaq bundan,
Yoxsa salacaqlar yerə sözünü?

Görüb gözündəkini,
Duyub sözündəkini,
Talıbova söylədi
Bəy öz könlündəkini:

– Yollar daşlı-kəsəkli,
Yollar fitnə-fələkli.
Yolları keçmək üçün,
Olmalısan ürəkli.

## XƏLİL XATIRLAYIR

On səkkizdə kəndi duman alanda,
Günahsızlar səngərlərdə qalanda.
Bəy oğlundan imdad istəyir hamı,
Onun baxışından alıb ilhamı.

Qələbə çaldılar döyüş zamanı,
Daşnaka verմədən əsla amanı.
O zaman bəy oğlu Xəlilə deyir:
– Sən zəhmət adına hünərə yüyür.

Durma sən burada, qayıt kəndə get,
Eli yığ başına, əkin-biçin et.
Aclıqla qələbə qazanmaq çətin,
Əyilmə həyatda mətin ol, mətin.





– O torpaqlar axı sizin payınız,
– Bir deyil ki, üç deyil ki sayınız.
O zaman mənimdi, indi sizlərin,
Bircə düşməni var artıq bizlərin.

O da ki, daşnaklar – ermənilərdi,
Nahaqdan açıblar başıma dərdi.
Bilirəm, camaat mənə inanır,
Hər sözdə, əməldə aqiləm sanır.

Odur ki, torpaqlar halaldı, bilin,
Könüldən kədəri, qüssəni silin.
Tələbə vaxtında iki qardaşım,
Nəriman, bir də ki, Cəlil sirdaşım.

Deyərdi biz gərək sevək torpağı,
Ananı, Vətəni, bir də bayrağı.
Anadan doğulub, torpaqda öllük,
Sevinci Vətənlə, bayraqla böllük.

Torpaq naz-neməti yedirdir bizə,
Odur taqət verən dizlərimizə.

Daha danışmadı üçündən biri,
Könüllər bilirdi sehiri, sirri.
Hərə öz payına dua edirdi,
Enişlə, yoxuşla atlar gedirdi.

## PUSQU

Ensiz bir cığırda düşdülər nəhsə,
Atlar ayağını saxladı səsə.
Xəlil Ərəbini yaxşı tanıyır,
Yenə də hay verib bir də sınıyır.

Görür ki, at hürkür, getmək çətindir,
Yoxsa ki, bu Ərəb mərddi, mətindi.
Bir güllə atılır, hamı diksinir,
Talıbov yəhərin üstünə sinir.

Bu silah səsindən atlar kişnəyir,
Açılan ilk güllə Xəlilə dəyir.
Qıvrılıb açılır, yıxılır atdan,
Artıq dünya-aləm çıxmışdı yaddan.

Çəkilir iri bir daşın küncünə,
İstəyir hey versin ölən gücünə.
Bəy oğlu tapdayıb ağappaq qarı,
Çəkilir daldaya, daşlara sarı.

Kimlərdi, neçədi, bilmir sayını,
Silahsız bəs necə versin payını.
Düşünüb axtarır gözü Xəlili,
Özündən çox sevib düzü Xəlili.

Gözləri sataşdı Xəlilə bu an,
Taqətsiz düşmüşdü – döşündə al qan.
Üzünü dayadı onun üzünə,
İstədi dəyməsin gözü-gözünə.





– Bir görüm, deyəsən qanayır yaran,
Qardaşım, ağırdı, incidir haran?
Səbr eylə, tərpənmə, bax beləcə qal,
Səni belə görcək olmuşam bihal.

Ürəyi daşdanmış atəş açanın,
Dağlara-daşlara qurd tək qaçanın.
Bizi gözləyirmiş namərd gülləsi,
İnan ki, qəfildən eşitdim səsi.

Görəsən nə üçün bizi seçiblər?
Xətirdən-hörmətdən yəni keçiblər?
Xəyalım dolanır olub keçəni,
Yadına salıram fikrim seçəni.

Biz yola düşəndə çox şeylər oldu,
Xəlilə üz tutub inadla sordu:
– Sənin biletini aldılar nədən?
Nə üçün göndərdi silah vermədən?

– Söylədi nəyinə gərək olacaq,
Bunlar bir yük olub səni yoracaq.
Keçmədim üzündən, o deyən oldu.
Xəlil zarıyırdı, bəy oğlu doldu:

– Deməli bu işlər bir kələk imiş,
Bizləri göndərən o fələk imiş.

Tikdi gözlərini Xəlil səmaya,
Ağappaq qar yağdı baxışlarına.
Arxada dağ vardı, önündə qaya,
Baxdı o, quşbaşı naxışlarına.

Balaca Nəriman düşdü yadına,
Bir də ki, laləli, nərgizli çölü.
Min kərə qurbanam oğul adına,
Son kərə "Nəriman" söylədi dili.

İtirdi zəmanə haqqın yolunu,
Söyləyə bilmədi Xəlil son sözü.
Süzdü baxışları Abbasqulunu,
Söndü gözlərinin alovu, közü.

Söz demək istədi, səsi çıxmadı,
Onu namərd yıxdı, güllə yıxmadı.
Bəy oğlu Xəlili basdı bağrına,
Dedi qurban olum, qardaş, ağrına.

Demərəm bu dünya cılızdı, dardı,
Onun da özünün qanunu vardı.
Geydirib hər yana ağappaq qarı,
Deyir ki, eylədin ömürü yarı.

Kəfənin ağ yorğan, bəyaz qar olsun,
Sənə qəsd edənə zülüm yar olsun.
Xəyanət bu canı öldürdü nədən?
Ayrıldı ruhundan soyumuş bədən.

Namərdin gülləsi tuşlanır ona,
Yox, artıq qələm də dözməyir buna...
Güllələr sel kimi yağır canına,
Həzin bir istilik gəlir qanına.

Gedib çatammadan mənzil başına,
Namərdlər zəhəri qatdı aşına.
El üçün, torpaqçün yanan bir ürək,
Belə olmayaydı sonunda gərək.





Göy üzü qaraldı, doldu buludlar,
Saçını həsrətlə yoldu buludlar.
Elə bir od saldı ildırım, şimşək,
Susub qarşısında soldu buludlar.

Dağlar çiskinini, çəni silmədi,
Qayalar oldu bir qənim, dinmədi.
Bəyaz qar ağladı tutduğu işə,
Kəfənlik olduğu dəmi bilmədi.

Qar gülü boylandı bəy oğlu Bəyə,
– Kim saldı sizləri bu hala? – deyə,
Sinəndə yataram ömürlük sənin,
Dönə bilməsəm də dizində heyə.

Bu zaman uzaqdan gəldi kəhəri,
Üzündə, gözündə vardı qəhəri.
Dili olmasa da nəsə deyirdi,
Başını Bəyinə səmit əyirdi.

Boyun-boğazını sakit qoxladı,
Elə bil bağrını nəsə oxladı.
Kişnədi, bu səsdən titrədi dağlar,
Titrədi qayalar, titrədi daşlar.

O dilsiz-ağızsız vəfalı atı,
Qorudu Bəyinə xas olan adı.
Deyirlər, o vaxtdan bir daha kəhər,
Heç vaxt götürməyib üstünə yəhər.

## BƏYİN ÖLÜMÜNƏ

Ay ellər, obalar, dərdimi bilib,
Çiçəklər ağladı, güllər ağladı.
Bəd xəbər yayıldı – Bəyimiz ölüb,
Bəyin ölümünə dillər ağladı.

Daha tapammarıq dərdə çaranı,
Kimlər sarıyacaq qanlı yaranı,
Bu bayram yenə də geyib qaranı,
Bəyin ölümünə illər ağladı.

Ömrünü, gününü fəda eylədi,
"Millətçün, qeyrətçün ölləm", – söylədi,
Getdi, arxasınca göylər göynədi,
Bəyin ölümünə sellər ağladı.

Bir məktəb yaratdı özülü özü,
Yarımçıq kəsildi ağzında sözü,
Arxadan vurdular, görmədi gözü,
Bəyin ölümünə yellər ağladı.

Qıymadı budağa ürkək qonana,
Hörmətlə yanaşdı haqqı qanana,
Dedi vurulmuşam nazlı sonana,
Bəyin ölümünə göllər ağladı.

Utandı dərələr, bağçalar, bağlar,
Sanki qürurunu itirdi dağlar,
Bir də çətin dönə o xoşbəxt çağlar,
Bəyin ölümünə yollar ağladı.





Namusu, şərəfi, ərliyi qaldı,
Kişiyə xas olan mərdliyi qaldı,
Baxışı, duruşu, sərtliyi qaldı,
Bəyin ölümünə ellər ağladı.

## CAMIŞBASANDA MATƏM

Cüt tabut gəlirdi atın belində,
Acı göz yaşının leysan selində.

Ağlayır qayalar, dərələr, dağlar,
Ağlayır çəmənlər, bağçalar, bağlar.

Ağlayır nəğməkar quşlar, çiçəklər,
Ağlayır durmadan qəmli ürəklər.

İşini aramla görürdü zaman,
Düşmən hiyləsindən olmadı aman.

Dünyanın vəfası elə buymuş, bu,
Bulanıq axarsa içilməyir su.

İllərlə vuruşdu, döyüşdü əbəs?
Namərdin əliylə kəsildi nəfəs.

El üçün, torpaqçün yandırdı canı,
Sonunda torpağa tapşırdı canı.

## BÖYÜK VEDİDƏ DƏFN

Xəbər gəlir, Böyük Vedi, balan gəlir, al qoynuna,
Səndən ayrı qalammadı, al ömürlük sal qoynuna.

Yenə bu il zəhər dadar bişirdiyin bayram aşı,
Yenə bu il quruyammaz qız-gəlinin gözün yaşı.

Otuzun mart ayı, doqquzu günü,
Təbiət gizlətdi öz günəşini.
Soldu bağçaların çiçəyi, gülü,
Yandırdı könüllər dərd atəşini.

Cüt tabut yollandı Böyük Vediyə,
Bir kəndin, obanın göz yaşı ilə.
Kərkabdan yol alıb Böyük Vediyə,
Gəlmişdi insanlar ağıyla dilə.

Yenə də toy tutdu bizə yağılar,
Yenə ellərimiz qara geyindi.
Dillərə sığmadı qanlı ağılar,
Ürəklər sızladı, dodaq deyindi:

– Bəyim, boyuna qurban,
Getdin oyuna qurban.
Kəcavən bəzənibdi,
Vaxtsız toyuna qurban.

Getdin atın belində,
Dərdi-bəla selində.
Kəcavən bəzənibdi,
Yas qurulub evində.





Yarın yaman ağlayır,
Vermə aman ağlayır.
Kəcavən bəzənibdi,
Dövrü-zaman ağlayır.

Qəm töküldü boynuna,
Getdin namərd oynuna,
Kəcavən bəzənibdi
Vedin alır qoynuna.

Qızıldı dərin quyu,
Duru olmadı suyu,
Kəcavən bəzənibdi.
Uyu, bəy oğlum, uyu,
Uyu, cənnətdə uyu.

# SÖZ SONU

## QİTƏ

Bilmirəm nə deyim olub keçənə,
Hər dövrün, zamanın öz rüzgarı var.

Talenin əmridi alın yazısı,
Oturub gözlərik sonunu naçar.

Xəzana dönübdü güllü baharım,
Solub bağçamdakı ən qiymətli bar.

Ağlayıb sızlamaq yaraşmaz bizə,
Nə qədər yağsa da başımıza qar.

Fələyin işindən baş açmaq olmur,
Gülün qamətinə dolanır hey sar.

Savaş meydanıdı bu fani dünya,
Kimə zinət verir, kimə dövlət-var.

Kimə qucağını açıb gəl deyir,
Kiminsə yerini vaxtsız edir dar.

Getsə də çoxunun namusu əldən,
Bizləri tərk etməz ismət, şərəf, ar!





***

Şeirimlə yol açdım Günəşə, Aya,
Qiymət ver bağçamdan aldığın paya.

Demə ki, şirini, şəkəri azdı,
Söylə könlündəki kamandı, sazdı.

Ruhumu oxşadı bu nəğmələrin,
Nəbzini tutubsan ötən illərin.

Tanrıdan nur alıb bu ala gözə,
Canımla, qanımla bağlandım sözə.

İstədim nə susum, nə də göynəyim,
Olanı, keçəni yazım, söyləyim.

Bir elin, obanın dərdini sizə,
Deyim ki, biləsiz namərdlər bizə.

Divan eyləyiblər, qan uddurublar,
Həmişə hiyləylə tələ qurublar.

Yazmadım oxuyub gözlərin dolsun,
Qoy gələn nəsilə ərmağan olsun.

Bilsinlər tarixdə olan hər anı,
Yaxşı tanısınlar qoy bu cahanı.

Verəndə, alanda ayıq olsunlar,
Xəyanət insanı yaman ovsunlar.

Çox şahları xəyanətlə yıxıblar,
Divan tutub, güllələyib yaxıblar.

Yenə də tarixdə izləri qalıb,
Əbədi əməli, sözləri qalıb.

Lənət xəyanətə, lənət şeytana,
O salıb dünyanı qadaya, qana.

Qoymayıb insanlar rahat dolana,
Torpaqçün, vətənçün şəhid olana.

Ölüm gözəllikdi, ölüm sehirdi,
Ölüm məhəbbətdi, ölüm mehirdi.

O kəs ki, şərəflə yaşayıb, gəzib,
Nahaqqın başını haqlıca əzib.

Xalq üçün, el üçün canından keçib,
Müqəddəs sayılan bir yolu seçib.

Cənnət mələkləri ruhunu qucar,
O da mələklərtək göylərdə uçar.

Ancaq ki, xəyanət güllələnməli,
Mərdə dəyməməli namərdin əli.

Olsa mükafatı, olar bir "lənət",
Çirkaba bulanıb solar xəyanət.

Gözəllik həmişə əzizlənəcək,
Saflığın ən parlaq ulduzu kimi.





Həqiqət zamanla əzizlənəcək,
Dönəcək üstünə bir ruzu kimi.

İlləri ələdi zaman ələyi,
Yaxşını, yamanı gördük aramla.

Dünyanın şeytana bənzər fələyi,
Yenə də oynadı qanlı yaramla.

Həzin xatirələr düşdü yadıma,
Onları nə vaxtsa mən dinləmişəm.

Bu gün də çatdılar yenə dadıma,
Baxma dinləyəndə hey inləmişəm.

Tanrı verib səbrimizi, yaşayırıq, hələ varıq,
Həyat eşqi könlümüzdə, xoş müjdələr arzularıq.

O günlərdən bu günlərə ağlayırıq gülə-gülə,
İllər keçib o zamandan xatirələr gəlir dilə.

Bilas oğlu Azər deyir: – Şadlinski nəslindənəm,
Məğrur olub xanım-xatın, gülərüzlü Maçan* nənəm.

Gəlişiylə gətirərdi toy-bayramı evimizə,
Hər tərəfli örnək idi obamıza, elimizə.

Uşaq vaxtı nadinc idim, dəcəl idim, – qaynayırdım,
Bütün günü məhəllədə uşaqlarla oynayırdım.

* – Maçan nənə Abbasqulu bəyin həyat yoldaşı olmuşdur.

Bir gün əlim yaralandı, ətim ətdən aralandı,
Dözəmmədim bu ağrıya, sanki bağrım paralandı.

Yaman haray-həşir saldım, evdəkilər kədərləndi,
– Bir azca döz, – deyə-deyə anam Gülzar qəhərləndi.

Maçan nənə gəldi bizə, yarama məlhəm eylədi,
– Bir də şuluq salsan əgər, sağaltmam səni, – söylədi.

İndi həzin xatirədi o çağların həqiqəti,
Damağımda min tam verir uşaqlığın şirin məti.





## ABİDƏ

Burdaca dastanım bitəcək sona,
Bu ellər, obalar könlündə ona.
Böyük bir abidə ucaldıb, bilin,
Gözlərdən kədəri, qüssəni silin.

Olmasa da bürünc, qızıl heykəli,
Ona abidədi işi, əməli.
O ellər içində ad-san qazanıb,
Millətin adını şərəflə anıb.

Xalqının könlündə yuva salıbsa,
Tarixdən bir şanlı səhifə alıbsa.
Ayları, illəri zamanla aşar,
Demək ölməyibdi, əbədi yaşar.

...Yenə qəhrəmanım durub önümdə,
Məğrur baxışları üzümə baxır.
Tutduğu bu işdən bəlkə ölüm də,
Utanır, bilir ki, qəlbləri yaxır.

Göy üzü bulanır, ulduzlar solub,
Göylər ağlayacaq yerin halına.
Bu dərdə, möhnətə buludlar dolub,
Dözəmmir xəyanət qalmaqalına.

Nur yağır, damlalar nəğmə söyləyir,
Sanıram ürəyim sinəmdən çıxır.
Həzin bir laylayla içim göynəyir,
İlahi bir qüvvə çiynimi sıxır.

Çox şükür, Allahım, çox şükür sana,
Mən də qələmimlə bir nida qoydum.
Verdiyin bu nemət əzizdi mana,
Demərəm bezikdim, darıxdım, doydum.

Bir arzu içimdə qübar eyləyir,
Gedənlər geriyə dönəydilər kaş.
Bir oba həsrətli şərqi söyləyir,
Yenə yanağımda giləlınir yaş:

– Qələm alıb söz dedin,
Bir azca da döz dedin.
Bağrım yandı, alışdı,
Sən bu oda köz dedin.

Dözəmmirəm bu dərdə,
Qıydı namərdlər mərdə.
Kimsə ona çatammaz,
Həm qeyrət, həm hünərdə.

Bu yol Tanrı yoludu,
Yolu nurla doludu.
Mənim şanlı sərkərdəm
Ululardan uludu,
Məğrur Abbasquludu.

Əzizlərim, dünya yaman dünyadı,
Dadi-bidad, dünya aman dünyadı,
Çox illəri yola salıb durmadan
Elə haman, elə haman dünyadı.





***

Oxucum, gözlərim toralıb dərddən,
Nə qədər yazarlar acı həsrətdən.
Dağılıb evimiz, uçub hasarım,
Təsəlli yerimdir "Vedibasar"ım*.

Ümidlə baxıram doğan Günəşə,
Bir gün Tanrım verər bizə də nəşə.
Qəfil eşidərəm əmr-fərman var,
Bu dərdə, bəlaya çarə, dərman var.

Şad xəbər yayılar eldən ellərə,
Nəğmələr süzülər dildən dillərə.
Sevinər Fərmanın müqəddəs ruhu,
Söyləyər, – ay aşıq, bir sazla oxu.

Qayıdır yenə də ellər Vətənə,
Qoy səsin yayılsın burda yetənə.
Rahat uyusunlar bu son mənzildə,
Nəğməndə yer alsın bəm ilə zil də.

Yazdıqca bu həzin, kövrək sözləri,
Ağlatdı Nəsibə qəmli gözləri.
Söylədi, sevinci bölərəm burda,
Qayıdıb Vedimə ölərəm orda.

* – 2003-cü ilin fevralından nəşr olunan "Vedibasar" qəzeti nəzərdə tutulur.

# ABBASQULU BƏY ŞADLİNSKİ

*Azərbaycanın Xalq qəhrəmanı*



Abbasqulu bəy Şadlinski 1886-cı il fevral ayının 24-də Böyük Vedi kəndində anadan olmuşdur. Atası Xanbaba bəy 1894-cü ildə onu Böyük Vedidə 1883-cü ildən fəaliyyət göstərən ikisinifli rus-tatar məktəbinə qoyur. Abbasqulu bəy Böyük Vedi məktəbində, İrəvan gimnaziyasında təhsilini uğurla başa çatdırır. Sonra atası Abbasqulu bəyi Qoridə təhsil almağa göndərir.

Tezliklə bütün imperiyanı bürüyən siyasi gərginlik və sinfi qarşıdurmalar İrəvan quberniyasını da lərzəyə gətirir. Burada siyasi iğtişaşlar milli münaqişələr şəklində təzahür edir. Abbasqulu bəy təhsilini yarımçıq qoyub, Böyük Vedi kəndinə qayıdır. Sadə camaat arasında Abbasqulu bəyin hörməti günbəgün artır.

1917-ci ilin oktyabr ayından sonra erməni silahlı quldur dəstələrinin Bakı, Gəncə, Tiflis və İrəvan quberniyalarında özbaşınalığı görünməmiş miqyas alır.

İrəvan quberniyası Vedi nahiyəsinin rəisi, Vedibasarın igid oğlu, 32 yaşlı Abbasqulu bəy Şadlinski Böyük Vedinin və ətraf kəndlərin mərd və qoçaq cavanlarından silahlı dəstə yaratmağa başlayır. Həmin dəstə tezliklə "Mübariz dəstə" adı ilə məşhurlaşır.

1917-ci ilin dekabrında Böyük Vedi kəndində keçirilən tarixi müşavirədə yaradılan müvafiq inzibati-idarəetmə strukturu üç ilə yaxın bir müddətdə yaşamış, uğurlu fəaliyyət göstərmiş və 1917-1921-ci illərdə bütün Cənubi Qafqaza meydan oxuyan erməni daşnak hökuməti ilə təkbaşına müharibə aparmışdır. Həyatını xalqına həsr edən Abbasqulu bəy Şadlinski hər vətənsevərin qəlbində özünə əbədi heykəl qoymuşdur.





**İrəvan zadəganları, 1860-cı il**

*1) Abdulla xan Makinski; 2) Şükür xan Makinski; 3) Abbasqulu xan Erivanski; 4) Pənah xan Makinski; 5) Ağəli xan; 6) Mirzə Cabbar Qazıyev; 7) Qriqori Yelizarov; 8) Baba bəy Ordubadlı; 9) Mirzə İsmayılov; 10) Hacı bəy Bağırbəyov; 11) Əsəd bəy; 12) Balasultan Şadlinski.*



*Abbasqulu bəy oğlanları ilə birlikdə. 1926-cı il*



*Abbasqulu bəy "Qırmızı tabor"a komandirlik etdiyi illərdə.*



Abbasqulu bəy ömrünün sonlarına yaxın. 1930-cu il.



*Böyük Vedidə Abbasqulu bəy Şadlinskinin cənazəsi ətrafında fəxri qarovul. 1930-cu il, mart.*



*Abbasqulu bəy at belində. Şəkil Şərur Tarix Diyarşünaslıq muzeyindədir.*



*Xalq artisti Həsən Məmmədov "Axırıncı aşırım" bədii filmində Abbasqulu bəy rolunda.*

# MÜNDƏRİCAT


**Rəylər** . . . . . 4
Redaktordan . . . . . 6

**I. Şərəfli bir keçmişi var yurdumun**
Tanrıdan diləyim . . . . . 12
Söz önü . . . . . 14
Şərəfli bir keçmişi var yurdumun . . . . . 20

**II. Şadlının şanlı oğlu**
Çətin məqam, çətin sual . . . . . 30
Göyçədən gəlin almışıq . . . . . 33
Doğuldu Oğuzun qəhrəman oğlu . . . . . 37

**III. Torpaq igid yetirir**
Düşmən təhlükəsi . . . . . 42
Xilaskar . . . . . 43
Çağırış . . . . . 52
Tapşırıq . . . . . 55
El bir olsa, dağ oynadar yerindən . . . . . 56
Qəhrəmanın həbsi və azad olunması . . . . . 57
Dada yetir Abbasqulu . . . . . 59
Vedibasar təhlükədə . . . . . 61
Dost gəlişi . . . . . 66
Dumanlı təklif . . . . . 68
Quduz düşmən . . . . . 69
Yenə hücum etdi daşnak Vediyə . . . . . 70
El Əyricədə . . . . . 72
El dağdan qayıdır . . . . . 76
Vedibasar ümid yeridir . . . . . 79
Döyüşən Vedibasar . . . . . 81
Aşıq Cəlil müsibəti . . . . . 83
Ürək ağrımız . . . . . 86
Düşmənlə mücadilə . . . . . 87







Qaçqın qadının hekayəti . . . . . 90
Düşmənin yeni hücumu . . . . . 92
İngilis xəyanəti . . . . . 95
Böyük Vedi qorunur . . . . . 96
Düşmənin hücumu səngimir . . . . . 99
Böyük Vedi sınaqdadır . . . . . 103
Böyük Vedi mühasirədə . . . . . 107

**IV. Mühacir həyatı**
Köç – canlı axın . . . . . 112
Vedimə qaytarın, qaytarın məni . . . . . 120

**V. Zəfər yürüşü**
Qırmızı tabor . . . . . 127
Azadlıq mücadiləsi . . . . . 132
Yenə anasından ayrıldı bala . . . . . 137

**VI. Sınaqlı günləri yaşayan Vedim**
Aclıq illəri . . . . . 140
Abbasqulu bəy quruculuq illərində . . . . . 146

**VII. Məkr və xəyanət**
Daşnakların son hiyləsi . . . . . 150
Ailə ilə halallaşma . . . . . 153
Xəlil xatırlayır . . . . . 156
Pusqu . . . . . 158
Bəyin ölümünə . . . . . 162
Camışbasanda matəm . . . . . 163
Böyük Vedidə dəfn . . . . . 164

**Söz sonu**
Qitə . . . . . 166
Abidə . . . . . 171
Səcərə . . . . . 174
Şəkillər . . . . . 175

NƏSİBƏ İSRAFİLQIZI

# ABBASQULU BƏY ŞADLİNSKİ

*(tarixi-mənzum roman)*

**Nəşriyyat direktoru:** Oqtay Əliyev
**Dizayner:** Safura Həsənağaqızı
**Korrektor:** Bilal İsmayılov
**Operator:** Cəlalə Həsənli

"Ərgünəş" FM. Nəşriyyat-Poliqrafiya Müəssisəsinin mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur. Tiraj: 1000
Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Talıblı küç. 38
Tel.: +99412-432-93-07